RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 129 (10149) 23 iyul 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan qlobal miqyasda mövqeyini möhkəmləndirir

## Bunu Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri də təsdiqləyir

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində aparılan müzakirələrdə Orta dəhlizin və tranzit imkanlarının inkişafı xüsusi yer tutub. Azərbaycanın Mərkəzi Asiya və Avropa arasında körpü rolu oynaması logistika sahəsində alman şirkətləri üçün böyük iqtisadi imkanlar yaradır.

Prezident İlham Əliyev mətbuata bəyanatında nəqliyyat və tranzit potensialı haqqında vurğuladı ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir: "Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır. Bir çox istiqamətlər üzrə konkret fəaliyyət planı nəzərdə tutulur. Bu gün imzalanmış Bəyannamənin icrası ilə bağlı fikir mübadiləsi əsnasında konkret təkliflər irəli sürülmüşdür. Bir neçə işçi qrup yaradılacaq ki, bu gün imzalanmış sənədlər tezliklə həyatda öz əksini tapsın".

Onu da diqqətə çatdıraq ki, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer və Federal Kansler Fridrix Merts ilə keçirilən görüşlərdə Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması istiqamətində əldə edilmiş nailiyyətlər yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı rəsmi Berlinin sülh prosesinə verdiyi töhfələri qeyd edərək bildirib ki, uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu: "Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi... ...Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir".

Səfərin ən mühüm nəticələrindən biri də Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına dair Birgə Bəyannamənin imzalanması oldu. Hazırda Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir və yeni biznes şurasının qarşılıqlı sərmayə qoyuluşlarına əlavə təkan verəcəyi də bəllidir.

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri və Berlində əldə olunan tarixi razılaşmalar ölkəmizin beynəlxalq münasibətlər sistemindəki yerini və çəkisini bir daha nümayiş etdirdi. Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlar, Avropanın enerji təhlükəsizliyində oynadığı strateji rol və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin mərkəzi qovşağına çevrilməsi onu regional çərçivələri aşan qlobal tərəfdaş səviyyəsinə yüksəldib.

Almaniya kimi Avropanın aparıcı siyasi və iqtisadi gücü ilə imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" yalnız iki ölkə arasındakı münasibətlərin institusionallaşdırılması ilə məhdudlaşmır.

6

# Azərbaycan-Misir əməkdaşlığı iqtisadi tərəqqiyə və sülhə xidmət edir



Misir və Azərbaycan arasında əlaqələrin tarixi qədim çağlara gedib çıxır. Hər iki xalqı birləşdirən ümumi cəhətlər çoxdur. Azadlıqsevərlik, qonaqpərvərlik, qonşularla sülh şəraitində yaşamaq istəyi, qədim mədəniyyətlərin beşiyi və daşıyıcısı olmaları və sair bu gün onların sıx əməkdaşlığını zəruri edən mühüm amillərdir. Azərbaycan özünün dövlət müstəqilliyini bərpa edəndən sonra ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Misir Azərbaycanın dövlət müstəqilliyini 26 dekabr 1991-ci ildə rəsmən tanımış və 1992-ci il martın 27-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Misir Qarabağ münaqişəsi zamanı Azərbaycanın ərazi bütövlüyünü, BMT və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində qəbul edilən humanitar və siyasi qətnamələri fəal şəkildə dəstəkləyib.

İki ölkə arasında siyasi münasibətlərin yaxşılaşmasında dövlət başçılarının şəxsi dostluq əlaqələrinin olması da müsbət rol oynayır. Azərbaycan ilə Misir arasında parlamentlərarası əlaqələr hər iki ölkənin xarici siyasətində önəmli yer tutur və strateji tərəfdaşlığın möhkəmlənməsinə xidmət edir.

8

# Ağ günlərin şəhəri - Ağdam

## 23 iyul artıq Azərbaycanın sarsılmaz iradəsinin, qələbəsinin və Böyük qayıdışın parlaq səhifəsidir



2020-ci ilin Şuşa Zəfərindən sonra Kəlbəcər və Laçınla bərabər, bir güllə atılmadan, bir itki verilmədən azad edilən Ağdam cəmi bir neçə il ərzində yenidən doğuldu, quruculuğun, dirçəlişin ünvanına çevrildi. Vətən müharibəsinin üzərindən heç bir il keçməmiş, 2021-ci il mayın 28-də - Müstəqillik Günündə qurucu lider İlham Əliyev tərəfindən Qarabağın ilk təməl daşının Ağdamda qoyulması dərin rəmzi məna daşıyırdı. Bu şəhərin bünövrəsinin qoyulması ilə həm də torpaqlarımıza göz dikən düşmənə və onun havadarlarına Azərbaycan xalqının qüdrəti, əzmkarlığı nümayiş etdirilirdi.

Həmin gün 140 illik tarixə malik 1 saylı məktəbin, Bərdə-Ağdam avtomobil yolunun, Ağdam Sənaye Parkının, "İmarət" kompleksinin və 125 hektarlıq meşə sahəsinin təməli qoyulmaqla başlayan quruculuq salnaməsi bu gün öz böyük bəhrəsini verir.

2022-ci il oktyabrın 4-də Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin təməllərinin atılması ilə Ağdamda daha bir möhtəşəm mərhələ başladı. İndi Ağdam Bakı, Sumqayıt və Gəncədən sonra ölkəmizin dördüncü böyük sənaye mərkəzinə çevrilir. Bərdə-Ağdam avtomobil yolunun, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin istifadəyə verilməsi, Xaçınçay su anbarının yenidən qurulması və digər çoxsaylı mühüm layihələr regiona yeni həyat nəfəsi gətirib.

Ruhumuzu təzələyən Ağdam Cümə məscidinin, Qiyaslı məscidinin və "İmarət" kompleksinin bərpası tarixi-mədəni irsimizin yenidən dirçəldildiyinin göstəricisidir.

8

# Qazaxda biçin başa çatmaq üzrədir



Taxıl həm əhalinin çörək və çörək məmulatlarına, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır. Məhz bu səbəbdən taxılçılığın inkişafı daim dövlətin diqqət mərkəzində saxlanılır.

Dövlət başçısının taxılçılığın inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələr son illər Qazax rayonunda da uğurla icra olunur. Dövlət tərəfindən verilən dəstəkdən bəhrələnən fermerlər taxıl istehsalını artırmaq üçün bütün imkanlardan səmərəli istifadə etməyə çalışırlar.

Bu ilin məhsulu üçün rayon üzrə payızlıq və yazlıq olmaqla 11732,8 hektarda taxıl əkilmişdir ki, onun 6950 hektarı arpa, 4782,8 hektarı buğdadır. Yetişdirilmiş məhsulun vaxtında yığılması üçün bütün qüvvələr səfərbərliyə alınmış, nəticədə uğurlu biçin aparılmışdır.

9

# Şəmkirdə alman mədəni irsinə böyük diqqət var



Almanlar Şəmkirdə üzümçülük, maldarlıq və əkinçiliklə məşğul olmuşlar. Ötən əsrin sonlarınadək fəaliyyətdə olan məşhur Şəmkir Konyak Zavodunu, Lenin qəsəbəsi (indi Çinarlı), Təzəkənd və İrmaşlı kəndlərindəki şərab zavodlarını da onlar tikmişlər. Almanlar Yasamal dağlarının döşündəki meşəliklərdə bulaqlardan Şəmkirin özünə, eləcə də adıçəkilən kəndlərə su çəkmiş, bölgədə ilk su-elektrik stansiyası inşa etmişlər ki, bununla da regionda sənaye inkişaf etməyə başlamışdır. Onlar bu ərazidə yaşadıqları müddət ərzində yerli əhali ilə mehriban ünsiyyət qurmuşlar. Öz dini inanclarını qoruyub saxlayan almanlar qəsəbədə kilsə də inşa etmişlər. Hazırda xalq arasında bura Lüteran kilsəsi kimi tanınır. Şəmkirə yolu düşənlər bu gün həmin kilsəyə böyük maraqla tamaşa edirlər.

Almanların məskunlaşdıqları ərazilərdən biri də rayon mərkəzindən 15 kilometr cənubda yerləşən indiki Çinarlı qəsəbəsi, əvvəlki Georqsfeld məntəqəsidir. Məntəqə 1888-ci ildə yaradılıb, iki ildən sonra burada 5 hektar ərazisi olan mənzərəli park salınıb.

7

# Ölkələrin tarif siyasəti qlobal inflyasiyanı sürətləndirirmi?



Müasir dünyada malların böyük hissəsi çoxşaxəli təminat yolu ilə istehsal olunur. Məsələn, bir avtomobilin ehtiyat hissələri müxtəlif ölkələrdən gətirilir. Xammal və aralıq mallara tarif qoyulduqda son məhsulun maya dəyəri zəncirvari şəkildə kəskin artır. Bir ölkə rüsumları qaldıranda digər tərəf də analoji cavab tədbirləri görür. Bu zəncirvari reaksiya qlobal ticarət dövriyyəsini zəiflədir və xərcləri bütün tərəflər üçün yüksəldir. Faktlar göstərir ki, ticarət məhdudiyyətlərinin artması qlobal tədarük xətlərini bahalaşdırır.

Beynəlxalq təşkilatların hesablamalarına görə, ticarət baryerlərinin yüksəlməsi son illərdə bir çox ölkədə istehlak qiymətləri indeksinə təsir göstərib. Tarif siyasəti, sadəcə, birbaşa idxal olunan malları bahalaşdırmır. O, həm də daşıma, logistika və sığorta xərclərini artırır. Bu vəziyyət ərzaqdan tutmuş elektronikaya qədər hər bir sahədə özünü büruzə verir.

12

# "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789 (Cild I); 2024, № 1, maddə 3; 2026, № 1, maddələr 5, 8) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda3.1.2-1-ci maddə əlavə edilsin:

"3.1.2-1. millilik və dünyəvilik - milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi ümumi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;".

2. 4.0.25-ci maddəyə "təsvirlərini" sözündən sonra "və təhsilverənlər üçün geyim ilə bağlı tələbləri" sözləri əlavə edilsin.

3. 12-ci maddə üzrə:

3.1. 12.13-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət ümumi təhsil müəssisəsində təhsilverənlər üçün geyim ilə bağlı tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.";

3.2. aşağıdakı məzmunda 12.13-1-ci maddə əlavə edilsin:

"12.13-1. Dövlət ümumi təhsil müəssisəsində təhsilalanlar və təhsilverənlər tərəfindən geyim ilə bağlı tələblərə riayət olunmalıdır.".

4. Aşağıdakı məzmunda 24.2.2-1-ci maddə əlavə edilsin:

"24.2.2-1. dövlət ümumi təhsil müəssisəsində övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) tərəfindən geyim forması ilə bağlı tələblərə riayət olunmasını təmin etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2026-cı il*

# "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 7 iyul tarixli 434-VIIQD nömrəli Qanununun tətbiqi və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 7 iyul tarixli 434-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 12.13-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 12.13-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 12.13-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət ümumi təhsil müəssisəsində təhsilverənlər üçün geyimlə bağlı tələbləri təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Qanunun tələbləri nəzərə alınmaqla, "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 96 nömrəli Qərarının təkmilləşdirilməsinə dair zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 7 iyul tarixli 434-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 863 (Cild I); 2026, № 1, maddə 31) 2.1-ci və 2.2-ci bəndlərində ", 12.13-cü" sözləri "maddələrində, 12.13-cü maddəsinin birinci və ikinci cümlələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2026-cı il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Sudan Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il mayın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Sudan Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2026-cı il*

# R.A.Abbasovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Rauf Arif oğlu Abbasov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 601 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 601 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 480 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) 2-ci hissəsi ləğv edilsin.

2. "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 6 fevral tarixli 515 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 214 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

3. "Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 224 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli 624 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 624 (Cild I); 2024, № 8, maddə 941)1-ci və 2-ci hissələri ləğv edilsin.

5. "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 aprel tarixli 652 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 651(Cild I) 1-ci və 2-ci hissələri ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 697 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1.3-cü hissə ləğv edilsin;

6.2. 4-cü hissəyə "Təhlili" sözündən sonra "və Multikulturalizm" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2026-cı il*

# "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 601 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2026-cı il*

# Milli Məclisin Sədri Sahibə Qafarova ASEAN Parlamentlərarası Assambleyasının tədbirində çıxış edib






**Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 22-də İndoneziya Respublikası Nümayəndələr Palatasının təşkilatçılığı ilə keçirilən "Mürəkkəb qlobal çağırışların həllində Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) mərkəzi mövqeyinin gücləndirilməsində parlamentin rolu" mövzusunda ASEAN Parlamentlərarası Assambleyası (ASEAN PA) qrupunun 17-ci iclasında iştirak edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirə onlayn formatda qatılan spiker Sahibə Qafarova qeyd edib ki, müasir dünyada dövlətlər bir-biri ilə sıx şəkildə əlaqəlidir və heç bir dövlət qlobal çağırışları təkbaşına həll etməyə qadir deyil. Onun sözlərinə görə, sülh və təhlükəsizliyin təmin olunması, dayanıqlı inkişaf, iqlim fəaliyyəti, ərzaq və enerji təhlükəsizliyi kimi sahələrdə irəliləyiş yalnız birgə səylər nəticəsində mümkündür. Bu baxımdan spiker vurğulayıb ki, beynəlxalq hüquqa, bərabərhüquqlu dialoqa və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan səmərəli çoxtərəfli əməkdaşlıq bu gün hər zamankından daha böyük əhəmiyyət kəsb edir.

Çıxışında regional təşkilatların beynəlxalq əməkdaşlığın mühüm dayaqlarından biri olduğunu qeyd edən Sahibə Qafarova bildirib ki, bu qurumlar dövlətlər arasında dialoqun inkişafına, etimadın möhkəmlənməsinə və praktik əməkdaşlığın təşviqinə xidmət edir. O vurğulayıb ki, bu mənada, ASEAN regional sülhə, sabitliyə və rifaha mühüm töhfə verməkdə davam edir və təşkilatın mərkəzi rolu regional əməkdaşlığın gücləndirilməsi, eləcə də ümumi çağırışlara effektiv cavab verilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Spiker qeyd edib ki, qurumun Parlamentlərarası Assambleyası ASEAN üzv dövlətlərinin parlamentlərini bir araya gətirməklə bu səyləri tamamlayır və beləliklə də, ASEAN-ın strateji prioritetləri dəstəkləyərək regional əməkdaşlığın parlament ölçüsünü gücləndirir.

Azərbaycanın ASEAN PA-da müşahidəçi parlament kimi təşkilatla əməkdaşlığa böyük önəm verdiyini bildirən Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizin ASEAN üzv dövlətləri ilə dialoqu daha da genişləndirmək əzmində olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, ASEAN PA ilə daha sıx əməkdaşlıq parlament diplomatiyasının inkişafına, təcrübə və qabaqcıl yanaşmaların mübadiləsinə töhfə verəcək.

Parlament diplomatiyasının etimadın möhkəmləndirilməsi, dialoqun təşviqi və ümumi çağırışların sülh yolu ilə həllinin dəstəklənməsi baxımından mühüm vasitə olduğunu deyən Milli Məclisin Sədri bildirib ki, parlamentlər qanunvericilik fəaliyyəti, beynəlxalq müqavilələrin ratifikasiyası və parlament nəzarəti vasitəsilə qaydalara əsaslanan dünya nizamını möhkəmləndirir, beynəlxalq hüquqa hörmətin təşviqinə və qlobal çağırışlara effektiv çoxtərəfli cavabların formalaşdırılmasına töhfə verirlər.

Spiker vurğulayıb ki, Azərbaycan beynəlxalq hüquqa, dövlətlərin suveren bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan effektiv çoxtərəfli əməkdaşlığa sadiqdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini bu yanaşmanın bariz nümunəsi kimi göstərən parlamentin spikeri bildirib ki, Şəbəkə parlamentlərarası dialoq, təcrübə mübadiləsi və qlobal çağırışların həlli istiqamətində əməkdaşlıq üçün mühüm platforma rolunu oynayır.

Parlamentlərarası əməkdaşlığın qlobal və regional səylər əsasında daha səmərəli olduğunu qeyd edən Sahibə Qafarova ASEAN PA-nın regional və beynəlxalq parlament təşkilatları ilə sıx əməkdaşlığına da toxunub. O vurğulayıb ki, bu əməkdaşlıq parlament diplomatiyasını gücləndirməklə yanaşı, regional baxışların qlobal səviyyədə irəli sürülməsinə töhfə verir.

ASEAN PA ilə Parlamentlərarası İttifaq (PAİ) arasında əməkdaşlıq barədə danışan Milli Məclisin Sədri bildirib ki, təşkilat PAİ-də daimi müşahidəçi statusuna malik olmaqla qlobal parlament birliyinin fəaliyyətinə töhfə verir və ASEAN regionu ilə dünyanın müxtəlif ölkələrinin parlamentləri arasında dialoqun inkişafını dəstəkləyir. Onun sözlərinə görə, bu sıx əməkdaşlıq regional parlament təşkilatlarının çoxtərəfli sistem daxilində artan rolunu göstərir və həmçinin birgə fəaliyyətin əhəmiyyətini nümayiş etdirir.

Çıxışının sonunda Milli Məclisin Sədri qeyd edib ki, parlament diplomatiyası xalqlar və dövlətlər arasında körpülər qurur, etimadı möhkəmləndirir və çoxtərəfli əməkdaşlığı təşviq edir. O bildirib ki, bu dəyərlər ASEAN PA-nın da fəaliyyətinin rəhbər prinsipləridir və ASEAN-ın mərkəzi rolunun gücləndirilməsi, eləcə də müasir qlobal çağırışlara cavab verilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Beləliklə, vurğulanıb ki, parlament diplomatiyasının və çoxtərəfli əməkdaşlığın birgə səylərlə gücləndirilməsi yolu ilə beynəlxalq hüququn aliliyini təşviq etmək və bununla da heç bir ölkənin diqqətdən kənarda qalmamasını təmin etmək mümkündür.

*"Azərbaycan"*

# Almaniya XİN ikitərəfli tərəfdaşlıqla bağlı Birgə Bəyannaməni mühüm addım kimi qiymətləndirib

**Almaniyanın Xarici İşlər Nazirliyi (XİN) Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri çərçivəsində ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamənin imzalanmasını qarşılıqlı münasibətlərin inkişafı baxımından mühüm addım kimi qiymətləndirib.**






AZƏRTAC xəbər verir ki, nazirliyin Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Niklas Vaqner "X" platformasında Almaniya XİN adından etdiyi paylaşımda sənədin iki ölkə arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə xidmət edəcəyini vurğulayıb.

"Bu gün Almaniya ilə Azərbaycan arasındakı güclü münasibətləri Strateji Gündəlik vasitəsilə daha da dərinləşdirdik. Müxtəlif sahələr üzrə əməkdaşlığımızı genişləndirmək üçün çalışacağıq və Ermənistanla Azərbaycan arasında münasibətlərdə yaranmış tarixi dinamikanı alqışlayırıq", - deyə paylaşımda qeyd olunub.

Niklas Vaqner paylaşımında, həmçinin Birgə Bəyannamənin tam mətnini təqdim edib. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Almaniya Kansleri Fridrix Merts tərəfindən imzalanan "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün Strateji Gündəliyə dair Birgə Bəyannamə" Berlinin Bakı ilə siyasi və iqtisadi əməkdaşlığın genişləndirilməsinə marağını bir daha nümayiş etdirir. Sənəddə siyasi-diplomatik əlaqələrin inkişafı, iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi, təhlükəsizlik və müdafiə sahəsində dialoqun gücləndirilməsi, həmçinin mədəniyyət, təhsil, dil, insanlararası mübadilə, elm, texnologiya və innovasiya istiqamətlərində əməkdaşlığın təşviqi nəzərdə tutulur.

Səfər çərçivəsində həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması və fəaliyyətinə dair Birgə Bəyannamə imzalanıb.

# "Business Talks": "Azərbaycan ilə Almaniya enerji və ticarət əlaqələrini genişləndirir"

**Rumıniyanın "Business Talks" nəşri Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfərini iki ölkə arasında enerji və iqtisadi əməkdaşlığın inkişafında mühüm mərhələ kimi qiymətləndirir. Nəşrin yazdığına görə, danışıqların əsas mövzularını təbii qaz tədarükünün artırılması, ticarət əlaqələrinin genişləndirilməsi və qarşılıqlı investisiyalar təşkil edib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Almaniyanın enerji təchizatı mənbələrini şaxələndirmək siyasətini davam etdirdiyi qeyd olunur. Bu baxımdan Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşlarından biri kimi Berlin üçün strateji əhəmiyyət daşıyır.

"Business Talks" yazır ki, tərəflər enerji ilə yanaşı, nəqliyyat, infrastruktur, ticarət və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsini də müzakirə ediblər. Nəşrin qiymətləndirməsinə görə, bu istiqamətlər üzrə əldə olunan razılaşmalar Azərbaycan-Almaniya münasibətlərini yeni mərhələyə çıxara bilər.

Rumıniya nəşri vurğulayır ki, Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində "Cənub




qaz dəhlizi" mühüm rol oynayır və Azərbaycanın Almaniya ilə enerji əməkdaşlığını genişləndirməsi qitənin enerji təminatının şaxələndirilməsinə əlavə töhfə verə bilər.

"Business Talks"ın fikrincə, Prezident İlham Əliyevin Berlinə səfəri yalnız enerji əməkdaşlığının deyil, həm də Azərbaycan ilə Almaniya arasında uzunmüddətli iqtisadi tərəfdaşlığın və biznes əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edir.

# Azərbaycanla Slovakiya arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında saziş imzalanıb

**Azərbaycanla Slovakiya arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında saziş imzalanıb.**



Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətindən məlumat verilib.

Slovakiya Respublikası Milli Təhlükəsizlik Agentliyinin direktoru Roman Koneçninin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Səfər çərçivəsində qonaqlar Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevlə görüşüb, qarşılıqlı maraq doğuran bir sıra aktual məsələləri müzakirə ediblər.

Görüşün yekunu olaraq, ölkələr arasında təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə "Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"in imzalanma mərasimi keçirilib.

# Özbəkistan Respublikasının baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana işgüzar səfərinə dair mətbuat məlumatı

**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə Özbəkistan Respublikasının baş prokuroru Niqmatilla Yuldoşevin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisinin Sədri Sahibə Qafarova tərəfindən qəbul edilib.**

Görüş zamanı Azərbaycan ilə Özbəkistan arasında tarixən formalaşmış dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olunaraq, parlamentlərarası əlaqələrin və dövlət institutları arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Daha sonra nümayəndə heyəti işğaldan azad edilmiş Kəlbəcər rayonuna səfər edib. Qonaqlar Kəlbəcər şəhərində və İstisu ərazisində aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri, həyata keçirilən infrastruktur layihələri, regionun sosial-iqtisadi inkişafı və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində görülən tədbirlərlə yaxından tanış olublar.




Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Bəşir Hacıyev tərəfindən rayonda həyata keçirilən bərpa-quruculuq layihələri, yaradılan müasir infrastruktur, əhalinin mərhələli şəkildə doğma yurdlarına qayıdışının təmin edilməsi istiqamətində görülən işlər, eləcə də qarşıdakı inkişaf perspektivləri barədə qonaqlara ətraflı məlumat verilib.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyasına uyğun olaraq Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonunda müasir şəhərsalma prinsipləri əsasında geniş quruculuq işləri ardıcıl şəkildə davam etdirilir.

Səfər proqramı çərçivəsində nümayəndə heyəti həmçinin Gəncə şəhərində olub.

Qonaqlar əvvəlcə Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olmuş mülki şəxslərin xatirəsinə ucaldılmış Memorial Kompleksi ziyarət ediblər. Onlara Gəncə şəhərinin raket hücumlarına məruz qalması, dinc əhaliyə qarşı törədilmiş hücumların ağır nəticələri və həlak olmuş mülki şəxslərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verilib.

Şəhərlə tanışlıq çərçivəsində qonaqlar Gəncənin zəngin tarixi və mədəni irsini əks etdirən Şah Abbas məscidini, İmamzadə dini-memarlıq kompleksini və dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər.

Bununla da nümayəndə heyətinin Azərbaycan Respublikasına işgüzar səfəri başa çatıb.

**Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 22 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxsin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (bundan sonra - Mərkəz) dünyada və regionda baş verən proseslərin təhlili, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparılması, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılması, Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) elmi-təhlili materiallarla təmin edilməsi sahəsində fəaliyyət göstərən, habelə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin edən, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdan və mövcud multikultural modelləri tədqiq və təşviq edən publik hüquqi şəxsdir.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Mərkəz bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Mərkəzin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Mərkəzin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır.O, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.7. Mərkəz Bakı şəhərindəyerləşir.

**2. Mərkəzin fəaliyyət istiqamətləri**

2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Azərbaycan Respublikasının strateji maraqları baxımından beynəlxalq gündəlikdə duran məsələlərə, ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərinə və xarici dövlətlərlə münasibətlərinə dair araşdırmalar aparmaq;

2.1.2. dünyada və regionda baş verən münaqişələr, habelə siyasi, ictimai, hüquqi, iqtisadi və digər proseslərlə bağlı problemləri öyrənmək, elmi tədqiqatını və təhlilini həyata keçirmək, onları proqnozlaşdırmaq, xarici ölkələrlə ikitərəfli münasibətlərin vəziyyəti və inkişaf perspektivləri üzrə araşdırmalar aparmaq, qeyd olunan sahələrdə elmi-analitik, proqnoz xarakterli təkliflər və onların həlli yollarına dair təkliflər hazırlamaq;

2.1.3. beynəlxalq münasibətlər, regional proseslər və multikulturalizm sahəsində elmi-analitik tədqiqatların inkişafını təmin etmək;

2.1.4. dünyada və regionda baş verən proseslərlə bağlı ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılmasında iştirak etmək;

2.1.5. Azərbaycan Respublikasında və xaricdə multikulturalizm siyasətinin, etnik, dini və mədəni müxtəlifliyin qorunması və inkişafı sahəsində mövcud təcrübəni öyrənmək, habelə bu sahədə elmi-analitik tədqiqatlar aparmaq və beynəlxalq təcrübəni təhlil etmək;

2.1.6. Azərbaycan Respublikasının dövlət orqanlarını (qurumlarını) elmi-təhlili materiallarla təmin etmək;

2.1.7. Azərbaycan Respublikasının multikulturalizm modelinin, habelə mövcud xarici multikulturalizm modellərinin tədqiqini həyata keçirmək, onların müqayisəli təhlilini aparmaq və Azərbaycan Respublikasını dünyada multikulturalizm mərkəzi kimi tanıtmağa yönəlmiş tədbirlər həyata keçirmək.

**3. Mərkəzin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Mərkəzin vəzifələri aşağıdakılardır:

3.1.1. fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikasının strateji maraqlarının, xarici siyasətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi sahəsində tədqiqatlar aparmaq;

3.1.3. beynəlxalq münasibətlərə, beynəlxalq siyasət və təhlükəsizlik məsələlərinə dair tətbiqi və praktiki təyinatlı elmi-analitik tədqiqatlar və təhlillər aparmaq, qlobal siyasi tendensiyaların, təhdidlərin və çağırışların dərindən və hərtərəfli təhlilini həyata keçirmək;

3.1.4. Azərbaycan Respublikasının strateji maraqlarına uyğun olaraq xarici dövlətlərlə münasibətlərinin inkişafı sahəsində yeni yanaşmalar axtarmaq;

3.1.5. dövlət və qeyri-dövlət qurumlarının sifarişi əsasında elmi-tətbiqi araşdırmalar aparmaq;

3.1.6. dövlət orqanlarının və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin multikulturalizm, tolerantlıq, mədəni, dini və linqvistik müxtəlifliyin qorunması və təşviqi sahəsində fəaliyyətini əlaqələndirmək;

3.1.7. multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan reallığının mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və təbliği mexanizmini hazırlamaq;

3.1.8. beynəlxalq hadisələrə, proseslərə və münasibətlərə dair müstəqil hesabatlar, ekspert rəyləri və proqnozlar hazırlamaq;

3.1.9. Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib həyata keçirmək;

3.1.10. Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək;

3.1.11. müxtəlif bölgələrə aid mədəni irsi öyrənmək, onların müasir dövrdə ahəngdar inkişafının təmin edilməsinə, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət abidələrinin və dini abidələrin qorunub saxlanması prosesinə dəstək vermək;

3.1.12. multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsini öyrənmək və təşviq etmək;

3.1.13. Azərbaycan Respublikasının multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xarici ölkələrdə təbliğini təmin etmək;

3.1.14. multikulturalizm üzrə dünya mütəxəssislərinin, habelə keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaq;

3.1.15. Azərbaycan Respublikasının xarici siyasət məsələlərinə dair informasiya təminatını həyata keçirmək;

3.1.16. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının müvafiq struktur bölməsinə davamlı olaraq təhlil, tədqiqat və sorğuların nəticələrini, habelə Mərkəzin inkişaf istiqamətləri, strateji məqsədləri və fəaliyyət planları ilə bağlı təkliflərini təqdim etmək;

3.1.17. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Mərkəzin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.18. Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.19. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.20. Mərkəz əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.21. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.22. Mərkəzə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.23. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.24. Mərkəzin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.25. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.26. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.27. müvafiq sahədə peşəkar mütəxəssislər hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.28. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Mərkəzin aşağıdakı hüquqları vardır:

3.2.1. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. beynəlxalq münasibətlərə dair ölkədə aparılan araşdırmaları əlaqələndirmək, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində və təsis sənədlərində elmi fəaliyyət nəzərdə tutulan digər hüquqi şəxslərdə tədqiqatlar aparılmasının təşəbbüsçüsü və sifarişçisi kimi çıxış etmək;

3.2.3. beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.4. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları), media subyektləri, jurnalistlər, ali təhsil müəssisələri ilə əməkdaşlıq etmək və xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.6. beynəlxalq mediada və analitik məcmuələrdə məqalə və materiallar dərc etmək;

3.2.7. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.9. müqavilə əsasında konsaltinq xidmətləri göstərmək;

3.2.10. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.11. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.12. xarici nümayəndə heyətlərinin, həmçinin elmi işçilərin, ekspertlərin və media nümayəndələrinin qəbulunu, ziyafətlərin təşkilini və digər müvafiq tədbirləri həyata keçirmək;

3.2.13. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.14. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.15. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, onları Azərbaycan Respublikasında, habelə xaricdə abunə, pərakəndə satış yolu ilə və fərdi qaydada, eləcə də internet şəbəkəsi və media subyektləri vasitəsilə yaymaq;

3.2.16. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Mərkəzin idarə olunması**

4.1. Mərkəz öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. İdarə Heyəti Mərkəzin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.3. İdarə Heyətinin tərkibi 3 (üç) üzvdən - Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və onun 2 (iki) müavinindən ibarətdir.

4.4. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.4.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və sənədlər təqdim etmək;

4.4.2. Mərkəzin inkişaf istiqamətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etmək, strateji məqsəd və planlarını müəyyən etmək;

4.4.3. Mərkəzin fəaliyyətinə nəzarət etmək;

4.4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğlərini təsdiq etmək;

4.4.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Mərkəzin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.4.6. Mərkəzin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.4.7. Mərkəzin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.4.8. Mərkəzin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.4.9. Mərkəzin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.4.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.4.11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə Mərkəzin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.4.12. Mərkəzin fəaliyyətini təşkil etmək;

4.4.13. aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.4.14. Mərkəzin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.4.15. bu Nizamnamənin 3.1.22-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.4.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.4.17. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.4.18. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Mərkəzin illik maliyyə hesabatını təqdim etmək;

4.4.19. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.5. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavinlərindən biri icra edir.

4.6. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin sədri tərəfindən çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.8. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, həmin məsələnin müzakirəsində və məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.9. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla qərar qəbul edilə bilməz.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. Mərkəzin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.10.3. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. Mərkəzin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.6. Mərkəzin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.7. özünün və Mərkəzin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Mərkəzin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.10.9. Mərkəzin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.10.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Mərkəzin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.10.11. Mərkəzin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Mərkəzin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.13. Mərkəzin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.10.14. Mərkəzin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.15. Mərkəzdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.10.16. Mərkəzdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Mərkəzin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Mərkəzin nizamnamə fondu 4.212.500 (dörd milyon iki yüz on iki min beş yüz) manatdır.

5.2. Mərkəzin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Mərkəz öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Mərkəz balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Mərkəz qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra özünün, idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin fəaliyyətindən əldə edilmiş mənfəəti üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Mərkəzin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Mərkəzin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

**6. Mərkəzin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Mərkəzin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Mərkəzin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Mərkəzdə uçot və hesabat**

7.1. Mərkəz "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Mərkəz "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Mərkəz idarə, filial və nümayəndəliklərində, habelə təsərrüfat cəmiyyətlərində maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Mərkəz öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Mərkəzin ləğvi və yenidən təşkili**

Mərkəzin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 223

Bakı şəhəri, 20 iyul 2026-cı il

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I); 2024, № 1, maddə 110, № 7, maddə 931, № 9, maddə 1100; 2025, № 9, maddələr 861, 870, № 12 (II kitab), maddə 1225;Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 25 iyun tarixli 200 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və ikinci abzasda "şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi" sözləri "şəxsin (ailənin) dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası" üzrə:

2.1.adında "şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi" sözləri "şəxsin (ailənin) dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissə üzrə:

2.2.1. 1.1-ci bənddə "şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi" sözləri "şəxsin (ailənin) dövlət sosial xidmət müəssisəsinə (bundan sonra - müəssisə) yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.2-ci bənd ləğv edilsin;

2.2.3. 1.3-cü bəndə "məhdudlaşan şəxslərə," sözlərindən sonra "özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllar və 18 yaşdan yuxarı əlilliyi olan şəxslərə, sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslərə, valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində, habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış və həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslərə, müəyyən yaşayış yeri olmayan şəxslərə, cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlara," sözləri əlavə edilsin və "çəkənlərə" sözü "çəkmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

2.2.4. 1.4-cü bənddə "şəxslərin (ailələrin) (bundan sonra - şəxslər) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi şəxslərin" sözləri "şəxsin (ailənin) müəssisəyə yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi şəxsin" sözləri ilə əvəz edilsin;

2.3. 2-ci hissə üzrə:

2.3.1. adında "Sosial xidmət müəssisələrinə" sözləri "Müəssisəyə" sözü ilə əvəz edilsin;

2.3.2. 2.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.1. Valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisəyə yerləşdirilməsi onların valideynlərindən birinin, qohumlarının, digər qanuni nümayəndəsinin (qəyyumunun, himayəçisinin), bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının, habelə onların razılığı ilə digər şəxslərin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin (bundan sonra - Agentlik) yerli qurumlarına, DOST mərkəzlərinə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə müraciəti əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"a və 112 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"a əsasən həyata keçirilir.";

2.3.3. 2.1.3-cü yarımbənddə, 2.2.1.1-ci yarımbəndin birinci cümləsində, 2.2.1.2-ci yarımbəndin ikinci cümləsində, 2.2.1.3-cü və 2.3.1-ci yarımbəndlərdə, 2.4.1-ci yarımbəndin birinci cümləsində, 2.4.3-cü yarımbəndin ikinci cümləsində, 2.4.4-cü yarımbənddə ismin müvafiq hallarında "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

2.3.4. 2.1.3-cü, 2.2.1.3-cü, 2.2.2.2-ci, 2.3.8-ci, 2.3.11-ci, 2.4.4-cü yarımbəndlərdə, 2.5.2-ci yarımbənddə (hər iki halda) və 2.9-cu bəndin birinci cümləsində "sosial xidmət müəssisəsinə" sözləri "müəssisəyə" sözü ilə əvəz edilsin;

2.3.5. 2.1.3-cü, 2.2.1.3-cü, 2.3.5-ci, 2.4.4-cü və 2.5.2-ci yarımbəndlərə "qərar" sözündən əvvəl "bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada" sözləri əlavə edilsin;

2.3.6. 2.2.1.1-ci yarımbəndin birinci cümləsində və 2.6.1-ci yarımbənddə "dövlət sosial xidmət müəssisəsinə" sözləri "müəssisəyə" sözü ilə əvəz edilsin;

2.3.7. 2.2.1.1.2-ci yarımbənddə "müəyyən" sözü "təsdiq" sözü ilə əvəz edilsin;

2.3.8. 2.2.1.1.3-cü, 2.2.2.1.2-ci və 2.4.1.2-ci yarımbəndlərdə "yoluxucu xəstəliklərin daşıyıcısı olmaması" sözləri "aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər" sözləri ilə əvəz edilsin;

2.3.9.2.2.1.1.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.2.1.1.6-cı yarımbənd əlavə edilsin:

"2.2.1.1.6. psixoloji-tibbi-pedaqoji komissiyanın (bundan sonra - komissiya) qərarı.";

2.3.10.2.2.1.2-ci yarımbəndin birinci cümləsində, 2.4.3-cü yarımbəndin birinci cümləsində və 2.5.2-ci yarımbənddə "Sosial xidmət müəssisəsinə" sözləri "Müəssisəyə" sözü ilə əvəz edilsin;

2.3.11. 2.2.1.3-cü və 2.4.4-cü yarımbəndlərdə "2.8-ci" sözləri "2.12-ci" sözləri ilə əvəz edilsin;

2.3.12.2.2.2.1-ci yarımbəndin birinci cümləsində, 2.3.1-ci yarımbənddə, 2.4.1-ci yarımbəndin birinci cümləsində və 2.5.1-ci yarımbəndin birinci cümləsində "dövlət sosial xidmət müəssisələrinə" sözləri "müəssisələrə" sözü ilə əvəz edilsin;

2.3.13.2.2.2.1-ci yarımbəndin birinci cümləsində "Psixoloji-tibbi-pedaqoji komissiyaya (bundan sonra - komissiya)" sözləri "komissiyaya" sözü ilə əvəz edilsin;

2.3.14.2.3.1-ci yarımbənddən "(sosial sığınacaq)" sözləri çıxarılsın;

2.3.15.2.3.4-cü, 2.3.6-cı, 2.3.8-ci, 2.3.10-cu və 2.3.11-ci yarımbəndlərdə ismin müvafiq hallarında "uşaq" sözü ismin müvafiq hallarında "yetkinlik yaşına çatmayan" sözləri ilə əvəz edilsin;

2.3.16.2.3.5-ci yarımbənddə "uşağın sosial sığınacağa daimi" sözləri "yetkinlik yaşına çatmayanın müəssisəyə" sözləri ilə əvəz edilsin;

2.3.17. 2.3.7-ci yarımbənddə "yeniyetmələrin" sözü "yetkinlik yaşına çatmayanların" sözləri ilə əvəz edilsin;

2.3.18. aşağıdakı məzmunda 2.3.12-ci yarımbənd əlavə edilsin:

"2.3.12. Müəssisədə baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların reabilitasiya müddəti 180 (yüz səksən) gündən çox olmamaqla müəyyən edilir. Fərdi plana əsasən, reabilitasiya prosesi başa çatmış həmin yetkinlik yaşına çatmayanların sosial, psixoloji və hüquqi vəziyyəti sosial işçi tərəfindən qiymətləndirilərək, zəruri olduğu halda, bu Qaydanın 2.3.7-ci yarımbəndinə uyğun olaraq onların açıq tipli xüsusi təlim-tərbiyə müəssisələrinə yerləşdirilməsi məsələsinə baxılması məqsədilə uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya müraciət edilir.";

2.3.19. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

**"2.4-1. Özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllar və 18 yaşdan yuxarı əlilliyi olan şəxslər üzrə**

2.4-1.1. Özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllar və 18 yaşdan yuxarı əlilliyi olan şəxslər və ya onların qohumları, habelə onların razılığı ilə digər şəxslər müəssisəyə yerləşdirilmələri üçün Agentliyin yerli qurumlarına, DOST mərkəzlərinə və ya şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

2.4-1.1.1. şəxsiyyəti təsdiq edən sənəd;

2.4-1.1.2. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə sağlamlıq haqqında tibbi arayış;

2.4-1.1.3. əlilliyi olan şəxslərə münasibətdə TSEK-in qərarı;

2.4-1.1.4. şəxsin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;

2.4-1.1.5. 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.

2.4-1.2. Müəssisəyə yerləşdirilmə barədə ərizə daxil olduğu gündən 5 (beş) iş günü ərzində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Sosial işçi ərizənin ona təqdim edildiyi gündən 10 (on) iş günü ərzində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsini və müəyyənləşdirilməsini həyata keçirir və sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən hesabat hazırlayaraq Agentliyə göndərir.

2.4-1.3. Hesabata təqdim olunmuş (bu Qaydanın 2.12-ci bəndinin tələbləri nəzərə alınmaqla) sənədlərlə birlikdə baxılaraq, 5 (beş) iş günü ərzində Agentlik tərəfindən şəxsin (ailənin) müəssisəyə yerləşdirilməsi barədə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.";

2.3.20. 2.7-ci bənd üzrə:

2.3.20.1. adında "çəkənlər" sözü "çəkmiş şəxslər" sözləri ilə əvəz edilsin;

2.3.20.2. 2.7.1-ci və 2.7.3-cü yarımbəndlərdə "çəkən" sözü "çəkmiş" sözü ilə əvəz edilsin;

2.3.20.3.2.7.2-ci yarımbənddə "Məişət" sözü "Yerli icra hakimiyyəti orqanına və ya polis orqanına məişət zorakılığı ilə bağlı müraciət edildikdə məişət" sözləri ilə,"çəkənlərə" sözü "çəkmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

2.3.20.4.2.7.4-cü yarımbənddə "iş planına" sözləri "plana" sözü ilə əvəz edilsin;

2.3.21.aşağıdakı məzmunda 2.7.5-ci yarımbənd əlavə edilsin:

"2.7.5. Zərər çəkmiş uşaqlar 3 (üç) ay müddətinədək, digər zərər çəkmiş şəxslər isə 2 (iki) aymüddətinədək yardım mərkəzində sığınacaqla təmin oluna bilərlər.";

2.3.22. 2.8-ci və 2.9-cu bəndlər müvafiq olaraq 2.12-ci və 2.13-cü bəndlər hesab edilsin və aşağıdakı məzmunda 2.8-2.11-ci bəndlər əlavə edilsin;

**"2.8. Sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslər üzrə**

2.8.1. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad ediləcək şəxslərdən sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslərin (2.8-ci bənd üzrə bundan sonra - şəxslər) müəssisələrə (sosial adaptasiya mərkəzinə) yerləşdirilməsi məqsədilə Agentlik penitensiar müəssisələrin müdiriyyəti ilə birlikdə ayda bir dəfədən az olmayaraq sosial adaptasiyaya ehtiyacı olan cəza çəkməkdən azad ediləcək şəxsləri müəyyən edir və bu şəxsləri onların razılığı ilə qeydiyyata alır.

2.8.2. Penitensiar müəssisələrdə sosial adaptasiya məqsədilə qeydiyyata alınmamış şəxslər cəza çəkməkdən azad edildikdən sonra, habelə digər dövlətlərdə cəza çəkməkdən azad edilmiş və Azərbaycan Respublikasına daimi yaşamaq üçün qayıtmış Azərbaycan Respublikasının vətəndaşları sosial adaptasiya mərkəzinə yerləşdirilmək üçün Agentliyin yerli qurumlarına və ya DOST mərkəzlərinə ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

2.8.2.1. şəxsiyyəti təsdiq edən sənəd;

2.8.2.2. şəxsin penitensiar müəssisədə cəza çəkməkdən azad olunması haqqında arayış;

2.8.2.3. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər və psixi sağlamlıq vəziyyəti, habelə alkoqolizmə, narkomanlığa və toksikomaniyaya düçar olmaması barədə məlumat göstərilməklə dövlət tibb müəssisələrindən tibbi arayışlar;

2.8.2.4. 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.

2.8.3. Şəxsin bu Qaydanın 2.8.2.1-2.8.2.4-cü yarımbəndlərində göstərilən sənədləri olmadıqda, həmin sənədlərin alınmasına sosial işçi tərəfindən kömək göstərilir.

2.8.4. Müraciət daxil olduqdan 5 (beş) iş günü müddətində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Sosial işçi ərizənin ona təqdim edildiyi gündən 10 (on) iş günü ərzində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsini və müəyyənləşdirilməsini həyata keçirir və sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən hesabat hazırlayır və Agentliyə təqdim edir. Sosial işçi tərəfindən hesabatın təqdim edildiyi gündən 5 (beş) iş günü ərzində Agentlik tərəfindən penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxsin sosial adaptasiya mərkəzinə qəbulu barədə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada və ya qəbulundan imtina edilməsi barədə bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

2.8.5. Şəxsin sosial adaptasiya mərkəzinə qəbul olunması barədə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edildikdə ona sosial işçi tərəfindən sosial xidmət göstərilməsinə dair "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsi ilə müəyyən edilən sosial adaptasiya müddəti nəzərə alınmaqla fərdi plan hazırlanır.

2.8.6. Fərdi plana əsasən, adaptasiya prosesi başa çatmış penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial-psixoloji və emosional vəziyyəti sosial işçi tərəfindən yenidən qiymətləndirilərək nəticəsi barədə məlumat hazırlanır və Agentliyə göndərilir.

2.8.7. Məlumatın təqdim edildiyi gündən etibarən 5 (beş) iş günü ərzində Agentlik tərəfindən şəxsin sosial adaptasiya mərkəzini tərk etməsi və yaxud zəruriliyi əsaslandırılmaqla adaptasiya müddətinin uzadılması barədə bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

**2.9. Valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində, həmçinin ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslər üzrə**

2.9.1.Valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində, həmçinin ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslər yaşayış sahəsi ilə təmin edilməsi üçün "Məzun evi" sosial xidmət müəssisəsinə öz istəkləri nəzərə alınmaqla qəbul edilirlər.

2.9.2.Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi hər tədris ilinin sonunda həmin tədris ili üzrə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideyn himayəsindən məhrum olmuş məzunları (bundan sonra - məzun) barədə siyahını Agentliyə təqdim edir. Təqdim olunan siyahıda adları qeyd olunan və "Məzun evi" Sosial Xidmət Müəssisəsinə qəbul olmaq istəyən məzunlardan aşağıdakı sənədlər tələb olunur:

2.9.2.1. şəxsiyyəti təsdiq edən sənədin surəti;

2.9.2.2. təhsil müəssisəsi tərəfindən verilmiş arayış (təhsil müəssisəsini tərk etməsi və valideyn himayəsindən məhrum olması barədə məlumat);

2.9.2.3. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər, alkoqolizmə, narkomanlığa və toksikomaniyaya düçar olmaması və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə dövlət tibb müəssisələrindən tibbi arayışlar.

2.9.3. Sənədlərə Agentlik tərəfindən 10 (on) iş günü müddətində baxılaraq məzunlara "Məzun evi" Sosial Xidmət Müəssisəsində yaşayış sahəsinin verilməsi barədə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada və ya bu Qaydanın 2.9.5-ci yarımbəndinə uyğun olaraq, yaşayış sahəsinin verilməsindən imtina edilməsi barədə bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

2.9.4. Yaşayış sahəsinin verilməsi barədə qərar qəbul edildikdə Agentliklə məzun arasında müddəti göstərilmədən yaşayış sahəsinin əvəzsiz istifadə müqaviləsi bağlanılır.

2.9.5. Aşağıdakı hallarda məzuna yaşayış sahəsinin verilməsindən imtina edilməsi barədə qərar qəbul edilir:

2.9.5.1. bu Qaydanın 2.9.2-ci yarımbəndində göstərilən sənədlər tam təqdim edilmədikdə;

2.9.5.2. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti məhdud və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

2.9.5.3.sənədlərə baxılanadək müddətli həqiqi hərbi xidmətə çağırıldıqda;

2.9.5.4. ətrafdakıların həyat və sağlamlıqları üçün təhlükə yarada biləcək aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin, habelə təhlükəli yoluxucu xəstəliklərin daşıyıcısı və ya psixi pozuntuları olduqda.

2.9.6. Bu Qaydanın 2.9.5.1-2.9.5.4-cü yarımbəndlərində qeyd edilən hallar aradan qaldırıldıqdan sonra yenidən müraciət edilə bilər.

**2.10. Müəyyən yaşayış yeri olmayan şəxslər üzrə**

2.10.1. Müəyyən yaşayış yeri olmayan şəxslər, habelə həmin şəxsin razılığı ilə qohumları, qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları və ya digər şəxslər Agentliyin yerli qurumlarına, DOST mərkəzlərinə və ya şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

2.10.1.1. şəxsiyyəti təsdiq edən sənədin surəti (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə Azərbaycan Respublikasının ərazisində daimi yaşayış hüququ verən icazə vəsiqəsinin surəti);

2.10.1.2. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərinin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə sağlamlıq haqqında tibbi arayış;

2.10.1.3. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsin olduğu yer üzrə şəhər, rayon polis orqanları tərəfindən verilmiş şəxsin yaşayış yerinin olmaması barədə arayış.

2.10.2. Müraciət daxil olduqdan 5 (beş) iş günü müddətində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Sosial işçi ərizənin ona təqdim edildiyi gündən 10 (on) iş günü ərzində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsini və müəyyənləşdirilməsini həyata keçirir və sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən hesabat hazırlayır və Agentliyə təqdim edir. Sosial işçi tərəfindən hesabatın təqdim edildiyi gündən 5 (beş) iş günü ərzində Agentlik tərəfindən şəxsin müəssisəyə yerləşdirilməsi barədə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada və ya yerləşdirilməsindən imtina edilməsi barədə bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

**2.11. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlar üzrə**

2.11.1. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlar, habelə valideynlərindən biri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları və ya digər şəxslər bu barədə yerli icra hakimiyyəti orqanlarına və ya şəhər, rayon polis orqanlarına müraciət etməlidirlər.

2.11.2. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlar müəssisəyə birbaşa müraciət etdikdə yerli icra hakimiyyəti orqanının və ya şəhər, rayon polis orqanının əməkdaşı həmin müəssisəyə dəvət edilir və uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya bu barədə məlumat verilir.

2.11.3. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaq müraciət daxil olduqdan 3 (üç) iş günü ərzində müvəqqəti sosial xidmət müəssisəsinə yerləşdirilir. Zərurət olduğu halda aidiyyəti qurumlara sorğu göndərilir, sağlamlıq vəziyyətinin yoxlanılması üçün ərazi üzrə dövlət tibb müəssisələrinə müraciət edilir.

2.11.4. Qeyd olunan sənədlər daxil olduğu gündən 10 (on) iş günü müddətində baxılaraq, uşağın müəssisəyə yerləşdirilməsi barədə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

2.11.5. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlar 60 (altmış) gün müddətinədək müəssisədə yerləşdirilə bilərlər.

2.11.6. Uşağın müəssisəyə yerləşdirilməsi barədə qərar qəbul edildikdə ona sosial işçi tərəfindən sosial xidmət göstərilməsinə dair fərdi plan hazırlanır.

2.11.7. Fərdi plana əsasən, sosial-reabilitasiya prosesi başa çatmış uşağın sosial-psixoloji və emosional vəziyyəti sosial işçi tərəfindən yenidən qiymətləndirilərək nəticəsi barədə məlumat hazırlanır və Agentliyə göndərilir.

2.11.8. Məlumatın təqdim edildiyi gündən etibarən 5 (beş) iş günü ərzində Agentlik tərəfindən zəruriliyi əsaslandırılmaqla bu Qaydanın 2.11.5-ci yarımbəndi nəzərə alınmaqla reabilitasiya müddətinin uzadılması barədə qərar qəbul edilir.".

2.4. Bu Qaydanın 2.12-ci bəndinin birinci cümləsində "2.1-ci, 2.2-ci, 2.4-cü və 2.5-ci bəndlərində" sözləri "2-ci hissəsində" sözləri ilə əvəz edilsin.

2.5. Bu Qaydanın 2.13-cü bəndinin birinci cümləsində "Şəxsin" sözü "Bu Qaydanın 2.8.4-cü, 2.9.3-cü və 2.10.2-ci yarımbəndlərində nəzərdə tutulan hallar istisna olmaqla, şəxsin" sözləri ilə əvəz edilsin və "qərar" sözündən əvvəl "bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qəbul edilmiş" sözləri əlavə edilsin.

2.6.3-cü hissə 5-ci hissə hesab edilsin və aşağıdakı məzmunda 3-cü və 4-cü hissələr əlavə edilsin:

**"3. Müəssisəni tərk etmə qaydaları**

**3.1. Valideyn himayəsindən məhrum olmuş uşaqlar üzrə**

3.1.1. Valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisəni tərk etməsi onların valideynlərindən birinin, qohumlarının, digər qanuni nümayəndəsinin (qəyyumunun, himayəçisinin) Agentliyin yerli qurumlarına, DOST mərkəzlərinə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə müraciəti əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"a və 112 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"a əsasən həyata keçirilir.

**3.2. Əlilliyi olan uşaqlar üzrə**

3.2.1. Uşaqlara baxmağa borclu olan əmək qabiliyyətli qohumlarının və ya digər qanuni nümayəndələrinin uşaqların ailəyə geri qaytarılması ilə bağlı Agentliyə müraciətinə əsasən və ya yetkinlik yaşına çatdıqda, o cümlədən övladlığa götürüldükdə və ya himayədar ailəyə verildikdə uşaqlar müəssisəni daimi tərk edirlər.

3.2.2. Uşaqlara baxmağa borclu olan əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin uşaqların ailəyə geri qaytarılması ilə bağlı Agentliyə müraciətinə 15 (on beş) iş günündən gec olmamaqla baxılaraq, uşağın müəssisəni tərk etməsi barədə bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada və ya müraciətin təmin edilməsindən imtina edilməsi barədə bu Qaydanın 4 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

3.2.3. Müəssisəyə yerləşdirilmiş bu Qaydanın 2.2-ci bəndində göstərilən uşaqlar aşağıdakı hallarda və müddətə müəssisəni müvəqqəti tərk edirlər:

3.2.3.1. uşağın sağlamlıq vəziyyətində dəyişikliklər baş verdikdə müvafiq tibb müəssisəsində stasionar müalicədə olduğu müddətdə;

3.2.3.2. Fərdi Reabilitasiya Proqramına uyğun olaraq reabilitasiya müəssisəsində reabilitasiya keçdiyi müddətdə;

3.2.3.3. uşağa qulluq və kömək göstərəcəkləri barədə, həmçinin asudə vaxtının səmərəli təşkili ilə əlaqədar uşağın valideynləri və digər yaxın qohumları tərəfindən ərizə ilə müəssisənin direktoruna müraciət edildikdə, ərizədə göstərilən müddətdə, lakin 15 (on beş) gündən çox olmamaqla.

3.2.4. Bu Qaydanın 3.2.3.3-cü yarımbəndində göstərilən halda müraciətə müəssisənin direktoru tərəfindən 5 (beş) iş günü müddətində baxılaraq, uşağın müəssisəni müvəqqəti tərk etməsi barədə bu Qaydanın 5 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada və ya müraciətin təmin edilməsi uşağın mənafeyinə uyğun olmadıqda isə imtina edilməsi barədə bu Qaydanın 6 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

**3.3. Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üzrə**

3.3.1. Yetkinlik yaşına çatmayanın arzusunun nəzərə alınması onun mənafeyinə zidd olduğu hallar istisna olmaqla, 10 (on) yaşına çatmış yetkinlik yaşına çatmayanın arzusu nəzərə alınmaqla, valideynlərinin, qohumlarının və digər qanuni nümayəndələrinin (qəyyumun, himayəçinin) müraciətlərinə əsasən o, müəssisəni fərdi plan ilə müəyyən edilmiş reabilitasiya müddətindən əvvəl tərk edə bilər.

**3.4. Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üzrə**

3.4.1. Müəssisəni tərk etməsi barədə müvafiq şəxsin (ailənin) Agentliyə müraciəti olduqda və əlilliyi olan şəxsin əlillik müddəti bitdikdə və ya əlilliyinin müəyyən edilməsi ilə bağlı qərar ləğv edildikdə müəssisəni daimi tərk edir (tərk edirlər).

3.4.2. Müəssisəyə yerləşdirilmiş şəxslər aşağıdakı hallarda müəssisəni müvəqqəti tərk edə bilərlər:

3.4.2.1. şəxsin sağlamlıq vəziyyətində dəyişiklik baş verdikdə müvafiq tibb müəssisəsində stasionar müalicədə olduğu müddətdə;

3.4.2.2. əlilliyi olan şəxs Fərdi Reabilitasiya Proqramına uyğun olaraq reabilitasiya müəssisəsində reabilitasiya keçdiyi müddətdə;

3.4.2.3. şəxsə qulluq və kömək göstərəcəkləri barədə, həmçinin asudə vaxtının səmərəli təşkili ilə əlaqədar onun yaxın qohumları tərəfindən ərizə ilə müəssisənin direktoruna müraciət edildikdə, ərizədə göstərilən müddətdə, lakin 30 (otuz) gündən çox olmamaqla.

3.4.3. Bu Qaydanın 3.4.2.3-cü yarımbəndində göstərilən hal üzrə müəssisənin direktoru tərəfindən müraciətə 10 (on) iş günü müddətində baxılaraq şəxsin müəssisəni müvəqqəti tərk etməsi barədə bu Qaydanın 5 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada və ya müraciətin təmin edilməsi şəxsin mənafeyinə uyğun olmadıqda isə imtina edilməsi barədə bu Qaydanın 6 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

**3.5. Özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllar və 18 yaşdan yuxarı əlilliyi olan şəxslər üzrə**

3.5.1. Müəssisə tərəfindən göstərilən xidmətlərdən imtina barədə ahılın və 18 yaşdan yuxarı əlilliyi olan şəxsin Agentliyə müraciəti olduqda və ya əlilliyi olan şəxsin əlilliyinin müəyyən edilməsi ilə bağlı qərar ləğv edildikdəhəmin şəxs müəssisənibu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qəbul edilmiş qərara əsasən tərk edir.

**3.6. İctimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslər üzrə**

3.6.1. Müəssisəyə yerləşdirilmiş ictimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslərin sağlamlığı, mənəvi və psixoloji vəziyyəti sosial işçi (həkim) tərəfindən mütəmadi qiymətləndirilərək nəticəsi barədə məlumat hazırlanır və ərazi üzrə dövlət tibb müəssisəsinə göndərilir.

3.6.2. Məlumata təqdim edildiyi gündən etibarən 5 (beş) iş günü müddətində ərazi üzrə dövlət tibb müəssisəsi tərəfindən baxılır, şəxsin sağlamlığının, mənəvi və psixoloji vəziyyətinin müəssisəni tərk etməyə imkan verdiyi müəyyən edildikdə onun müəssisəni tərk etməsi barədə bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada qərar qəbul edilir.

**3.7. İnsan alveri qurbanları üzrə**

3.7.1. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 noyabr tarixli 180 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları"nda nəzərdə tutulmuş müddət bitdikdə və yaxud fərdi sosial reabilitasiya planına əsasən, reabilitasiya prosesi başa çatdıqda insan alveri qurbanları müəssisəni tərk edirlər.

**3.8. Məişət zorakılığından zərər çəkmiş şəxslər üzrə**

3.8.1. Bu Qaydanın 2.7.5-ci yarımbəndində nəzərdə tutulmuş müddət bitdikdə və yaxud fərdi plana əsasən, reabilitasiya prosesi başa çatdıqda məişət zorakılığından zərər çəkmiş şəxs yardım mərkəzini tərk edir.

3.8.2. Yardım mərkəzlərində daxili intizam qaydalarını 1 (bir) ay ərzində iki dəfədən çox qərəzli şəkildə pozan şəxslər mərkəzin müdiriyyəti tərəfindən vaxtından əvvəl yardım mərkəzində verilmiş müvəqqəti sığınacaqdan çıxarılırlar.

**3.9. Sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) olan şəxslər üzrə**

3.9.1. Sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) olan şəxsin öz arzusuna əsasən və ya daxili intizam qaydalarının 1 (bir) ay ərzində iki dəfədən çox pozulması hallarında o, sosial adaptasiya mərkəzini vaxtından əvvəl tərk edir.

**3.10. Valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində, həmçinin ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmadığına görə "Məzun Evi" Sosial Xidmət Müəssisəsində yerləşdirilmiş şəxslər üzrə**

3.10.1. Aşağıdakı hallarda yaşayış sahəsinin əvəzsiz istifadə müqaviləsinə vaxtından əvvəl xitam verilir və məzun yaşayış sahəsini tərk edir:

3.10.1.1. mənzildən müqavilənin şərtlərini pozmaqla istifadə edildikdə;

3.10.1.2. mənzil üçüncü şəxslərin istifadəsinə verildikdə;

3.10.1.3. mənzili əvəzsiz istifadəyə götürmüş subay məzun vəfat etdikdə;

3.10.1.4. məzun daimi yaşayış sahəsi əldə etdikdə;

3.10.1.5. məzun müəssisənin direktoru tərəfindən edilən rəsmi xəbərdarlığa baxmayaraq, müəssisənin daxili intizam qaydalarını 1 (bir) ay ərzində təkrar pozduqda.

3.10.2. Bu Qaydanın 3.10.1-ci yarımbəndində qeyd edilən hallar baş verdikdə 10 (on) iş günü müddətində müəssisənin direktoru tərəfindən müraciət hazırlanaraq müvafiq qərar qəbul edilməsi üçün Agentliyə göndərilir. Agentlik tərəfindən müraciətə 5 (beş) iş günü müddətində baxılaraq, şəxsin yaşayış sahəsini tərk etməsi barədə bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada və ya bundan imtina edilməsi barədə bu Qaydanın 4 nömrəli əlavəsiilə müəyyən edilmiş formada qərar qəbul edilir.

**3.11. Müəyyən yaşayış yeri olmayan şəxslər üzrə**

3.11.1. Qanunda nəzərdə tutulan hallar istisna olmaqla, müəyyən yaşayış yeri olmayan şəxslər 6 (altı) ay müddətinədək müəssisəyə yerləşdirilir. Həmin müddət bitdikdə və ya müəssisənin daxili intizam qaydalarını 1 (bir) ay ərzində təkrar pozduqda şəxs müəssisəni tərk edir.

**3.12. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlar üzrə**

3.12.1. Bu Qaydanın 2.11.5-ci yarımbəndində nəzərdə tutulmuş müddət bitdikdə və yaxud fərdi sosial reabilitasiya planına əsasən, reabilitasiya prosesi başa çatdıqda cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlar müəssisəni tərk edirlər.

**4. Müəssisəyə yerləşdirilmiş şəxslərə sosial xidmətin göstərilməsi qaydaları**

4.1. Əlilliyi olan şəxslərin tibbi, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqlarının inkişafı üzrə tədbirlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"na və 521 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin abilitasiyası Qaydası"na uyğun olaraq həyata keçirilir.

4.2. Əlilliyi olan şəxs, onun qanuni nümayəndəsi və (və ya) sosial işçi bu Qaydanın 4.1-ci bəndində qeyd olunan tədbirlərin göstərilməsi üçün TSEK-ə müraciət edir. TSEK tərəfindən sosial xidmət göstərilməsi üçün müvafiq tədbir müəyyənləşdirilir.

**4.3. Valideyn himayəsindən məhrum olmuş uşaqlar üzrə**

4.3.1. Valideyn himayəsindən məhrum olmuş uşaqlara sosial xidmətin göstərilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"a və 112 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"a əsasən həyata keçirilir.

**4.4. Əlilliyi olan uşaqlar üzrə**

4.4.1.Uşaqlara yarımstasionar müəssisədə aşağıdakı xidmətlər göstərilir:

4.4.1.1. uşağın fərdi-psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi;

4.4.1.2. uşağın cəmiyyətə adaptasiyası və inteqrasiyası məqsədilə psixoloji yardımın göstərilməsi və əmək, özünəqulluq, məişətdə və ictimai yerlərdə davranış, özünənəzarət, ünsiyyət və həyat fəaliyyətinin digər sahələrində bacarıqlarının artırılması;

4.4.1.3. uşağın asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi;

4.4.1.4. tibbi yardıma ehtiyacı olan uşaqlar barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və uşağın həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.4.1.5. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.4.1.6. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.4.1.7. funksional bacarıqları bərpa etmək üçün aktiv terapiya, fizioterapiya, gündəlik həyat fəaliyyətləri, idman terapiyası və digər tədbirlərin görülməsi;

4.4.1.8. uşaqlara hərtərəfli qabaqlayıcı-inkişafedici yardım göstərilməsi;

4.4.1.9. uşaqların hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında uşaqlara və ya qanuni nümayəndələrinə izahatlar və hüquqi məsləhətlərin verilməsi.

4.4.2. Uşaqlara stasionar müəssisələrdə aşağıdakı xidmətlər göstərilir:

4.4.2.1. diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi;

4.4.2.2. yaşayış sahəsinin təmizlənməsi;

4.4.2.3. geyim, ayaqqabı və yumşaq inventarlarla təmin edilməsi;

4.4.2.4. yataq və geyim əşyalarının yuyulması və ütülənməsi;

4.4.2.5. uşağın fərdi-psixoloji xüsusiyyətinin qiymətləndirilməsi;

4.4.2.6. uşağın cəmiyyətə adaptasiyası və inteqrasiyası (və ya reinteqrasiyası) məqsədilə psixoloji yardım göstərilməsi;

4.4.2.7. psixi inkişafın yaş xüsusiyyətlərinə uyğunluğunun təmin edilməsi istiqamətlərində korreksiya tədbirlərinin həyata keçirilməsi;

4.4.2.8. uşağın gündəlik həyatda lazım olan vərdiş və bacarıqlarının, böyük və kiçik motorika, ünsiyyət və koqnitiv bacarıqlarının inkişaf etdirilməsi;

4.4.2.9. uşaqların sağlamlıq və əqli imkanlarına uyğun olaraq, ilkin biliklərə yiyələnməsinə, təhsilə cəlb olunan əlilliyi olan uşaqların həmçinin təhsil almasına və ya peşəyə yiyələnməsinə kömək göstərilməsi;

4.4.2.10. tibbi reabilitasiya tədbirlərinin yerinə yetirilməsi;

4.4.2.11. ilk yardımın göstərilməsi və ixtisaslaşmış həkim təyinatına əsasən dərman vasitələrinin verilməsi;

4.4.2.12. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.4.2.13. uşağın asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi.

**4.5. Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üzrə**

4.5.1. Yetkinlik yaşına çatmayanlara müəssisələrdə sosial xidmətlərin göstərilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"na əsasən həyata keçirilir.

**4.6. Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üzrə**

*Ardı 5-ci səh.*

# “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 223** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

*Əvvəli 4-cü səh.*

4.6.1. Şəxslərə (ailələrə) stasionar müəssisədə aşağıdakı sosial xidmətlər göstərilir:

4.6.1.1. diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi;

4.6.1.2. yaşayış sahəsinin təmizlənməsi;

4.6.1.3. geyim, ayaqqabı və yumşaq inventarlarla təmin edilməsi;

4.6.1.4. yataq və geyim əşyalarının yuyulması, ütülənməsi;

4.6.1.5. ilk yardımın göstərilməsi və həkim təyinatına əsasən dərman vasitələrinin verilməsi;

4.6.1.6. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.6.1.7. funksional bacarıqları bərpa etmək üçün aktiv terapiya, nitq və ünsiyyət terapiyası, gündəlik həyat fəaliyyətləri, idman terapiyası;

4.6.1.8. hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar və hüquqi məsləhətlərin verilməsi;

4.6.1.9. sənədlərin əldə edilməsi və ya bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.6.1.10. şəxslərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onların maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi;

4.6.1.11. şəxslərin fərdi-psixoloji xüsusiyyətinin qiymətləndirilməsi;

4.6.1.12. şəxslərin cəmiyyətə adaptasiyası və inteqrasiyası (və ya reinteqrasiyası) məqsədilə psixoloji yardım göstərilməsi.

**4.7. Özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllar və 18 yaşdan yuxarı əlilliyi olan şəxslər üzrə**

4.7.1. Şəxslərə yarımstasionar müəssisədə aşağıdakı sosial xidmətlər göstərilir:

4.7.1.1. fərdi-psixoloji xüsusiyyətlərin qiymətləndirilməsi;

4.7.1.2. cəmiyyətə adaptasiyası və inteqrasiyası məqsədilə psixoloji yardım göstərilməsi;

4.7.1.3. asudə vaxtın səmərəli təşkilinin təmin edilməsi, onların maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi;

4.7.1.4. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.7.1.5. tibbi yardıma ehtiyacı olan şəxslər barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.7.1.6. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.7.1.7. hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar və hüquqi məsləhətlərin verilməsi;

4.7.1.8. sənədlərin əldə edilməsi və ya bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi.

**4.8. İnsan alveri qurbanları üzrə**

4.8.1. İnsan alveri qurbanlarına yarımstasionar müəssisələrdə aşağıdakı xidmətlər göstərilir:

4.8.1.1. fərdi-psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi;

4.8.1.2. psixoloji sarsıntılarını aradan qaldırmaq üçün psixoloji dəstəyin göstərilməsi;

4.8.1.3. peşə hazırlığının, yenidən hazırlığının və məşğulluğunun təmin edilməsinə kömək göstərilməsi;

4.8.1.4. qanunvericiliklə müəyyən edilmiş müavinətlərin alınmasında kömək göstərilməsi;

4.8.1.5. hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar və hüquqi məsləhətlər verilməsi;

4.8.1.6. sənədlərin bərpası, boşanma, alimentin alınması, uşaqlarla bağlı və digər sənədlərin müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.8.1.7. asudə vaxtın səmərəli təşkilinin təmin edilməsi, onların potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi;

4.8.1.8. tibbi yardıma ehtiyacı olan şəxslər barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.8.1.9. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.8.1.10. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi.

4.8.2. İnsan alveri qurbanlarına stasionar müəssisələrdə aşağıdakı xidmətlər göstərilir:

4.8.2.1. diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi;

4.8.2.2. geyim, ayaqqabı və yumşaq inventarlarla təmin edilməsi;

4.8.2.3. yataq və geyim əşyalarının yuyulması, ütülənməsi;

4.8.2.4. yaşayış sahəsinin təmizlənməsi;

4.8.2.5. fərdi-psixoloji xüsusiyyətlərin qiymətləndirilməsi;

4.8.2.6. psixoloji sarsıntılarının aradan qaldırılması məqsədilə fərdi və qrup konsultasiyaların təşkili;

4.8.2.7. peşə hazırlığının, yenidən hazırlığının və məşğulluğunun təmin edilməsinə kömək göstərilməsi;

4.8.2.8. qanunvericiliklə müəyyən edilmiş müavinətlərin alınmasında kömək göstərilməsi;

4.8.2.9. hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar və hüquqi məsləhətlərin verilməsi;

4.8.2.10. sənədlərin əldə edilməsi və ya bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.8.2.11. tibbi yardıma ehtiyacı olan insan alveri qurbanları barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.8.2.12. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.8.2.13. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.8.2.14. şəxsin cəmiyyətə adaptasiyası və inteqrasiyası (və ya reinteqrasiyası) məqsədilə psixoloji yardım göstərilməsi.

**4.9. Məişət zorakılığından zərər çəkmiş şəxslər üzrə**

4.9.1. Məişət zorakılığından zərər çəkmiş şəxslərə yarımstasionar müəssisələrdə aşağıdakı xidmətlər göstərilir:

4.9.1.1. fərdi məsləhətləşmələrin aparılması;

4.9.1.2. fərdi-psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi;

4.9.1.3. məişət zorakılığı səbəbindən yaranmış psixoloji sarsıntını aradan qaldırmaq məqsədilə fərdi və qrup konsultasiyalarının təşkili;

4.9.1.4. cəmiyyətə adaptasiya və inteqrasiya (və ya reinteqrasiya) məqsədilə psixoloji yardım göstərilməsi;

4.9.1.5. peşə hazırlığı kurslarına istiqamətləndirilməsi və məşğulluğun təmin edilməsinə kömək göstərilməsi;

4.9.1.6. qanunvericiliklə müəyyən edilmiş sosial müavinətlərin alınmasında kömək göstərilməsi;

4.9.1.7. sənədlərin əldə edilməsi və ya bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.9.1.8. tibbi yardıma ehtiyacı olan şəxslər barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.9.1.9. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.9.1.10. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi.

4.9.2. Məişət zorakılığından zərər çəkmiş şəxslərə stasionar müəssisələrdə aşağıdakı xidmətlər göstərilir:

4.9.2.1. tibbi yardıma ehtiyacı olan məişət zorakılığından zərər çəkmiş şəxslər barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.9.2.2. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.9.2.3. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.9.2.4. fərdi-psixoloji xüsusiyyətinin qiymətləndirilməsi;

4.9.2.5. məişət zorakılığı səbəbindən yaranmış psixoloji sarsıntını aradan qaldırmaq məqsədilə fərdi və qrup konsultasiyaların təşkili;

4.9.2.6. cəmiyyətə adaptasiyası və inteqrasiyası (və ya reinteqrasiyası) məqsədilə psixoloji yardımın göstərilməsi;

4.9.2.7. diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi;

4.9.2.8. geyim, ayaqqabı və yumşaq inventarlarla təmin edilməsi;

4.9.2.9. yataq və geyim əşyalarının yuyulması, ütülənməsi;

4.9.2.10. yaşayış sahəsinin təmizlənməsi;

4.9.2.11. sənədlərin əldə edilməsi və ya bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.9.2.12. peşə hazırlığı kurslarına istiqamətləndirilmə və məşğulluğun təmin edilməsinə kömək göstərilməsi;

4.9.2.13. qanunvericiliklə müəyyən edilmiş sosial müavinətlərin alınmasında kömək göstərilməsi.

**4.10. Sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslər üzrə**

4.10.1. Sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxsə sosial adaptasiya mərkəzində aşağıdakı sosial xidmətlər göstərilir:

4.10.1.1. fərdi-psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi;

4.10.1.2. psixoloji və emosional vəziyyətinin mütəmadi müşahidə edilməsi və qabaqlayıcı tədbirlərin görülməsi;

4.10.1.3. sosial bacarıqlarının inkişafına nail olmaq məqsədilə sosial-psixoloji məsləhətlərin verilməsi;

4.10.1.4. hüquqlarının müdafiəsi üçün hüquqi məsləhətlərin verilməsi;

4.10.1.5. sənədlərin əldə edilməsi və bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.10.1.6. şəxslərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onların maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi;

4.10.1.7. tibbi yardıma ehtiyacı olan şəxslər barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.10.1.8. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.10.1.9. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi.

**4.11. Müəyyən yaşayış yeri olmayan şəxslər üzrə**

4.11.1. Müəyyən yaşayış yeri olmayan şəxsə yarımstasionar müəssisədə aşağıdakı xidmətlər göstərilir:

4.11.1.1. diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi;

4.11.1.2. geyim, ayaqqabı və yumşaq inventarlarla təmin edilməsi;

4.11.1.3. yataq və geyim əşyalarının yuyulması, ütülənməsi;

4.11.1.4. tibbi yardıma ehtiyacı olan şəxslər barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.11.1.5. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.11.1.6. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.11.1.7. sənədlərin əldə edilməsi və ya bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.11.1.8. müəyyən yaşayış yeri olmayan şəxslərə hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar və hüquqi məsləhətlərin verilməsi;

4.11.1.9. sosial xidmətə götürülmüş şəxsin fərdi-psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi;

4.11.1.10. sosial xidmətə götürülmüş şəxsin cəmiyyətə adaptasiyası və inteqrasiyası məqsədilə psixoloji yardım göstərilməsi;

4.11.1.11. sosial xidmətə götürülmüş şəxslərin peşə hazırlığı kurslarına istiqamətləndirilməsi və onların məşğulluğunun təmin edilməsinə kömək göstərilməsi.

4.11.2. Müəyyən yaşayış yeri olmayan şəxsə stasionar müəssisədə aşağıdakı xidmətlər göstərilir:

4.11.2.1. diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi;

4.11.2.2. geyim, ayaqqabı və yumşaq inventarlarla təmin edilməsi;

4.11.2.3. yataq və geyim əşyalarının yuyulması, ütülənməsi;

4.11.2.4. yaşayış sahəsinin təmizlənməsi;

4.11.2.5. tibbi yardıma ehtiyacı olan şəxslər barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və şəxsin həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.11.2.6. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.11.2.7. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.11.2.8. sənədlərin əldə edilməsi və ya bərpası ilə bağlı müvafiq orqanlara ərizələrin (müraciətlərin) hazırlanmasında və təqdim olunmasında kömək göstərilməsi;

4.11.2.9. onların hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar və hüquqi məsləhətlərin verilməsi;

4.11.2.10. fərdi-psixoloji xüsusiyyətlərin qiymətləndirilməsi;

4.11.2.11. cəmiyyətə adaptasiyası və inteqrasiyası (və ya reinteqrasiyası) məqsədilə psixoloji yardım göstərilməsi;

4.11.2.12. peşə hazırlığı kurslarına istiqamətləndirilmə və məşğulluğun təmin edilməsinə kömək göstərilməsi.

**4.12. İctimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslər üzrə**

4.12.1. İctimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslərə yarımstasionar müəssisədə aşağıdakı sosial xidmətlər göstərilir:

4.12.1.1. fərdi-psixoloji xüsusiyyətlərin qiymətləndirilməsi;

4.12.1.2. psixoloji sarsıntının aradan qaldırılması məqsədilə psixoloji yardım göstərilməsi;

4.12.1.3. xəstəliyin mərhələsindən asılı olaraq tibbi müayinələrin aparılması;

4.12.1.4. palliativ yardıma ehtiyacı olan xəstələrin ilkin müayinəsi;

4.12.1.5. xəstəliyin ağırlıq dərəcəsindən və yaranmış fəsadlardan asılı olaraq, müvafiq mütəxəssislərin konsultasiyasının təşkil edilməsi.

**4.13. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlar üzrə**

4.13.1. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlara yarımstasionar müəssisələrdə aşağıdakı xidmətlər göstərilir:

4.13.1.1. fərdi-psixoloji xüsusiyyətlərin qiymətləndirilməsi;

4.13.1.2. şəxsiyyətin dəstəklənməsi və məlumatlandırılması istiqamətlərində fərdi işin aparılması;

4.13.1.3. psixoloji sarsıntının aradan qaldırılması məqsədilə psixoloji yardım göstərilməsi;

4.13.1.4. hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında onlara və ya qanuni nümayəndələrinə izahatlar və hüquqi məsləhətlərin verilməsi;

4.13.1.5. tibbi yardıma ehtiyacı olan uşaqlar barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və uşağın həmin müəssisəyə müayinəyə göndərilməsi;

4.13.1.6. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.13.1.7. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.13.1.8. asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi.

4.13.2. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olan uşaqlara stasionar müəssisələrdə aşağıdakı xidmətlər göstərilir:

4.13.2.1. fərdi-psixoloji xüsusiyyətlərin qiymətləndirilməsi;

4.13.2.2. psixoloji sarsıntıları aradan qaldırmaq məqsədilə fərdi və qrup konsultasiyalarının təşkili;

4.13.2.3. cəmiyyətə adaptasiya və inteqrasiya (və ya reinteqrasiya) məqsədilə psixoloji yardımın göstərilməsi;

4.13.2.4. hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında onlara və ya onların qanuni nümayəndələrinə izahatlar və hüquqi məsləhətlərin verilməsi;

4.13.2.5. tibbi yardıma ehtiyacı olan uşaqlar barədə ərazi üzrə tibb müəssisələrinə məlumat verilməsi və uşağın həmin müəssisəyə müayinəyə göndərilməsi və müayinənin nəticəsindən asılı olaraq ixtisaslaşdırılmış tibb müəssisələrinə yönləndirilməsi istiqamətində tədbirlər görülməsi;

4.13.2.6. ilk yardımın göstərilməsi və təcili tibbi yardım briqadalarının çağırılması;

4.13.2.7. şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi;

4.13.2.8. dünyagörüşünün genişləndirilməsi, ünsiyyət qabiliyyətinin artırılması, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə qrup və fərdi fəaliyyətin təşkil edilməsi;

4.13.2.9. pedaqoji korreksiya üçün kompleks tədbirləri təşkil etmək məqsədilə uşağın davranışını xarakterizə edən əlamətlərin öyrənilməsi, onun potensialının və meyillərinin, cəmiyyətdən təcrid olunmasının (əgər belə hal varsa) forma və dərəcəsinin müəyyən edilməsi;

4.13.2.10. diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi;

4.13.2.11. geyim, ayaqqabı və yumşaq inventarlarla təmin edilməsi;

4.13.2.12. yataq və geyim əşyalarının yuyulması, ütülənməsi;

4.13.2.13. yaşayış sahəsinin təmizlənməsi.".

2.5. 5-ci hissə üzrə:

2.5.1.adı aşağıdakı redaksiyada verilsin:

"Müəssisəyə yerləşdirilmiş çətin həyat şəraitində olan şəxsin (ailənin) hüquqları və vəzifələri";

2.5.2. 5.1-ci bənddə "Sosial xidmət müəssisəsinə yerləşdirilən çətin həyat şəraitində olan şəxslərin (ailələrin)" sözləri "Müəssisəyə yerləşdirilmiş çətin həyat şəraitində olan şəxsin (ailənin)" sözləri ilə əvəz edilsin;

2.5.3. 5.1.6-cı və 5.1.7-ci yarımbəndlərdə "sosial xidmət müəssisələrində" sözləri "müəssisədə" sözü ilə əvəz edilsin;

2.5.4.aşağıdakı məzmunda 5.2-ci bənd əlavə edilsin:

"5.2. Müəssisəyə yerləşdirilən çətin həyat şəraitində olan şəxsin (ailənin) vəzifələri aşağıdakılardır:

5.2.1. müəssisənin daxili intizam qaydalarına riayət etmək;

5.2.2. sosial xidmət göstərilməsinə təsir göstərən dəyişikliklər barədə sosial xidmət göstərən subyektləri dərhal məlumatlandırmaq;

5.2.3. sosial xidmət göstərilməsinə tələbatın müəyyən edilməsi və qərar qəbul edilməsi üçün tam və düzgün məlumatları vermək;

5.2.4. sosial işçilərin və sosial xidmətçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Gənclər siyasəti haqqında”, “Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Təhsil haqqında”, “Sosial xidmət haqqında”, “Uşaqların icbari dispanserizasiyası haqqında”, “Peşə təhsili haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında”, “Ümumi təhsil haqqında”, “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 228** **Bakı şəhəri, 21 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 84 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 457 (Cild I); 2024, № 7, maddə 925; 2026, № 2, maddə 195) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nın 3.10-cu bəndində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730, № 10, maddə 968, № 12 (II kitab), maddə 1258) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

2.2. 2.1-ci bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730,№ 10, maddələr 968, 976, № 12 (II kitab), maddə 1258) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 1.3-cü bəndindən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605, № 10, maddələr 967, 976, 982, № 11, maddə 1101, № 12 (II kitab), maddə 1248; 2026, № 1, maddə 91, № 3, maddə 263) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 2.2.2-ci yarımbəndinin 3-cü abzasından (hər iki halda) "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 299 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 719; 2025, № 7, maddə 730, № 10, maddə 981) ilə təsdiq edilmiş "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.6-cı bəndin birinci cümləsindən və 6.23-cü bəndin ikinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

5.2. 4.1.24-cü yarımbənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş “Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 225** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 961 (Cild I); 2024, №7, maddə 899; 2025, №12 (II kitab), maddə 1204) ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci sətrə "qaraciyər" sözündən əvvəl "ürək," sözü əlavə edilsin.

2. Yeddinci sətirdən "Müalicəvi" sözü çıxarılsın və həmin sətrə "sümük iliyi" sözlərindən sonra ", kök hüceyrələri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# “Dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 227** **Bakı şəhəri, 21 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 383-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 aprel tarixli 655 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*



# Azərbaycan qlobal miqyasda mövqeyini möhkəmləndirir

## Bunu Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri də təsdiqləyir

**Müstəqil, çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu həyata keçirən Azərbaycan regional çərçivələri aşaraq qlobal miqyasda söz sahibi olan "orta güc" kimi mövqeyini gündən-günə möhkəmləndirir.**

Ölkəmizin mühüm geosiyasi və geoiqtisadi məsələlərdə prinsipial və ədalətli mövqe ortaya qoyması onun beynəlxalq nüfuzunu keyfiyyətcə yeni pilləyə qaldırıb. Xüsusilə Avropa dövlətləri və Avropa İttifaqı (Aİ) institutu ilə dinamik və yüksəksəviyyəli əlaqələrin qurulması xarici siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir. Aİ-yə üzv olan ölkə-lərin dövlət və hökumət başçıla-rının, həmçinin Aİ-nin ali rəhbər-liyinin Bakıya ardıcıl səfərləri Azərbaycanın regional sabitlik, nəqliyyat-logistika və Avropanın enerji təhlükəsizliyində oynadığı əvəzolunmaz rolun açıq etirafıdır. Avropanın aparıcı sənaye və siyasi mərkəzləri ilə qurulan strateji dialoq, Prezident İlham Əliyevin bu günlərdə Almaniyaya rəsmi səfəri və burada imzalanan tarixi sənədlərlə ölkəmiz növbəti möhtəşəm uğurunu qazandı.

### Yeni əməkdaşlıq çərçivəsi

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın keyfiyyətcə yeni müstəviyə qaldırılmasında mühüm mərhələ oldu. Berlində keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan strateji sənədlər və verilən bəyanatlar Azərbaycan ilə Almaniya arasında tərəfdaşlığın yalnız regional deyil, qlobal geosiyasi çəkiyə malik olduğunu bir daha sübut etdi.

Səfər çərçivəsində Prezident İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts tərəfindən imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən təməl sənəd kimi çıxış edir.

Bəyannamə siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, müdafiə, texnologiya, elm və təhsil sahələrini vahid strateji çərçivədə birləşdirir.

Sənəddə nazirlərarası məsləhətləşmələrin və Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyəti vasitəsilə əməkdaşlığın davamlılığını təmin etmək əksini tapıb.

Berlində mətbuata bəyanatı zamanı dövlətimizin başçısı bu addımın əhəmiyyətini xüsusi vurğuladı: "Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir".

Öz növbəsində mətbuata bəyanatında Kansler Fridrix Merts vurğuladı ki, bu gün Birgə Bəyannaməni imzalamaqla ikitərəfli münasibətlərin daha da genişləndirilməsinin təməl daşı qoyuldu: "Biz Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşırıq. Hazırkı böhran şəraitində xam neftin və "Cənub qaz dəhlizi" ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir".

Məlum olduğu kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm yer tutur. Ölkəmizin bu etibarlı tərəfdaş mövqeyi Berlin danışıqlarının mərkəzi mövzularından biri oldu.

Prezident İlham Əliyev enerji sahəsindəki genişmiqyaslı əməkdaşlıq barədə məlumat verdi: "Bu ildən başlayaraq Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlamışdır. Beləliklə, bizim qazımız bu gün Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz, bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə "yaşıl enerji"sini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır".

Ölkəmizin rəhbəri bağlantılarla və tranzit imkanları ilə bağlı da Azərbaycan-Almaniya əməkdaşlığının çox böyük əhəmiyyəti olduğunu söylədi.

### Böyük iqtisadi imkanlar

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində aparılan müzakirələrdə Orta dəhlizin və tranzit imkanlarının inkişafı xüsusi yer tutub. Azərbaycanın Mərkəzi Asiya və Avropa arasında körpü rolu oynaması logistika sahəsində alman şirkətləri üçün böyük iqtisadi imkanlar yaradır.

Prezident İlham Əliyev mətbuata bəyanatında nəqliyyat və tranzit potensialı haqqında vurğuladı ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir: "Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır. Bir çox istiqamətlər üzrə konkret fəaliyyət planı nəzərdə tutulur. Bu gün imzalanmış Bəyannamənin icrası ilə bağlı fikir mübadiləsi əsnasında konkret təkliflər irəli sürülmüşdür. Bir neçə işçi qrup yaradılacaq ki, bu gün imzalanmış sənədlər tezliklə həyatda öz əksini tapsın".

Onu da diqqətə çatdıraq ki, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer və Federal Kansler Fridrix Merts ilə keçirilən görüşlərdə Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması istiqamətində əldə edilmiş nailiyyətlər yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı rəsmi Berlinin sülh prosesinə verdiyi töhfələri qeyd edərək bildirib ki, uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu: "Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi... ...Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir".

Səfərin ən mühüm nəticələrindən biri də Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına dair Birgə Bəyannamənin imzalanması oldu. Hazırda Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir və yeni biznes şurasının qarşılıqlı sərmayə qoyuluşlarına əlavə təkan verəcəyi də bəllidir.

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri və Berlində əldə olunan tarixi razılaşmalar ölkəmizin beynəlxalq münasibətlər sistemindəki yerini və çəkisini bir daha nümayiş etdirdi. Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlar, Avropanın enerji təhlükəsizliyində oynadığı strateji rol və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin mərkəzi qovşağına çevrilməsi onu regional çərçivələri aşan qlobal tərəfdaş səviyyəsinə yüksəldib.

Almaniya kimi Avropanın aparıcı siyasi və iqtisadi gücü ilə imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" yalnız iki ölkə arasındakı münasibətlərin institusionallaşdırılması ilə məhdudlaşmır. Bu sənəd həmçinin Azərbaycan-Avropa İttifaqı əlaqələrinin gələcək inkişaf istiqamətini müəyyən edir, regionda davamlı sülhün və iqtisadi inteqrasiyanın möhkəmlənməsinə xidmət göstərir.

Bir sözlə, digər Avropa ölkəsi İtaliyadan sonra Almaniya ilə də belə bir strateji çərçivənin qurulması Azərbaycanın xarici siyasətinin növbəti parlaq zəfəridir. Bütün bunlar bir daha sübut edir ki, müasir Azərbaycan etibarlı, öz milli maraqlarını qətiyyətlə qoruyan və regional sabitliyin əsas zəmanətçisi kimi çıxış edən aparıcı "orta güc"dür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Bakı və Berlin strateji tərəfdaşlığı region üçün əhəmiyyətli geoiqtisadi və təhlükəsizlik dividendləri vəd edir

**Cənubi Qafqazın geosiyasi xəritəsində baş verən kəskin transformasiya və Bakı-Berlin münasibətlərindəki strateji kvalifikasiya dəyişikliyi hər şeydən əvvəl Azərbaycanın 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərində, eləcə də postmünaqişə dövründə diplomatik səviyyədə qazandığı tarixi zəfərlərlə regional geostrateji balansı kökündən yeniləməsinin və hüquqi-siyasi müstəvidə yeni bir dövrü başlatmasının məntiqi nəticəsidir.**



Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq öz suverenliyini və ərazi bütövlüyünü bərpa edən Azərbaycan faktiki olaraq uzun illər davam edən qeyri-müəyyənliyə son qoyaraq, regional təhlükəsizlik arxitekturasını beynəlxalq hüququn "jus cogens" imperativ normaları əsasında reallığa çevirib. Bu tarixi köklü və strateji keyfiyyət dəyişikliyi Avropanın iqtisadi və siyasi baxımdan istisnasız aparıcı gücü olan Almaniyanın Cənubi Qafqaza, xüsusilə Bakının artan regional rolu ilə qlobal miqyasdakı güclənən geoiqtisadi çəkisinə baxışında təməlli dönüş yaradıb. Berlin Azərbaycanı, sadəcə, enerji resursları tədarük edən tərəfdaş kimi deyil, Avrasiya məkanında sabitliyi, nəqliyyat-logistika inteqrasiyasını və yeni təhlükəsizlik nizamını müəyyənləşdirən müstəqil, idarəedici və etibarlı subyekt kimi qəbul edir.

**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, Bakı bu geoiqtisadi komforta tarixin təbii axarında, geosiyasi gedişatın təsadüfi töhfəsi kimi nail olmayıb: "Azərbaycanın diktə edən strateji subyektlik statusunun təməlində cənab İlham Əliyevin zamanında qarşılaşdığı kənar təzyiqlərə, geosiyasi risklərə və maliyyə-logistika maneələrinə baxmayaraq nümayiş etdirdiyi sarsılmaz qətiyyəti və milli gücə əsaslanan dövlət iradəsi dayanır. Bakı-Tbilisi-Ceyhan əsas neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu, TAP və TANAP kimi meqalayihələrin gündəmə gəldiyi dövrdə bir çox beynəlxalq dairənin və regional aktorların məqsədli şübhə ilə yanaşmasına, açıq və gizli maneələr yaratmasına baxmayaraq, Azərbaycan öz milli resurslarını və strateji zəkasını səfərbər edərək bu təşəbbüsləri reallığa çevirdi. Zamanında atılmış bu cəsarətli və uzaqgörən addımlar bu gün Avrasiyanın kəsişməz hesab edilən xətlərini birləşdirən əvəzsiz geoiqtisadi infrastruktura çevrilib. Məhz həmin dövrdə nümayiş etdirilən prinsipial mövqe və həyata keçirilən layihələr Azərbaycanı zaman-zaman şərtləri qəbul etməyə məcbur qalan tərəfdən, qlobal enerji və logistika arxitekturasında öz obyektiv tələblərini formalaşdıran və ehtiyac duyulan, diktə edən əsas strateji tərəfdaş edib".

Deputat qeyd edib ki, bu sistemli inkişaf xəttinin ən mühüm təzahürü Azərbaycanın strateji müttəfiqlərinin və dərindən inteqrasiya olunmuş tərəfdaşlarının coğrafiyasının ildən-ilə genişlənməsidir. Şuşa Bəyannaməsini qəbul etməklə Türkiyə ilə müttəfiqlik münasibətlərini ən ali zirvəyə qaldıran Bakı eyni zamanda Mərkəzi Asiyanın qardaş dövlətləri, Şərqi və Mərkəzi Avropanın strateji tərəfdaşları ilə çoxşaxəli əməkdaşlıq şəbəkəsini institusiyalaşdırıb. İndi isə bu tərəfdaşlıq halqasına kontinental Avropanın aparıcı sənaye və siyasi güc mərkəzi olan Almaniyanın əsaslı şəkildə qoşulması Azərbaycanın strateji müttəfiqlik və yüksəksəviyyəli tərəfdaşlıq portfelini daha da zənginləşdirir. Strateji tərəfdaşlarımızın sayının bu dinamik artımı Bakının heç bir hərbi-siyasi bloka kor-koranə bağlı olmadığını, əksinə, milli maraqlar prioritetinə söykənən müstəqil, çoxvektorlu və nəticəyönümlü diplomatik karkas formalaşdırdığını açıq şəkildə göstərir. "Bu geostrateji formatda isə Almaniyanın qlobal siyasətdə oynadığı çəkili rol xüsusi diqqət çəkir. Avropa İttifaqının iqtisadi lokomotivi, qitənin əsas maliyyə və siyasi-institutlaşmış gücü, habelə qlobal səviyyədə isə normativ nizamın bərqərar olunmasında aparıcı subyektlərdən olan Berlin ilə strateji dialoqun dərinləşməsi bütün Qərb coğrafiyası ilə münasibətlərin mahiyyətini yeniləyir. Almaniyanın cari reallıqlar fonunda Cənubi Qafqazda balanslı, beynəlxalq hüququn aliliyinə və iqtisadi praqmatizmə söykənən siyasətə üstünlük verməsi qlobal güc mərkəzlərinin regiona obyektiv baxa bilməsi üçün standart müəyyənləşdirir. Berlinin Bakı ilə müttəfiqlik və strateji tərəfdaşlıq xəttini seçməsi Avropanın digər paytaxtlarına da regiondakı reallıqlarla hesablaşmaq və təzyiq dilindən bərabərhüquqlu dialoq dilinə keçmək zərurətini nümayiş etdirir. Məhz bu kontekstdə Prezident İlham Əliyev öz dərin geosiyasi konseptuallığı və ardıcıl, qətiyyətli siyasi iradəsi ilə sübut etdi ki, o, Azərbaycanı mürəkkəb geostrateji təlatümlər fonunda sarsılmaz bir "təhlükəsizlik adası"na çevirdiyi kimi, bütün Cənubi Qafqazı da davamlı əməkdaşlıq, sülh və sabitlik adasına çevirmək qüdrətinə malikdir. Dövlətimizin başçısının formalaşdırdığı yeni regional təhlükəsizlik paradiqması təkcə hərbi-siyasi zəfərə deyil, həm də iqtisadi inteqrasiyaya, hüquqi ədalətə və konstruktiv tərəfdaşlığa söykənir. Almaniya kimi qlobal güclə qurulan çoxşaxəli əməkdaşlıq isə Cənubi Qafqazda məhz bu sülh və sabitlik mühitini daha da möhkəmləndirən, onu kənar subyektiv təsirlərdən sığortalayan və sülh prosesini geridönməz edən konseptual sütun rolunu oynayır", - deyə o bildirib.

B.Məhərrəmov deyib ki, Bakı və Berlin arasında formalaşan strateji tərəfdaşlıq oxu təkcə ikitərəfli müstəvi ilə məhdudlaşmır, bütövlükdə Cənubi Qafqaz regionu üçün misilsiz geoiqtisadi və təhlükəsizlik dividendləri vəd edir. Azərbaycan-Almaniya müttəfiqliyinin regional faydası ilk növbədə Cənubi Qafqazın transmilli nəqliyyat və enerji marşrutlarının mərkəzi kimi dayanıqlılığının təmin olunmasında, Avropa kapitalının və yüksək texnologiyaların regiona axınında özünü birbaşa göstərir. Bu tərəfdaşlıq regional sabitliyi möhkəmləndirir, kənar qərəzli aktorların Cənubi Qafqazı qarşıdurma poliqonuna çevirmək cəhdlərinin qarşısında ciddi maneəyə çevrilir və Ermənistan da daxil olmaqla, bütün bölgə dövlətləri üçün sülhün, iqtisadi inteqrasiyanın və inkişafın unikal modelini təqdim edir.

Deputatın sözlərinə görə, bu tarixi geostrateji dönüşün ən mühüm siyasi-diplomatik aspektlərindən biri də Prezident İlham Əliyevin Avropanın bəzi siyasi dairələrində kök salmış selektiv, ikili standartlara söykənən və qərəzli yanaşmaları yüksək diplomatik ustalıqla - "yumşaq güc" və realist hüquqi arqumentlərlə darmadağın etməsidir: "Uzun illər ərzində Qərbin müəyyən platformalarında Cənubi Qafqazdakı reallıqlara subyektiv və təktərəfli prizmadan baxılması cəhdləri qarşısında Bakı həmişə təmkinli, lakin prinsipial hüquqi mövqe nümayiş etdirib. Prezident İlham Əliyevin Berlin səfəri çərçivəsində irəli sürdüyü rasionallıq, beynəlxalq hüququn aliliyi, qarşılıqlı hörmət və praqmatik iqtisadi dividend konturları Avropanın aparıcı dövlətini stereotiplərdən imtina etməyə və real geosiyasi mənzərənin tam dəqiqliyi ilə qəbuluna məcbur edib. Bu hüquqi-siyasi diplomatik konsepsiya Avropanın qərəzli təzyiq rıçaqlarını zərərsizləşdirərək, Aİ-Azərbaycan münasibətində tamamilə yeni, bərabərhüquqlu və qarşılıqlı faydalılığa söykənən əməkdaşlıq dövrünün təməlini qoyub. Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri, Berlində Federal Kansler Fridrix Merts və Federal Prezident Frank-Valter Ştaynmayer ilə keçirilən ali səviyyəli diplomatik təmaslar, eləcə də imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" bu hüquqi-institutlaşmış təzahürün parlaq göstəricisidir".

Deputat vurğulayıb ki, beynəlxalq münasibətlər sisteminin kəskin böhran yaşadığı, tədarük zəncirlərinin qırıldığı və kontinental enerji təhlükəsizliyi çağırışlarının dərinləşdiyi bir dövrdə Berlinin Bakı ilə birbaşa, rasionallığa söykənən dialoqa üstünlük verməsi xüsusi əhəmiyyətə malikdir. Səfər çərçivəsində əldə olunan razılaşmalar ilk növbədə ikitərəfli münasibətləri bəyannamə xarakterli təmaslar müstəvisindən çıxararaq, institusional əsaslara söykənən strateji tərəfdaşlıq məcrasına daxil olduğunu göstərir. Siyasi-hüquqi baxımdan Berlin Bəyannaməsi tərəflərin suveren muxtariyyətini və milli maraqlarını qoruyan, BMT Nizamnaməsinə, 1975-ci il Helsinki Yekun Aktına və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına istinad edən konseptual sənəddir. Sənəddə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə verilən normativ dəstək, həmçinin 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə görüşünə və sülh sazişinin paraflanması prosesinə edilən rəsmi istinadlar Prezident İlham Əliyevin irəli sürdüyü "güc vasitəsilə sülh və beynəlxalq hüquq" doktrinasının Avropanın aparıcı dövləti tərəfindən tam şəkildə legitimləşdirildiyini göstərir. Aİ daxilində bəzi aktorların, xüsusilə Fransanın Cənubi Qafqazda birtərəfli və təzyiqə söykənən subyektiv siyasətindən fərqli olaraq, Almaniya rəhbərliyinin nümayiş etdirdiyi praqmatik və balanslı mövqe regional sülhün kənar müdaxilələrdən uzaq, beynəlxalq hüquq prinsipləri çərçivəsində bərqərar olmasına xidmət edir.

B.Məhərrəmov qeyd edib ki, ikitərəfli tərəfdaşlığın geoiqtisadi və enerji dimensiyası münasibətlərin yeni müstəviyə keçməsində əsas katalizator rolunu oynayır: "Rusiya-Ukrayna münaqişəsindən sonra enerji resurslarının diversifikasiyasına həyati ehtiyac duyan Almaniya üçün Azərbaycan xam neft ixracatçısı, "Cənub qaz dəhlizi" vasitəsilə ən azı 10 Aİ ölkəsinə təbii qaz çatdıran etibarlı təminatçı və gələcək "yaşıl və aşağıkarbonlu hidrogen" layihələrinin strateji tərəfdaşıdır. Təsadüfi deyil ki, Berlində keçirilən görüşlərdə Almaniyaya təbii qaz ixracının başladılması, 10 illik müqavilələr üzrə təchizatın artırılması imkanları və infrastrukturun genişləndirilməsi üçün Avropa İnvestisiya Bankı daxil olmaqla, maliyyə institutlarının neft-qaz layihələrinə dəstəyinin yenidən qiymətləndirilməsi vacibliyi vurğulandı. Eyni zamanda Azərbaycan-Almaniya Biznes Şurasının və Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyətinin təsisi, işğaldan azad edilmiş ərazilərdə "ağıllı kənd təsərrüfatı" texnologiyalarının tətbiqi və sənaye bərpasına alman kapitalının cəlb olunması iqtisadi dividendləri dəfələrlə artırır".

Deputat bildirib ki, strateji baxımdan bu səfərin gətirdiyi ən mühüm nəticələrdən biri də Azərbaycanın Avrasiyanın əsas nəqliyyat-logistika habı kimi mövqeyinin möhkəmlənməsidir. Qlobal ticarət marşrutlarının dəyişdiyi bir vaxtda Mərkəzi Asiya və Çini Avropa ilə birləşdirən Orta dəhliz layihəsində Azərbaycanın xüsusi rol oynaması Almaniyanın iş adamları və dövlət strukturları üçün böyük əhəmiyyət daşıyır. Azərbaycanın Mərkəzi Asiya Məşvərət Formatına tamhüquqlu üzvlüyü Bakının Mərkəzi Asiya ilə Avropa arasında, sadəcə, fiziki nəqliyyat körpüsü deyil, institusional geostrateji qovşaq rolu oynadığını göstərir və Aİ-nin "Global Gateway" strategiyası üçün ölkəmizi vazkeçilməz tərəfdaşa çevirir. "Səfərin diqqətçəkən hüquqi aspektlərindən biri də təhlükəsizlik və müdafiə sənayesi sahəsində əməkdaşlığın ilk dəfə rəsmi qaydada institusionallaşdırılmasıdır. Müdafiə akademiyaları arasında mütəxəssis mübadiləsi, müdafiə sənayesində birgə imkanların araşdırılması, mütəşəkkil cinayətkarlıqla birgə mübarizə və işğaldan azad olunmuş torpaqların minalardan təmizlənməsi üzrə Almaniya texnologiyalarının cəlb edilməsi iki ölkə arasında strateji etimadın ən yüksək həddə çatdığını sübut edir. Bütün bu amillər isə göstərir ki, Azərbaycan artıq lokal çərçivələri aşaraq Avropanın təhlükəsizlik, enerji və logistika arxitekturasına birbaşa təsir göstərən, suveren hüquqlarını qətiyyətlə qoruyan və qlobal geosiyasi reallıqları de-fakto müəyyən edən aparıcı güc mərkəzidir. Prezident İlham Əliyevin Berlinə səfəri, keçirilən ali səviyyəli görüşlər və əldə olunmuş tarixi nəticələr artan dövlət gücünün, nəhəng transmilli layihələrdən başlayaraq formalaşan sarsılmaz iradənin, Azərbaycanı təhlükəsizlik adasına, regionu isə sülh və əməkdaşlıq məkanına çevirən liderlik missiyasının, Avropadakı qərəzli stereotipləri darmadağın edən diplomatik "yumşaq güc"ün və Almaniya kimi dövlətlərlə möhkəmlənən dayanıqlı sülh strategiyasının parlaq təzahürüdür.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakı və London arasında strateji dialoq dəyişməz siyasi kursa malikdir

**Azərbaycanın balanslı və çoxşaxəli xarici siyasət strategiyasında Böyük Britaniya ilə münasibətlər xüsusi yer tutur. İki ölkə arasında əməkdaşlıq qarşılıqlı etimada, strateji maraqlara və uzunmüddətli tərəfdaşlığa əsaslanır. Azərbaycan ilə Böyük Britaniya arasında müasir diplomatik münasibətlərin təməli müstəqilliyin bərpasından sonra qoyulub. Birləşmiş Krallıq 1991-ci il dekabrın 31-də Azərbaycanın müstəqilliyini tanıyan ilk Qərb dövlətlərindən biri olub, 1992-ci il martın 11-də isə iki ölkə arasında diplomatik münasibətlər rəsmən qurulub.**



**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, otuz ildən artıq müddətdə Azərbaycan-Böyük Britaniya əlaqələri dinamik inkişaf yolu keçərək siyasi dialoq, enerji təhlükəsizliyi, investisiyalar, ticarət və digər strateji sahələrdə möhkəm tərəfdaşlıq səviyyəsinə yüksəlib: "Bu gün Böyük Britaniya Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından və ən böyük xarici investorlarından biri kimi çıxış edir ki, bu da ikitərəfli münasibətlərin dayanıqlı xarakter daşıdığını göstərir. Son illərdə isə tərəflər bərpaolunan enerji, "yaşıl keçid", rəqəmsal iqtisadiyyat və innovasiya kimi istiqamətlərə də diqqət ayırırlar. Enerji əməkdaşlığı münasibətlərin sütununu təşkil edir. BP uzun illərdir Azərbaycanın neft və qaz layihələrinin əsas xarici tərəfdaşlarından biridir. "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənilməsi, "Şahdəniz" qaz yatağı layihəsi və "Cənub qaz dəhlizi" çərçivəsində həyata keçirilən əməkdaşlıq Avropanın enerji təhlükəsizliyinə töhfə verir".

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının yeni Baş naziri Endi Börnhemə ünvanladığı təbrik məktubu dövlətlərarası əlaqələrin yüksək səviyyədə olmasının daha bir göstəricisidir. Təbrik məktubunda qeyd edilib ki, dövlətimiz zəngin və xoş ənənələrə əsaslanan Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. İqtisadi-ticari əməkdaşlığımızın dinamikası, enerji sahəsində sınaqdan çıxmış strateji tərəfdaşlığımızın gündən-günə dərinləşməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Azərbaycanda 500-dən çox Birləşmiş Krallıq investisiyalı kommersiya qurumunun fəaliyyət göstərdiyini diqqətə çatdıran V.Rəhimzadə bildirib ki, bu rəqəm iqtisadi tərəfdaşlığımızın şaxələndirilməsinin mühüm göstəricisidir: "Britaniyanı təmsil edən şirkətlər Azərbaycanda bir sıra vacib layihələrə cəlb olunub və burada ölkə iqtisadiyyatının istər neft, istərsə də qeyri-neft sektorunda səmərəli fəaliyyət göstərirlər. Torpaqlarımızın işğaldan azad olunmasından sonra Azərbaycanın dəvət etdiyi ilk xarici şirkətlər sırasında Birləşmiş Krallığın şirkətlərinin yer alması və bu gün həmin ərazilərdə aparılan bərpa və quruculuq işlərində yaxından iştirak etməsi ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsindən xəbər verir. Prezident İlham Əliyevin Böyük Britaniyanın Baş nazirinə ünvanladığı təbrik məktubu göstərir ki, Bakı və London arasında formalaşan strateji dialoq dəyişməz siyasi kursa malikdir. İki ölkənin həm regional təhlükəsizlik, həm də qlobal enerji transformasiyası məsələlərində üst-üstə düşən maraqları Azərbaycan-Britaniya münasibətlərinin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyini şərtləndirir. Qarşılıqlı hörmət və etimada söykənən siyasi əlaqələr, ortaq maraqlara əsaslanan əməkdaşlıq və yeni istiqamətlər üzrə formalaşan təşəbbüslər iki ölkə arasında münasibətlərin gələcək dövrdə də dinamik inkişaf edəcəyinə, əməkdaşlığın daha da genişlənəcəyinə əsas verir".

Deputat vurğulayıb ki, təbrik məktubunda Azərbaycan ilə Birləşmiş Krallıq arasında dostluq əlaqələrinin xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərlə bundan sonra da müvəffəqiyyətlə davam edəcəyi, tərəfdaşlığımızın daha da möhkəmlənəcəyi qeyd edilib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# İmkanlar real, perspektivlər genişdir

## Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına dair imzalanan Birgə Bəyannamə iki ölkə arasında iqtisadi əməkdaşlığın dərinləşməsini vəd edir

**Azərbaycan-Almaniya iqtisadi əlaqələri getdikcə genişlənir və bundan hər iki tərəf faydalanır. İki ölkə arasında enerji, ticarət, investisiya, texnologiya və digər sahələrdə əməkdaşlıq uğurla inkişaf edir. Ölkələrimiz bir-birinin etibarlı tərəfdaşı olduğunu artıq təsdiqləyib.**

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri iqtisadi əməkdaşlığın inkişafına yeni bir təkan verdi. Səfər çərçivəsində vacib məqamlardan biri iyulun 21-də Berlində Almaniya-Azərbaycan sənədlərinin imzalanması oldu. Azərbaycan Prezidenti və Almaniya Federativ Respublikasının Federal Kansleri "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"ni imzaladılar. Tədbirdə imzalanan digər mühüm sənəd isə Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamədir.

Dövlətimizin başçısının Almaniya Federativ Respublikasının Federal Kansleri ilə geniş tərkibdə görüşündə də məhz ölkələrimiz arasında strateji gündəliyə dair imzalanmış sənədlərin əhəmiyyəti vurğulanıb. Həmçinin sənədlərdən irəli gələrək müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qrupların yaradılması və bu istiqamətdə sistemli işin aparılmasının vacibliyi qeyd edilib. Əslində bu, hər iki ölkənin şirkətlərinə əməkdaşlığı genişləndirmək üçün verilən bir mesaj, yaradılan şərait və imkandır.

Azərbaycan-Almaniya iqtisadi əlaqələrində enerji sektorunun özünəməxsus yeri var. Belə ki, ölkəmiz Almaniyaya neft və qaz ixrac edir. Bu, "Cənub qaz dəhlizi" ilə Azərbaycan qazı alan 16 ölkədən, o cümlədən Avropa İttifaqına üzv 10 ölkədən biridir. Ümumiyyətlə, Almaniya ilə bizim ümumi ticarət dövriyyəmiz keçən il təqribən 1,5 milyard dollar ətrafında olub. Bunun böyük hissəsi Almaniyanın Azərbaycana ixracıdır, qalan hissə isə ölkəmizin ixracıdır. İxracımızın da əsas hissəsi xam neftdir. Azərbaycan təxminən bir neçə yüz milyon dollar səviyyəsində xam neft təchiz edir. Dövlətimizin başçısı mətbuata bəyanatı zamanı "Reuters" agentliyinin nümayəndəsinin sualını cavablandırarkən bildirib ki, nə qədər neft lazımdır, o qədər də təchiz edə bilərik: "Həm daxili mənbələrdən, həm də bizim enerji şirkətimiz SOCAR-ın treydinq bölməsindən. Yəni burada hər hansı bir problem yoxdur. O ki qaldı təbii qaz məsələlərinə, qeyd etdiyim kimi, biz bu ildən başlayaraq Almaniyaya təbii qaz satmağa başlamışıq. Bizim keçən il ümumi qaz ixracımız 25 milyard kubmetr olub. Onun yarısı Avropa İttifaqı ölkələrinə ixrac edilib. Bildiyimə görə, Almaniya şirkətləri ilə 10 illik kontrakt imzalanmışdır və ilkin həcm 1,5 milyard kubmetrdir. Ancaq bu, təbii ki, arta bilər".

Təsadüfi deyil ki, Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşdıqlarını bildirərək bu məqamı da vurğulayıb: "Hazırkı böhran şəraitində xam neftin və "Cənub qaz dəhlizi" ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezident, biz bunları təfərrüatı ilə müzakirə etdik. Biz Azərbaycanla əməkdaşlıq yolu ilə enerji təchizatımızı daha da şaxələndirmək istəyirik. Bu gün biz, həmçinin bərpaolunan enerji və hidrogendən istifadənin genişləndirilməsini müzakirə etdik".

"Siz enerji sahəsindəki əməkdaşlığa toxundunuz. Bu istiqamətdə də müsbət nəticələr var, - deyə dövlətimizin başçısı bidirib. - Bu ildən başlayaraq Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlamışdır. Beləliklə, bizim qazımız bu gün Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz, bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə "yaşıl enerji"sini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır".

Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq genişləndikcə Cənubi Qafqazın Avropa ilə Asiya arasında körpü kimi əhəmiyyəti də artır. Federal Kansler öz bəyanatında bunu da diqqətə çatdıraraq demişdir: "Yeni nəqliyyat və ticarət dəhlizləri birgə istifadə etmək istədiyimiz iqtisadi potensialı yaradır. Cənab Prezident, bildiyiniz kimi, kiçik və orta müəssisələr üçün uzun məsafədə sərmayə yatırmaq çox zaman asan olmur. Yerlərdə münasib çərçivə şərtləri hər zaman olduqca vacibdir. Həmin məsələləri biz bu gün müzakirə etdik. Bu gün imzalanmış iki bəyannamə ilə biz irəliyə doğru böyük addım atdıq".

Bu gün Azərbaycanda bir çox Almaniya şirkəti çalışır. Fəal iş görən şirkətlərin sayı 200-dən çoxdur. Prezidentimizin Almaniyaya indiki səfərindən sonra onların sayı daha da artacaq. Çünki qarşılıqlı sərmayə qoyuluşu məsələləri müzakirə edilməkdədir. Alman şirkətlərinin daha geniş çərçivədə Azərbaycanda fəaliyyəti üçün konkret təkliflər irəli sürülüb.

Bağlantılarla və tranzit imkanları ilə bağlı da Azərbaycan-Almaniya əməkdaşlığı böyük əhəmiyyət daşıyır. Almaniya şirkətləri bu istiqamətdə də uğurlar əldə edib.

Məlumdur ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir. Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaq. Ümumiyyətlə, bir çox istiqamət üzrə konkret fəaliyyət planı nəzərdə tutulur. Səfər çərçivəsində imzalanmış bəyannamənin icrası ilə bağlı fikir mübadiləsi əsnasında konkret təkliflər irəli sürülüb. Bir neçə işçi qrup yaradılacaq ki, imzalanmış sənədlər tezliklə həyatda öz əksini tapsın.

Mətbuata bəyanatının sonunda dövlətimizin başçısı demişdir: "Son olaraq, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunmaq istəyirəm. Bu il biz həm Avropa İttifaqı Şurasının prezidenti cənab Koştanın, həm Avropa Komissiyasının prezidenti xanım fon der Lyayenin Azərbaycana səfərlərinin şahidi olmuşuq. Bu səfərlərin çox böyük siyasi mənası var. Bu, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri daha da gücləndirəcək. Almaniya Avropa İttifaqına üzv olan ölkələr arasında lider olduğu üçün burada təbii ki, həm Almaniyanın rolu çox böyükdür, eyni zamanda gələcək əməkdaşlıq üçün də əminəm ki, Almaniya öz səylərini göstərəcək".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri beynəlxalq medianın diqqət mərkəzində qalmaqdadır

**Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri beynəlxalq media tərəfindən geniş işıqlandırılmaqdadır.**










AZƏRTAC xəbər verir ki, dünyanın bir sıra ölkələrinin müxtəlif qurumlarının media resursları, eləcə də beynəlxalq səviyyədə informasiya yayımı həyata keçirən nəşrlər səfər çərçivəsində keçirilən görüşlər, Azərbaycan-Almaniya əməkdaşlığının daha da dərinləşdirilməsi istiqamətində aparılan müzakirələr, ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamənin imzalanmasını və Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasını, eləcə də liderlərin mətbuata bəyanatlarında səsləndirdikləri fikirləri geniş işıqlandırıblar.

Almaniya Xarici İşlər Nazirliyi (XİN) Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri çərçivəsində ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamənin imzalanmasını qarşılıqlı münasibətlərin inkişafı baxımından mühüm addım kimi qiymətləndirib. Nazirliyin Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Niklas Vaqner "X" platformasında Almaniya XİN adından etdiyi paylaşımda sənədin iki ölkə arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə xidmət edəcəyini vurğulayıb.

"Bu gün Almaniya ilə Azərbaycan arasındakı güclü münasibətləri Strateji Gündəlik vasitəsilə daha da dərinləşdirdik. Müxtəlif sahələr üzrə əməkdaşlığımızı genişləndirmək üçün çalışacağıq və Ermənistanla Azərbaycan arasında münasibətlərdə yaranmış tarixi dinamikanı alqışlayırıq", - deyə paylaşımda qeyd olunub. Paylaşımda həmçinin Birgə Bəyannamənin tam mətni də təqdim olunub.

Dövlətimizin başçısının səfəri Vyetnam mediası tərəfindən də geniş işıqlandırılıb. Bu ölkənin "Vietnam.vn", "Baomoi.com" və "Quang Minh Viet Nam" portalları Prezident İlham Əliyevin rəsmi səfərini əsasən enerji təhlükəsizliyi, strateji tərəfdaşlıq və nəqliyyat-logistika əməkdaşlığı kontekstində işıqlandırıb. Nəşrlər Almaniyanın Azərbaycanla Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamasını və enerji, nəqliyyat, ticarət, investisiya, infrastruktur, elm və texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsini səfərin əsas nəticələri kimi təqdim ediblər. Məqalələrdə xüsusilə Avropanın Rusiyadan enerji resurslarından asılılığının azaldılması fonunda Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi artan rolu, "Cənub qaz dəhlizi"nin əhəmiyyəti və Almaniyaya qaz tədarükünün artırılması perspektivi vurğulanıb. Eyni zamanda Orta dəhliz Asiya ilə Avropanı birləşdirən, geosiyasi risklər fonunda alternativ və strateji nəqliyyat marşrutu kimi təqdim olunub, Azərbaycanın Ələt limanına və tranzit infrastrukturuna yatırımları Avropanın təchizat zəncirlərinin şaxələndirilməsi baxımından mühüm amil kimi qiymətləndirilir.

Ümumilikdə Vyetnam mediası Azərbaycan-Almaniya münasibətlərini təkcə ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, həm də Avropanın enerji təhlükəsizliyi, regional bağlantıların inkişafı və qlobal logistika sistemlərinin yenidən formalaşması prosesinin mühüm elementi kimi təqdim edib.

Küveytin "Nabd.com" xəbər portalı da Azərbaycan Prezidentinin səfərini əsasən enerji təhlükəsizliyi, ticarət əlaqələri və Avropanın Rusiyanın enerji asılılığından çıxış strategiyası kontekstində təqdim edib. Məqalədə Almaniyanın Azərbaycan qazına marağı, "Cənub qaz dəhlizi"nin rolu, mümkün qaz ixracının artırılması və Orta dəhlizin Avropa ilə Asiya arasında ticarətdə əhəmiyyəti vurğulanıb. Bu baxımdan Azərbaycan-Almaniya əməkdaşlığı təkcə regional deyil, daha geniş qlobal enerji və logistika proseslərinin bir hissəsi kimi qiymətləndirilib. Məqalədə Azərbaycanın enerji resursları ilə yanaşı, tranzit imkanlarının da Avropa üçün strateji dəyər qazandığı xüsusi vurğulanıb.

Bir sıra beynəlxalq media qurumları Bakıda Rusiya və Almaniyanın keçmiş yüksəkvəzifəli nümayəndələri arasında Ukraynadakı müharibənin dayandırılması imkanlarının müzakirə olunduğu qeyri-rəsmi görüş barədə Azərbaycan Prezidenti İlham Əliyevin açıqlamasına geniş yer veriblər. Bu barədə xəbərlər əsasən Azərbaycanın bu təmas barədə əvvəlcədən məlumatlandırılmadığı və Kansler Fridrix Mertsin Almaniya hökumətinin həmin görüşə aidiyyəti olmadığını bildirməsi kontekstində təqdim edilib. Bu mövzuda məlumatlar Polşanın "Rzeczpospolita", "Onet", "Interia", "Money.pl" və "Newsweek Polska", Rumıniyanın "Digi24", "HotNews" və "News.ro", Xorvatiyanın "Index.hr" və "Dnevnik.hr", Bolqarıstanın "Dnevnik", "Focus News", "News.bg" və "Vesti.bg", Slovakiyanın "SME", "Teraz.sk" və "Topky.sk" nəşrlərində yayımlanıb.

Bir sıra digər media qurumlarının materiallarında isə əsas diqqət Prezident İlham Əliyevin açıqlamasının beynəlxalq siyasi gündəmdə əks-sədası, Ukrayna müharibəsi ilə bağlı mümkün diplomatik təmaslar və tərəflərin mövqeləri üzərində cəmlənib. Məlumatlar Serbiyanın "Politika", "Tanjug", "Novosti" və "N1 Srbija", Bosniya və Herseqovinanın "Oslobodenje" və "Vijesti.ba", Xorvatiyanın "HRT", Türkiyənin "Habertürk" və "Haberler", Gürcüstanın "1TV.ge" və "Imedi News", İspaniyanın "ABC", Cənubi Koreyanın "KBS World" kimi media platformalarında da yayımlanıb.

# Şəmkirdə alman mədəni irsinə böyük diqqət var



**Ölkəmizin qərb bölgəsində yerləşən qədim Şəmkir tarixən multikultural şəhər olub. Burada almanlar da uzun illər digər azsaylı xalqların nümayəndələri ilə dost və mehribanlıq şəraitində yaşamış, bir-birinin xeyrində, şərində yaxından iştirak etmişlər. Bu gün də həmin dostluqdan söhbət düşəndə yaşlı adamlar ürəklərində yaşatdıqları xatirələri həvəslə danışır, gənclərə bu dostluqdan bəhrələnməyi tovsiyə edirlər.**

Tarixi məxəzlərdən məlumdur ki, 1817-ci ildə rus çarı I Aleksandrın razılığı ilə Almaniyanın Şvaben bölgəsindən lüteran-pietist dininə mənsub olan yüzlərlə ailə imperiyanın ərazisinə köçürülüb. 1819-cu ildə 500 vürtemberqli alman ailəsi Azərbaycanın Yelizavetpol quberniyasına yerləşdirilib. Azərbaycanda ilk alman koloniyasının Yelenendorfda (indi Göygöl rayonu), sonra isə ondan 40 kilometr aralıda ikinci alman koloniyasının - Annenfelddə (indi Şəmkir rayonu) əsası qoyulub.

Odur ki, bu qədim məkanda tolerantlığın, xüsusən də alman mədəni irsini və almanların qədim ruhunu özündə yaşadan tikililər və xatirələr çoxdur. 1819-cu ildə almanlar Annenfeld (indi Şəmkir) şəhərində 4 küçə yaratmış, 400-ə qədər ev və kilsə tikmiş, rus-alman dilində dördsinifli məktəb açmış, habelə istirahət-əyləncə mərkəzi salmışlar.

Şəmkir Şəhər Bələdiyyəsinin sədri Vüqar Həsənov bildirdi ki, almanların şəhərsalma mədəniyyəti Şəmkirin coğrafi mövqeyi ilə sıx bağlıdır. Hələ həmin dövr küçələrdə, evlərdə bu gün də istifadədə olan kanalizasiya sistemləri quraşdırılmışdır. Şəmkirdə küçələr boyunca taxta döşəməli, holland sobalı, şüşəbəndli və geniş zirzəmili, ən azı iki-üç otağı, həyətində yardımçı tikililəri olan mülki evlər eyni istiqamətdə yan-yana düzülmüşdür. Qırmızı kirəmit və ya dəmirlə örtülmüş evlər öz memarlıq simasında qotik üslubun əlamətlərini daşıyır. Bu şəhərin planlı şəkildə salınması, kanalizasiya və su kollektorlarının, su arxlarının, habelə küçələrdə ağacların, yaşıllıq zolaqlarının nizamlı salınması, park və musiqili əyləncə mərkəzinin yaradılması, mərkəzdə məbədlərin və inzibati binaların yerləşdirilməsi şəhərsalmanın ilkin mərhələdən sistemli xarakter daşıdığını sübut edir. Çöl divarı və eyvanı taxtadan olan evlər şəhərə xüsusi gözəllik verir.

Yaşlı nəslin təmsilçisi, uzun illər müəllim və məktəb direktoru işləmiş təcrübəli pedaqoq Tariyel Məmmədov deyir ki, almanlar yerli əhali ilə çox mehriban və səmimi olmuşlar. Azərbaycanlı ailələrin uşaqları alman uşaqları ilə birlikdə böyüdükləri üçün alman uşaqları Azərbaycan, azərbaycanlı uşaqlar isə alman dilini mükəmməl bilirdilər. Hətta alman ailələrindən qız alanlar da çox olmuşdur: "O zaman Süleyman ağa Bədirbəylinin hərbçi-zabit oğlu Abbas bəy bir məktəbdə oxuduğu almanəsilli Xristina Yakovlevna Verberlə ailə həyatı qurmuşdur. Belə ailələrin nəvə-nəticələrinə dərs demişəm. Onlar bu gün Şəmkirdə, Gəncədə, Bakıda və digər şəhərlərdə yaşayırlar".

Almanlar Şəmkirdə üzümçülük, maldarlıq və əkinçiliklə məşğul olmuşlar. Ötən əsrin sonlarınadək fəaliyyətdə olan məşhur Şəmkir Konyak Zavodunu, Lenin qəsəbəsi (indi Çinarlı), Təzəkənd və İrmaşlı kəndlərindəki şərab zavodlarını da onlar tikmişlər. Almanlar Yasamal dağlarının döşündəki meşəliklərdə bulaqlardan Şəmkirin özünə, eləcə də adıçəkilən kəndlərə su çəkmiş, bölgədə ilk su-elektrik stansiyası inşa etmişlər ki, bununla da regionda sənaye inkişaf etməyə başlamışdır. Onlar bu ərazidə yaşadıqları müddət ərzində yerli əhali ilə mehriban ünsiyyət qurmuşlar. Öz dini inanclarını qoruyub saxlayan almanlar qəsəbədə kilsə də inşa etmişlər. Hazırda xalq arasında bura Lüteran kilsəsi kimi tanınır. Şəmkirə yolu düşənlər bu gün həmin kilsəyə böyük maraqla tamaşa edirlər.

Almanların məskunlaşdıqları ərazilərdən biri də rayon mərkəzindən 15 kilometr cənubda yerləşən indiki Çinarlı qəsəbəsi, əvvəlki Georqsfeld məntəqəsidir. Məntəqə 1888-ci ildə yaradılıb, iki ildən sonra burada 5 hektar ərazisi olan mənzərəli park salınıb. Onun ərazisində rəqs meydançası, insanların istirahət vaxtının təşkili üçün mədəniyyət evi fəaliyyət göstərib, Lüteran kilsəsi tikilib və kəndin yaxınlığında şərab istehsalı zavodu inşa edilib. O zamanlardan salınan park indi də sakinlərin istirahət yeridir. Burada nəhəng sərv və şam ağacları ilə yanaşı, çətirformalı palmalar, nadir hind qozu zövqləri oxşayır, habelə paradoksal olsa da, bambuk ağacına rast gəlinir.

Tarixi məlumatlara görə, rayon mərkəzindən təxminən 12 kilometr məsafədə yerləşən İrmaşlı kəndinin (Aygenfeld kəndi) təməlini də 1906-cı ildə almanlar qoymuşlar. 1940-cı ilin siyahıyaalınmasına görə, bu kənddə 246 nəfər alman yaşayıb. Kəndin o dövr üçün inkişaf etmiş infrastrukturu olub: kilsə, uşaq bağçası, məktəb, klub, park, ambulatoriya, şərab zavodu... Almanlardan qalma tikililər sırasında böyük zirzəmili bir neçə yaşayış evi, park, yerli folklor evinin yerləşdiyi bina, bələdiyyə və kitabxananın yerləşdiyi kilsə hələ də kəndin alman mədəni irsini özündə yaşadır.

Alman evlərinin tikilişindən və memarlıq xüsusiyyətlərindən ehtimal edilir ki, burada yaşamış almanların həyat şəraiti yaxşı olmuşdur. Odur ki, indiki İrmaşlının azərbaycanlı əhalisi dağ İrmaşlıdan (indi Daşbulaq) buraya köçmüşlər. Ona görə də kənddə azərbaycanlı və alman məhəllələri mövcud olub.

Şəmkirdə alman mədəni irsinə böyük hörmət və diqqət var. Hazırda Şəmkir Tarix-Diyarşünaslıq Muzeyində bu ərazidə yaşamış alman icmasının həyat tərzini əks etdirən maraqlı eksponatlar ziyarətçilərə təqdim olunur. Almanların məişəti, gündəlik yaşam üslubu, mədəni dəyərləri və estetik zövqü muzeyin ekspozisiyasında xüsusi yer tutur.

Bu irsin ən diqqətçəkən nümunələrindən biri almanlara məxsus şamdandır. Üzərində qoç başının fiquru olan sözügedən şamdan təkcə işıq mənbəyi deyil, eyni zamanda alman ailələrinin evdaxili mədəniyyətini, səliqə və zərifliyini əks etdirən nadir tarixi nümunədir.

Şəmkirdə yaşamış alman icması bölgənin sosial-iqtisadi və mədəni inkişafında mühüm rol oynamış, bu torpaqlarda öz izlərini qoymuşdur. Muzeydə qorunan eksponatlar bu çoxmədəniyyətli irsin bu günə çatdırılmasına xidmət edir.

Təəssüf ki, Böyük Vətən müharibəsi başlayandan sonra Şəmkirdəki almanların həyatında çətin dövr başlanıb. Onlar Moskvanın - Kreml rəhbərliyinin 15 oktyabr 1941-ci il tarixli qərarına əsasən, 3 gün ərzində Mərkəzi Asiyaya deportasiya ediliblər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Həsən bəy Zərdabinin məzarı ziyarət edilib

**İyulun 22-də Azərbaycan milli mətbuatının yaranmasının 151-ci ildönümü ilə əlaqədar Medianın İnkişafı Agentliyinin, Mətbuat Şurasının, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) rəhbərliyi və kollektivi milli mətbuatımızın banisi, "Əkinçi" qəzetinin naşiri və redaktoru, Azərbaycan milli məfkurəsinin əsaslarını yaradanlardan biri olan Həsən bəy Zərdabinin məzarını ziyarət edib.**




AZƏRTAC xəbər verir ki, Həsən bəy Zərdabinin ruhuna ehtiram əlaməti olaraq məzarının önünə əklil və tər güllər düzülüb, dərin minnətdarlıq hissilə böyük mütəfəkkirin əziz xatirəsi yad edilib.

Çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan milli mətbuatının keçdiyi tarixi inkişaf yolundan danışıb, "Əkinçi" ilə əsası qoyulan milli mətbuat ənənələrinin sonrakı dövrlərdə "Həyat", "İrşad", "Tərəqqi", "Açıq söz" qəzetləri, "Füyuzat" və "Molla Nəsrəddin" jurnalları və digər nəşrlərlə daha da zənginləşdiyini diqqətə çatdırıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Üzeyir Hacıbəylinin rəhbərliyi ilə nəşr olunan "Azərbaycan" qəzetinin ölkənin dövlətçilik və mətbuat tarixində mühüm yer tutduğu vurğulanıb. Qeyd edilib ki, ADA Universitetində Hafiz Paşayevin rəhbərliyi ilə "Azərbaycan" qəzetinin 1918-1920-ci illərdə ərəb qrafikası ilə çap edilmiş saylarının transliterasiya edilərək nəşr olunması bu zəngin irsin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Vurğulanıb ki, sovet dövründə mövcud senzura şəraitinə baxmayaraq, Azərbaycan mətbuatı milli dilin saflığının qorunmasında mühüm rol oynayıb. Xüsusilə qeyd edilib ki, senzura və Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin müstəqillik illərində - 1998-ci ilin avqustunda Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə ləğv edilməsi ölkə mətbuatının inkişafında yeni mərhələnin əsasını qoyub və bu siyasət, mətbuata diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Media sahəsində həyata keçirilən islahatların, "Media haqqında" Qanunun qəbulunun, yeni idarəetmə mexanizmlərinin yaradılması informasiya mühitinin inkişafına mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

# Çex Respublikasının "Agrofert" Şirkətlər Qrupu ilə əməkdaşlıq imkanları müzakirə edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Çex Respublikasının aqrar-sənaye sahəsində fəaliyyət göstərən "Agrofert" Şirkətlər Qrupunun Direktorlar Şurasının sədr müavini Peter Singr ilə görüşüb.**



Bu barədə AZƏRTAC-a İqtisadiyyat Nazirliyindən məlumat verilib. İqtisadiyyat Nazirliyində keçirilən görüşdə "Agrofert" Şirkətlər Qrupu ilə aqrar-sənaye, kimya sənayesi və enerji sektorlarında əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf perspektivlərinə uyğun olaraq biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi və işgüzar əlaqələrin təşviqi məsələləri müzakirə olunub. Azərbaycanın əlverişli biznes və investisiya mühiti, qeyri-neft-qaz sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar və sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmləri barədə məlumat verilib.

Tərəflər aqrar-sənaye, kimya sənayesi və enerji sektorlarında əməkdaşlıq imkanlarını, eləcə də investisiya layihələri üzrə birgə fəaliyyət imkanlarını nəzərdən keçiriblər.

# Ağ günlərin şəhəri - Ağdam

## 23 iyul artıq Azərbaycanın sarsılmaz iradəsinin, qələbəsinin və Böyük qayıdışın parlaq səhifəsidir

**Bu gün qəlbimizdə misli görünməmiş bir iftixar hissi ilə baxışlarımızı Qarabağın ürəyinə dikib bütün dünyaya fəxrlə bəyan edirik ki, düşmənin 30 il boyu xarabazarlığa çevirdiyi, "ruhlar şəhəri" adlandırılan viranə yurdun yerində indi zəfərimizin, milli qürurumuzun və yenilməz iradəmizin abidəsi - yepyeni bir Ağdam ucalır.**



Bir vaxtlar xalqımızın sinəsində göynəyən bir dağ olan bu müqəddəs torpaq, indi Böyük qayıdışın və dirçəlişin canlı rəmzinə çevrilib. Ötən il martın 27-də Prezident İlham Əliyevin Ağdamın Sarıcalı kəndində sakinlərlə görüşərək "elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq" kəlamını bəyan etməsi, eləcə də dekabrın 24-də öz doğum günündə Ağdama köçən ilk sakinlərə evlərinin açarlarını böyük qürur hissi ilə təqdim etməsi bu gün yaşadığımız sonsuz iftixar hissinin ən bariz təzahürüdür.

### Birqərinəlik həsrət bitib

Ağdamlıların doğma ocaqlarına qayıdışı milli yaddaşımıza həkk olunan ən kövrək və qürurverici məqamlardandır. Cəmi bir neçə il ərzində xalqımızın böyük həvəs və sevgi ilə əl-ələ verərək ərsəyə gətirdiyi bu möcüzə sübut edir ki, biz təkcə şəhərlərimizi bərpa etmirik, biz tariximizi, qürurumuzu və gələcəyimizi təzədən inşa edirik. Lakin Ağdamın bu şanlı zəfər yüksəkliyinə və ağ günlərə hansı çətinliklərdən, necə bir dəhşətli tarixi sınaqdan keçərək gəldiyini xatırlamaq da hər birimizin mənəvi borcudur.

Biz bu günün təntənəsinə bir zamanlar "Qafqazın Xirosiması"na çevrilmiş, yerlə yeksan edilərək "ruhlar şəhəri" adlandırılmış bir xarabazarlığın içindən keçərək çatdıq. Birinci Qarabağ müharibəsində minlərlə şəhid verən, düşmən tərəfindən yalnız hərbi məqsədlər üçün uçuq divarları saxlanılan Cümə məscidindən başqa tək bir salamat binası belə qalmayan Ağdam başdan-başa mina tarlasına çevrilmişdi. Məzarlıqları yerlə-yeksan edilən, hər əmlakı talan olunan bu şəhərdə düşmən xalqımızın qayıdış ümidini öldürmək istəyirdi. 23 iyul uzun illər boyunca yaddaşlarımıza işğalın və həsrətin acı tarixi kimi həkk olunmuşdu...

1993-cü ilin iyulunda Ağdamın işğalı ilə insanların taleyi bir anın içində alt-üst edildi. İsti yay günündə doğma ev-eşiyindən, ata-baba ocağından yalnız əynindəki paltarla çıxmaq məcburiyyətində qalan ağdamlılar üçün uzun və ağrılı bir köçkünlük həyatı başladı. Bir vaxtlar zənginliyi, bərəkəti və qonaqsevərliyi ilə seçilən Ağdamın sakinləri öz torpağında, öz elində məcburi köçkünə çevrildilər.

Köçkünlüyün ilk illəri sözün əsl mənasında yaşamaq uğrunda mübarizə idi. Doğma yurdlarından didərgin düşən ağdamlılar ölkənin müxtəlif bölgələrində - çadır şəhərciklərində, qaranlıq vaqonlarda, istismara yararsız yataqxanalarda və yarımçıq tikililərdə məskunlaşmalı oldular. Yayda bürkülü və tozlu, qışda isə soyuq və palçıqlı çadırlarda keçən günlər ağdamlıların dözümünü sınağa çəkirdi. Lakin məcburi köçkünlük dövrünün ən ağır yükü maddi çətinliklərdən daha çox ruhi və mənəvi acılar idi. Hər bir ağdamlı ailəsi Birinci Qarabağ müharibəsində verdiyimiz minlərlə şəhidin kədərini qəlbində daşıyır, eyni zamanda işğalda qalan, təhqir olunan məzarlıqlarının, dağıdılan ocaqlarının həsrətini çəkirdi. Ağdam Cümə məscidinin minarəsindən ucalan azan səsini, İmarət kompleksinin ruhunu, bağ-bağçaların ətrini yalnız xatirələrdə yaşatmaq məcburiyyətində qalmaq bu məğrur elin insanları üçün ən böyük mənəvi işgəncə idi. Yeni doğulan uşaqlar Ağdamı yalnız valideynlərinin kövrək hekayələrindən tanıya bilirdilər.

Bütün bu dözülməz sınaqlara, itkilərə və çətinliklərə baxmayaraq, ağdamlılar öz bükülməz ruhlarını, zəhmətkeşliklərini itirmədilər. Dövlətin qayğısı və xalqımızın həmrəyliyi ilə çadır şəhərcikləri ləğv edildi, köçkünlər üçün yeni qəsəbələr salındı, ağdamlıların da məişət şəraiti yaxşılaşdırıldı. Amma onların qəlbində bir gün doğma Ağdama başıuca və məğrur şəkildə qayıdacaqları ümidi sönmədi.

Və bu tükənməz ümid bütün məcburi köçkünlər kimi, ağdamlıları da Zəfər zirvəsinə yetirdi.

### Qarabağın ilk təməl daşı Ağdamda qoyuldu

2020-ci ilin Şuşa Zəfərindən sonra Kəlbəcər və Laçınla bərabər, bir güllə atılmadan, bir itki verilmədən azad edilən Ağdam cəmi bir neçə il ərzində yenidən doğuldu, quruculuğun, dirçəlişin ünvanına çevrildi. Vətən müharibəsinin üzərindən heç bir il keçməmiş, 2021-ci il mayın 28-də - Müstəqillik Günündə qurucu lider İlham Əliyev tərəfindən Qarabağın ilk təməl daşının Ağdamda qoyulması dərin rəmzi məna daşıyırdı. Bu şəhərin bünövrəsinin qoyulması ilə həm də torpaqlarımıza göz dikən düşmənə və onun havadarlarına Azərbaycan xalqının qüdrəti, əzmkarlığı nümayiş etdirilirdi.

Həmin gün 140 illik tarixə malik 1 saylı məktəbin, Bərdə-Ağdam avtomobil yolunun, Ağdam Sənaye Parkının, "İmarət" kompleksinin və 125 hektarlıq meşə sahəsinin təməli qoyulmaqla başlayan quruculuq salnaməsi bu gün öz böyük bəhrəsini verir.

2022-ci il oktyabrın 4-də Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin təməllərinin atılması ilə Ağdamda daha bir möhtəşəm mərhələ başladı. İndi Ağdam Bakı, Sumqayıt və Gəncədən sonra ölkəmizin dördüncü böyük sənaye mərkəzinə çevrilir. Bərdə-Ağdam avtomobil yolunun, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin istifadəyə verilməsi, Xaçınçay su anbarının yenidən qurulması və digər çoxsaylı mühüm layihələr regiona yeni həyat nəfəsi gətirib.

Ruhumuzu təzələyən Ağdam Cümə məscidinin, Qiyaslı məscidinin və "İmarət" kompleksinin bərpası tarixi-mədəni irsimizin yenidən dirçəldildiyinin göstəricisidir.

Bu gün Ağdam təkcə yenidən tikilən binalardan, çəkilən asfalt yollardan ibarət deyil. O, hər bir azərbaycanlının qürur mənbəyi, milli birliyimizin və sarsılmaz iradəmizin canlı təcəssümüdür. Otuz il boyunca sinəmizdə gəzdirdiyimiz bitməyən ağrı-acı indi yerini başıucalıq, minnətdarlıq və sonsuz sevincə verib. Onilliklərin həsrətindən sonra doğma ocaqlarına dönən ağdamlıların gözlərindəki işıq, uşaqların gülüşü bu torpaqlara həyatın birdəfəlik və əbədi olaraq qayıtdığını müjdələyir.

Tarix bir daha sübut etdi ki, ədaləti, torpağı və qüruru uğrunda bir yumruq kimi birləşməyi bacaran xalqı heç bir işğal, heç bir vandalizm sarsıda bilməz. Bu gün Ağdamda İlahi ədalətin təntənəsi olan möhtəşəm quruculuq işləri göstərir ki, 23 iyul artıq matəm yox, Azərbaycanın sarsılmaz iradəsinin, zəfərinin və Böyük qayıdışın ən parlaq səhifəsidir. "Qafqazın Xirosiması"ndan dünyanın həsəd aparacağı quruculuq zirvəsinə ucalan Ağdamın ağ günləri mübarək olsun!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Misir əməkdaşlığı iqtisadi tərəqqiyə və sülhə xidmət edir

**Qədim sivilizasiyaların beşiyi olan Nil vadisinin həyat verdiyi məhsuldar Misir torpaqları təkcə bir ölkənin coğrafiyası deyil, bəşər tarixinin və qədim mədəniyyətin ilk möhtəşəm abidəsidir. Əsrlərin sınağından şərəflə çıxmış və keşməkeşli hadisələrin şahidi olmuş möhtəşəm ehramlar, səmaya ucalan məbədlər və sirlərlə dolu heroqliflər insan zəkasının və estetik düşüncəsinin daşlaşmış təcəssümüdür.**



Bu gün Misir dedikdə beynəlxalq hava və su yollarının kəsişdiyi geostrateji bir region, təkcə Afrikanın deyil, eyni zamanda Yaxın və Orta Şərqin həyatında özünəməxsus rol oynayan, sabit inkişaf edən bir ölkə gözlərimiz önündə canlanır. Hazırda Misir CAR-dan sonra Afrikada ikinci ən böyük ümumi daxili məhsula malik ölkədir. Onun əsas gəlir mənbələri turizm, kənd təsərrüfatı, neft, qaz hasilatı və strateji əhəmiyyətli Süveyş kanalıdır. Hələ 2015-ci ildə istifadəyə verilən "Yeni Süveyş Kanalı" genişləndirmə layihəsindən sonra kanalın maksimal buraxıcılıq qabiliyyəti gün ərzində 97 gəmiyə çatdırılmışdır. Misir Süveyş kanalının istismarından normal geopolitik və təhlükəsizlik şəraitində illik təqribən 9,4-10 milyard dollar gəlir əldə edir.

Misir iqtisadiyyatı 2025-ci ildə maliyyə sisteminin sabitləşməsi sayəsində güclü artım mərhələsinə qədəm qoydu. Ümumi daxili məhsulun həcmi təxminən 349 milyard dollara çatdı və real artım sürəti 4,4 - 5,3 faiz təşkil etdi. Ölkə Afrika qitəsində CAR-dan sonra ikinci ən böyük iqtisadiyyata malik oldu. Ümumi sərmayə qoyuluşunun 66 faizi özəl sektorun payına düşüb. Turizm, telekommunikasiya və emaledici sənaye sahələri əsas hərəkətverici qüvvələr olaraq qalır. İrimiqyaslı infrastruktur layihələri uğurla həyata keçirilir.

Əhalinin əhəmiyyətli bir hissəsi kənd təsərrüfatı işləri ilə məşğul olur. Misir dünyada özünün həm də yüksək keyfiyyətli, zərif və uzunlifli pambığı ilə tanınır. Pambıqçılıq ölkənin ən vacib ixrac sahələrindən biridir. Yuxarı (Cənubi) Misirdə şəkər qamışı, Aşağı (Şimali) Misirdə isə geniş sahələrdə şəkər çuğunduru becərilir. Ölkədə azad iqtisadi zonalar fəaliyyət göstərir. İcra olunan layihələrin sayı 1243-ə çatıb və bu infrastruktura 152 yeni müəssisə əlavə olunub. Düyü məhsulu Nil deltasında bol su resursları hesabına yetişdirilir və regionun əsas qida mənbələrindən biridir. Qarğıdalı və buğda bitkiləri əhalinin daxili ərzaq tələbatını ödəmək üçün geniş sahələrdə becərilir. Misir ildə orta hesabla 9-10 milyon ton buğda istehsal edir.

Müasir Misirin xarici siyasəti onun geostrateji mövqeyi, ərəb və islam dünyasındakı tarixi rolu, regional təhlükəsizlik və iqtisadi maraqları fonunda formalaşır. Yaxın Şərq və Şimali Afrikanın ən böyük dövlətlərindən biri olan bu ölkənin xarici siyasətinin bir sıra üstün istiqamətləri mövcuddur. Misir fələstinlilər və İsrail arasında tarixi və ən fəal vasitəçi tərəfdir. Qəzzə zolağı ilə həmsərhəd olduğu üçün regiondakı atəşkəs danışıqlarında və humanitar dəhlizlərin idarə olunmasında əsas rol oynayır.

Mənzil-qərargahı Qahirədə yerləşən Ərəb Dövlətləri Liqasında Misir aparıcı qüvvədir. Körfəz ölkələri, xüsusilə SƏK və BƏƏ ilə sıx siyasi və iqtisadi müttəfiqlik saxlamaqla regional sabitliyi qorumağa çalışır. Qərb qonşusunda radikal qruplaşmaların və xarici müdaxilələrin qarşısını almaq üçün siyasi həll yolunu dəstəkləyir. Cənub qonşusunda baş verən münaqişələrin Misirə qaçqın axını və təhlükəsizlik riski yaratmaması üçün fəal diplomatiya yürüdür. Hazırda Misir üçün su təhlükəsizliyi birbaşa milli təhlükəsizlik məsələsidir. Efiopiyanın Nil çayı üzərində inşa etdiyi "Məhərrəm Rəhnəması" su bəndi ilə bağlı Afrika İttifaqı və BMT çərçivəsində öz su kvotasını qorumaq üçün gərgin diplomatik mübarizə aparır.

Misirin ən mühüm hərbi və strateji tərəfdaşlarından biri ABŞ-dir. İki ölkə arasında hərbi yardım və təhlükəsizlik sahələrində əməkdaşlıq davam edir. Rusiya və Çin ilə münasibətlər də inkişaf edir. Qahirə son illərdə münasibətlərini şaxələndirib. Şərqi Aralıq dənizində iri təbii qaz yataqlarının kəşfindən sonra Misir regional enerji qovşağına çevrilməyi hədəfləyir. Bu çərçivədə Yunanıstan, Kipr və İsrail ilə sıx enerji və dəniz sərhədlərinin müəyyənləşdirilməsi sahəsində əməkdaşlıq edir.

Misir və Azərbaycan arasında əlaqələrin tarixi qədim çağlara gedib çıxır. Hər iki xalqı birləşdirən ümumi cəhətlər çoxdur. Azadlıqsevərlik, qonaqpərvərlik, qonşularla sülh şəraitində yaşamaq istəyi, qədim mədəniyyətlərin beşiyi və daşıyıcısı olmaları və sair bu gün onların sıx əməkdaşlığını zəruri edən mühüm amillərdir. Azərbaycan özünün dövlət müstəqilliyini bərpa edəndən sonra ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Misir Azərbaycanın dövlət müstəqilliyini 26 dekabr 1991-ci ildə rəsmən tanımış və 1992-ci il martın 27-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Misir Qarabağ münaqişəsi zamanı Azərbaycanın ərazi bütövlüyünü, BMT və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində qəbul edilən humanitar və siyasi qətnamələri fəal şəkildə dəstəkləyib.

İki ölkə arasında siyasi münasibətlərin yaxşılaşmasında dövlət başçılarının şəxsi dostluq əlaqələrinin olması da müsbət rol oynayır. Azərbaycan ilə Misir arasında parlamentlərarası əlaqələr hər iki ölkənin xarici siyasətində önəmli yer tutur və strateji tərəfdaşlığın möhkəmlənməsinə xidmət edir. Bu əlaqələr həm ikitərəfli görüşlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində aktiv şəkildə inkişaf etdirilir. Azərbaycan Respublikasının Milli Məclisində Misirlə parlamentlərarası əlaqələr üzrə işçi qrupu hələ 7 mart 1997-ci ildən fəaliyyət göstərir.

Tərəflər İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı və Parlamentlərarası İttifaq çərçivəsində əməkdaşlıq edirlər. Bu qurumlarda deputatlar qlobal çağırışlar, regional təhlükəsizlik və mədəniyyətlərarası dialoq istiqamətində birgə təşəbbüslərlə çıxış edirlər.

İki ölkə arasında ticarət, enerji, kənd təsərrüfatı, nəqliyyat və digər 12 strateji sahəni əhatə edən ən son hökumətlərarası sənəd 2025-ci ilin noyabrında imzalanıb. Tərəflər arasında BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində ənənəvi qarşılıqlı dəstək davam etdirilir. 2025-ci ildə də qlobal iqlim təşəbbüslərinin koordinasiyalı şəkildə davam etdirilməsi barədə iki ölkə arasında ortaq mövqe nümayiş etdirilib. Həmçinin Yaxın Şərqdəki mövcud təhlükəsizlik vəziyyəti fonunda regional sabitlik mövzusunda siyasi məsləhətləşmələr aparılıb.

2025-2026-cı illərdə Azərbaycan və Misir arasında iqtisadi əlaqələr ticarət, energetika, investisiya və sənaye sahələrində genişlənib. Əsas prioritetlər sırasında birgə fəaliyyət planlarının icrası, qarşılıqlı biznes missiyalarının təşkili və əczaçılıq, nəqliyyat, tikinti sektorlarında əməkdaşlığın dərinləşdirilməsi yer alıb.

2025-ci il noyabrın 24-də Qahirədə Azərbaycan-Misir Hökumətlərarası Müştərək Komissiyasının 6-cı iclası keçirilib. İclasın sonunda 12 iqtisadi və inkişaf sahəsini əhatə edən genişmiqyaslı əməkdaşlıq protokolu imzalanıb. İki ölkə arasında Hökumətlərarası Komissiyanın iclaslarında ticarət dövriyyəsinin 100 milyon dolları keçməsi və xüsusilə energetika, əczaçılıq, nəqliyyat və kənd təsərrüfatı sahələrində birgə müəssisələrin yaradılması əsas hədəf olaraq müəyyən edilib. Hazırda Azərbaycanda Misir sərmayəli 10-dan çox şirkət fəaliyyət göstərir. Bu şirkətlər əsasən ticarət, sənaye, xidmət, əczaçılıq və tikinti sahələrini əhatə edir.

AZPROMO ilə Misirin Sərmayə və Azad Zonalar üzrə Baş Qurumu arasında 2026-2027-ci illəri əhatə edən Birgə Fəaliyyət Planı razılaşdırılıb. Bakı və İskəndəriyyə limanları vasitəsilə Misir, Mərkəzi Asiya və Çin arasında yükdaşımaların artırılması barədə strateji razılıq əldə olunub. Protokol həmçinin kənd təsərrüfatı, qida təhlükəsizliyi, İKT, turizm, mədəniyyət, təhsil, səhiyyə və ətraf mühit sahələrində sıx əməkdaşlığı nəzərdə tutur.

Azərbaycandan Misirə ixrac olunan məhsullar arasında kimya sənayesi məhsulları mühüm yer tutur. Xam neft və qaz məhsulları ilə yanaşı, energetika sənayesində istifadə olunan neft koksu da Misirə göndərilən əsas mallar sırasındadır. Son dövrlərdə yerli texnoparklar (məsələn, Sumqayıt Texnologiyalar Parkı) tərəfindən Misirə sənaye xammalı kimi alüminium pəstahların ixracına başlanılıb. Siyahıda geofizika avadanlıqları, borular, müxtəlif ehtiyat hissələri və boş audio/video daşıyıcıları (media diskləri) yer alır.

Misirdən alınan məhsullar daha şaxəlidir və əsasən kənd təsərrüfatı, əczaçılıq və sənaye mallarını əhatə edir. Bu sırada kənd təsərrüfatı və qida məhsulları mühüm yer tutur. Sitrus meyvələri (portağal, limon və s.), təzə tərəvəzlər, düyü, qənnadı məmulatları, çay, ədviyyatlar, müxtəlif dərman preparatları və qeyri-üzvi kimyəvi birləşmələr, elektrotexnika və işıqlandırma vasitələri, xüsusi təyinatlı mallar və metallurgiya məmulatları.

Hazırda iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin və qarşılıqlı investisiyaların genişləndirilməsi, o cümlədən energetika, nəqliyyat və kənd təsərrüfatı sahələrində birgə layihələrin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.

Misirli turistlər ölkəmizə əsasən birbaşa hava uçuşları vasitəsilə səfər edirlər. Misirdən gələn turist axınında artım müşahidə olunur. Təkcə 2026-cı ilin yanvar ayında Misirdən Azərbaycana 1.013 nəfər turist gəlib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən 76,8 faiz çoxdur. İllik miqyasda isə bu göstərici ortalama 6-8 min nəfər civarında dəyişir.

İki ölkə arasında logistika sahəsində əlaqələr böyük perspektivlər vəd edir. Orta dəhliz (Beynəlxalq Trans-Xəzər Nəqliyyat Marşrutu) ənənəvi olaraq Çindən və Mərkəzi Asiyadan gələn yükləri Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyə və Avropaya çatdırır. Bakı limanı (Ələt) bu zəncirin mərkəzi logistik qovşağıdır. İskəndəriyyə limanı ilə yaradılan koordinasiya bu dəhlizə cənub-qərb istiqamətində tamamilə yeni bir qol qazandırır.

Çin və Mərkəzi Asiyadan gələn konteynerlər Bakı limanında qəbul edilərək dəmir yolu (Bakı-Tbilisi-Qars) və ya avtomobil yolları vasitəsilə Türkiyə limanlarına (məsələn, Mersin), oradan isə dəniz yolu ilə İskəndəriyyəyə çatdırılır. Ənənəvi cənub dəniz marşrutu (okean vasitəsilə) ilə müqayisədə bu multimodal marşrut yüklərin daşınma müddətini əhəmiyyətli dərəcədə qısaldır.

İki ölkə arasında əsrlər boyu formalaşmış mədəni əlaqələr mövcuddur. Bu sahədə 1999-cu ildən fəaliyyət göstərən Misirin Azərbaycandakı səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin fəaliyyətini qeyd edə bilərik. Mərkəz iki ölkə arasında mədəni, təhsil əlaqələrinin inkişafında xüsusi rol oynayır. Burada müxtəlif mədəni tədbirlərlə yanaşı, ərəb dili və danışıq kursları, ərəb xəttatlığı, rəsm və piano dərsləri təşkil olunur.

Azərbaycanlı tələbələrin Misir universitetlərində (xüsusilə ərəb dili və islamşünaslıq istiqamətləri üzrə), misirli tələbələrin isə Azərbaycanda (əsasən mühəndislik, neft-qaz və tətbiqi elmlər üzrə) təhsil almaları tendensiyası davam edir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin birgə təşkil etdiyi beynəlxalq təqaüd proqramları (məsələn, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin vətəndaşları üçün ayrılan təqaüdlər və ya yeni təsis edilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı") çərçivəsində misirli tələbələrə Azərbaycanda tam təqaüdlə oxumaq imkanı yaradılır. Bu tələbələr əsasən ADA Universiteti, BDU və ADNSU kimi müəssisələrdə mühəndislik, informasiya texnologiyaları və beynəlxalq münasibətlər sahəsində təhsil alırlar.

Misir ərəb dünyasında güclü əczaçılıq sənayesinə malik ölkələrdən biridir. Misir şirkətləri (məsələn, ADMA və digər aparıcı istehsalçılar) Azərbaycana dərman preparatlarının ixracında xüsusi paya malikdirlər. Hətta iki ölkə arasında Azərbaycanda birgə əczaçılıq zavodunun qurulması, xüsusilə Hepatit C virusunun müalicəsində istifadə olunan dərmanların yerli istehsalının təşkili istiqamətində mütəmadi olaraq danışıqlar aparılır. Hər iki dövlətin səhiyyə qurumları qlobal səviyyədə bir-birini dəstəkləyirlər. Tərəflər ÜST, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində sıx əlaqədə fəaliyyət göstərirlər.

Azərbaycan-Misir əməkdaşlığının yüksələn xətlə inkişaf etməsi təkcə Şimal-Şərqi Afrika və Yaxın Şərq regionunda deyil, eyni zamanda Cənubi Qafqaz bölgəsində də mövcud kövrək sülh prosesinin möhkəmlənməsinə öz sanballı töhfəsini verəcək və Nil çayının vadisində olduğu kimi, Araz-Kür vadilərində də iqtisadiyyatın çiçəklənməsi üçün münbit zəmin yaradacaqdır.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

# REGİONLAR

● Taxıl biçini

## Ölkə üzrə zəmilərin 86 faizində biçin yekunlaşıb

### İndiyədək sahələrdən 2,9 milyon tona yaxın məhsul yığılıb

**Azərbaycanda taxıl biçini yekun mərhələyə keçib. Kənd Təsərrüfatı Nazirliyi yanında taxıl biçini ilə əlaqədar yaradılmış Mərkəzi Qərargahın operativ məlumatına görə, iyulun 21-dək ölkə üzrə payızlıq taxıl sahələrinin 86 faizində biçin başa çatıb.**



Mövsüm ərzində 827 625 hektar sahədə biçin aparılıb, bu sahələrdən 2 877 903 ton məhsul yığılıb. Hazırda taxıl üzrə orta məhsuldarlıq 34,8 sent/ha təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 sent/ha çoxdur.

İndiyədək mexanizatorlar tərəfindən 365 154 hektar buğda, 462 471 hektar arpa sahəsi biçilib. Bu sahələrdən 1 371 200 ton buğda, 1 506 703 ton arpa yığılıb. Buğda sahələrinin 79,4 faizində, arpa sahələrinin isə 92,1 faizində biçin yekunlaşıb. Orta məhsuldarlıq buğda üzrə 37,6 sent/ha, arpa üzrə isə 32,6 sent/ha təşkil edir.

Artıq 17 rayonda - Ucar, Ağdaş, Bərdə, Biləsuvar, Cəlilabad, Kürdəmir, Yevlax, Lənkəran, Masallı, Neftçala, Sabirabad, Salyan, Naftalan, Göyçay, Tərtər, Kəlbəcər və Şuşada biçin tam yekunlaşıb, respublikanın 16 rayonunda - Ağsu, Ağdam, Ağcabədi, Ağstafa, Astara, Balakən, Beyləqan, Goranboy, İmişli, Qazax, Qəbələ, Zərdab, Saatlı, Samux, Siyəzən, Şəki rayonlarında taxıl biçini yekunlaşmaq üzrədir.

Respublika üzrə biçin prosesinin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

## Məhsuldarlıq ötən ildəkindən çoxdur

**Neftçalanın əlverişli torpaq-iqlim şəraiti, fermerlərin zəhməti və müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə nəticəsində rayonda taxılçılıq intensiv inkişaf edir.**

Cari mövsümdə taxıl əkinlərinin becərilməsi dövründə fermerlər tərəfindən bütün aqrotexniki tədbirlər vaxtında həyata keçirilmişdir. Torpaqların hazırlanması, mineral gübrələrin tətbiqi, suvarma və bitki mühafizəsi tədbirləri məhsuldarlığın artmasına müsbət təsir göstərmişdir. Biçin mövsümündə isə müasir kombayn və digər kənd təsərrüfatı texnikalarının səmərəli istifadəsi sayəsində məhsul qısa müddətdə və itkisiz yığılmışdır.

Neftçalada kənd təsərrüfatının inkişafına dövlət tərəfindən göstərilən diqqət və dəstək fermerlərin fəaliyyətinə müsbət təsir göstərir. Müasir texnikaların tətbiqi, subsidiya mexanizmləri və aqrar sahədə həyata keçirilən islahatlar məhsul istehsalının artmasına, kənd əhalisinin məşğulluğunun təmin olunmasına və fermerlərin gəlirlərinin yüksəlməsinə şərait yaradır.

Bu ayın ortalarına olan məlumata görə, Neftçala rayonu ölkədə taxıl biçinini tam başa çatdıran rayonlar sırasındadır. Taxıl əkinlərinin əsas hissəsi rayonun Aşağı Qaramanlı, Xol Qarabucaq, Xəzərkənd, Xol Qaraqaşlı, Sarıqamış, Tatarməhlə inzibati ərazi dairələri üzrə əkilmişdir.

Taxıl sahələri üzrə statistik məlumatların təhlili göstərir ki, məhsul istehsalı və məhsuldarlıq əvvəlki illərlə müqayisədə artmışdır. Statistik məlumatların operativ toplanması və təhlili kənd təsərrüfatı sahəsində mövcud vəziyyətin müəyyənləşdirilməsinə imkan yaradır. Beləliklə, rayonun təsərrüfatlarında 33 min 657 hektar taxıl sahəsindən 108 min 39,6 ton taxıl biçilmiş, orta məhsuldarlıq 32,1 sentner olmuşdur ki, bu da keçən illə müqayisədə 6,4 sentner və ya 24,9 faiz çoxdur.

Rayon üzrə 28 min 557 hektar arpa sahəsindən 89 min 117,7 ton, 5 min 100 hektar buğda sahəsindən 18 min 921,9 ton məhsul toplanmışdır. Arpa bitkisinin məhsuldarlığı 31,2 sentner (keçən illə müqayisədə 7,2 sentner və ya 30 faiz çox), buğda bitkisinin məhsuldarlığı 37,1 sentner (keçən illə müqayisədə 4,2 sentner və ya 12,8 faiz çox) olmuşdur.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Qazaxda biçin başa çatmaq üzrədir

**Ölkəmizdə əhalinin etibarlı ərzaq təminatı dövlətin aqrar siyasətinin başlıca istiqamətidir. Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq isə bu sahədə mühüm yer tutur.**

Taxıl həm əhalinin çörək və çörək məmulatlarına, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır. Məhz bu səbəbdən taxılçılığın inkişafı daim dövlətin diqqət mərkəzində saxlanılır.

Dövlət başçısının taxılçılığın inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələr son illər Qazax rayonunda da uğurla icra olunur. Dövlət tərəfindən verilən dəstəkdən bəhrələnən fermerlər taxıl istehsalını artırmaq üçün bütün imkanlardan səmərəli istifadə etməyə çalışırlar.

Bu ilin məhsulu üçün rayon üzrə payızlıq və yazlıq olmaqla 11732,8 hektarda taxıl əkilmişdir ki, onun 6950 hektarı arpa, 4782,8 hektarı buğdadır. Yetişdirilmiş məhsulun vaxtında yığılması üçün bütün qüvvələr səfərbərliyə alınmış, nəticədə uğurlu biçin aparılmışdır.

Rayonda artıq taxıl biçini yekunlaşmaq üzrədir. Aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsi nəticəsində zəmilərdən son məlumata görə, 4782,8 hektar buğda sahəsinin 3760 hektarında biçin aparılmış, sahələrdən 13235,2 ton məhsul yığılmışdır. Orta məhsuldarlıq 35,2 sentnerdir. 6950 hektar arpa sahəsinin 6798,5 hektarından isə 21891,2 ton məhsul toplanmışdır. Orta məhsuldarlıq 32,2 sentner olmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Naftalanın sağlamlıq mərkəzlərinin qapıları şəhid ailələrinin üzvlərinə və qazilərə daim açıqdır

**Ölkəmizdə şəhid ailələrinə və qazilərə yüksək diqqət və qayğı var. Bu sahədə fəaliyyət göstərən sağlamlıq müəssisələrindən biri də "Möcüzəli Naftalan Sağlamlıq Mərkəzi"dir.**



Müasir tibbi avadanlıqlarla təchiz edilən, peşəkar və yüksəkixtisaslı həkim kollektivi olan bu sağlamlıq mərkəzi şəhid ailələri üzvlərinin, Birinci Qarabağ və Vətən müharibələri iştirakçılarının reabilitasiyasına diqqətlə yanaşır. Burada döyüşlər zamanı yaralanmış və müxtəlif xəsarətlər almış qazilərin, digər imtiyazlı şəxslərin sağlamlıqlarının bərpası istiqamətində müasir tibbi yanaşmalar əsasında effektiv müalicə və reabilitasiya xidmətləri göstərilir.

İlin əvvəlindən indiyədək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişi ilə qəbul olunan 1400-dən artıq şəhid ailəsi üzvü və qazi hərtərəfli tibbi müayinədən keçirilmişdir. Cari ilin sonunadək bu prosesin davam etdirilməsi nəzərdə tutulur.

Hazırda mərkəzdə növbəti 200 nəfərin müalicəsinə başlanılmışdır. Müalicə proqramına masaj, müalicəvi bədən tərbiyəsi, fizioterapiya, iynəbatırma, ozonoterapiya, hidrokolonoterapiya, eləcə də müalicəvi təsiri ilə tanınan Naftalan neft vannaları daxildir.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Xocalının qədim Seyidbəyli kəndi yeni həyata qayıdır

**Dağların qoynunda yerləşən Xocalı rayonunun Seyidbəyli kəndində həyat yenidən öz axarına qayıdır. AZƏRTAC xəbər verir ki, "Böyük qayıdış" proqramı çərçivəsində doğma yurdlarına dönən sakinlər illərlə həsrətini çəkdikləri torpaqlarda təsərrüfat qurur, ata-baba ənənələrini yaşadırlar.**



Ələkbərovlar ailəsi də Böyük qayıdışın sevincini yaşayan, kənddə öz təsərrüfatını quran ilk sakinlərdəndir.

Ötən ilin sentyabrında doğma kəndinə qayıdan ailəyə Dövlət Məşğulluq Agentliyi tərəfindən 21 baş qoyun təqdim edilib. Bu dəstək ailənin heyvandarlıq fəaliyyətini yenidən bərpa etməsinə imkan yaradıb.

Ələkbərovlarla kəndin otlaq sahəsində, heyvanları otararkən həmsöhbət olduq. Əvvəllər də heyvandarlıqla məşğul olduqlarını bildirən Tahirə xanım 30 illik həsrətin bitməsindən böyük qürurla danışır: "Köçkünlük illərində Şəki və Bərdə rayonlarında məskunlaşmışdıq, həmişə qoyun saxlayırdıq. Seyidbəyli kəndinə köçdükdən sonra dövlətimiz tərəfindən bizə 21 baş qoyun verildi. İndi qoyunları kəndin otlaqlarında otarırıq. Neçə il bu torpaqların həsrətində olmuşuq. Bura gələndən sonra rahat nəfəs alırıq, buz kimi bulaqlardan su içirik. Kəklikotu, gülxətmi, dazıotu, qırxbuğum kimi çiçəkləri yığırıq. 30 il bu dağ çiçəklərini yığmağın, qoxlamağın, dəmləməyin həsrətini çəkmişdik. Şükür ki, indi qovuşmuşuq".

Axşamüstü otlaqdan kəndə qayıdan heyvanlar arxaca salınır. Təsərrüfat sahibi qeyd edir ki, kəndə gələndən sonra qoyunlardan 4-ü doğub, üstəlik, əlavə 5 baş keçi də alaraq təsərrüfatı böyüdüblər. Məqsəd heyvandarlığı daha da inkişaf etdirməkdir.

Evdə çay süfrəsi arxasında davam edən söhbət zamanı ailə illərin həsrətindən sonra doğma yurda qayıdışın yaratdığı sevinc və qürur hissini bölüşür. Ailə başçısı Rasim Ələkbərov 1992-ci ildən başlayan çətin köçkünlük illərini, çadır şəhərciklərində çəkilən əziyyətləri xatırlayır. Deyir ki, Seyidbəyliyə qayıdan ilk sakinlərdən biridir: "Şükür bu günümüzə ki, bu torpaqlarda ailəmizlə birlikdə yaşayırıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərə cansağlığı versin. Müzəffər Ali Baş Komandanımıza, dövlətimizə minnətdarıq. 30 il çox çətinliklər çəkmişik. İnşallah, bu gündən sonra xoş günlər yaşayacağıq. Qarabağımızda rahat nəfəs alırıq. Həsrətini çəkdiyimiz torpaqlarımızda yaşayırıq. Dövlətimizin başçısı evimizin açarlarını bizə şəxsən təqdim edib, qonağımız olub. Bu, bizim üçün unudulmaz bir qürurdur".

Ələkbərovlar ailəsinin ən böyük sevinci isə Seyidbəylidə dünyaya gələn ilk körpənin elə bu ocaqda doğulmasıdır. Masa arxasında oturan 3 nəvəsindən ən balacasını göstərən Rasim kişi böyük ümidlə əlavə edir: "Kəndə qayıtdıqdan sonra ilk dünyaya gələn uşaq mənim nəvəm oldu. İnşallah, kəndimiz daha da böyüyər, əhalimiz çoxalar, bu torpaqlarda uşaq səsləri heç vaxt əskik olmaz".

## Hacıqabul Sənaye Parkında avtomobil istehsalı artır

**Hacıqabul Sənaye Parkında Özbəkistan şirkətləri ilə əməkdaşlıq çərçivəsində 11 mindən çox nəqliyyat vasitəsi istehsal olunub.**

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Hacıqabul Sənaye Parkında Azərbaycan-Özbəkistan sənaye əməkdaşlığı çərçivəsində avtomobil istehsalı uğurla davam etdirilir.

Hacıqabul Sənaye Parkının rezidenti olan "Azərmaş CP" MMC tərəfindən Özbəkistanın "UzAvtoSanoat" SC ilə əməkdaşlıq çərçivəsində bu günədək ümumilikdə 10700-dən çox "Chevrolet" markalı avtomobil istehsal edilib. İstehsal olunan avtomobillər arasında "Labo", "Damas", "Malibu", "Lacetti", "Tracker", "Cobalt", "Nexia", "Spark", "Traverse", "Tahoe", "Equinox", "Onix" və "Captiva" modelləri yer alır.

Bununla yanaşı, sənaye parkında "Azərmaş Park" MMC tərəfindən Özbəkistanın "SamAvto" şirkəti ilə əməkdaşlıq çərçivəsində pikap, yük avtomobili və avtobuslar olmaqla 300-dən artıq "ISUZU" markalı nəqliyyat vasitəsi istehsal olunub.



Sənaye parkında həyata keçirilən birgə layihələr ölkədə avtomobil sənayesinin inkişafına, yerli istehsalın genişləndirilməsinə, məşğulluğun və ixrac potensialının artırılmasına töhfə verir.

*"Azərbaycan"*

## Şəmkirdə kənd təsərrüfatının inkişafına dair iş planı hazırlanır

**Şəmkir Rayon İcra Hakimiyyətində "2026-2030-cu illərdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair iş planı"nın hazırlanmasına həsr olunmuş müşavirə keçirilmişdir.**



Rayon icra hakimiyyəti aparatının məsul əməkdaşlarının, inzibati ərazi dairələri üzrə nümayəndəliklərin və bələdiyyə sədrlərinin iştirakı ilə keçirilən tədbirdə Prezident İlham Əliyevin aqrar sahənin inkişafı ilə bağlı mayın 25-də keçirdiyi müşavirədə verdiyi tapşırıqların icrası, həmçinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr ətrafında müzakirələr aparılmışdır.

Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev diqqətə çatdırmışdır ki, ölkədə aqrar sahənin davamlı inkişafı istiqamətində həyata keçirilən dövlət siyasəti kənd təsərrüfatının müasir tələblər əsasında inkişafını, ərzaq təhlükəsizliyinin daha etibarlı təminatını, istehsalın və emal sənayesinin genişləndirilməsini sürətləndirir. Bu baxımdan dövlət proqramı kənd təsərrüfatının bütün istiqamətləri üzrə yeni inkişaf mərhələsinin formalaşmasına xidmət edir.

Tədbirdə vurğulanmışdır ki, Şəmkir rayonunda hazırlanacaq 2026-2030-cu illəri əhatə edən iş planı dövlət proqramında müəyyən edilmiş prioritetlərə uyğun formalaşdırılmalı, rayonun mövcud iqtisadi potensialı, təbii iqlim şəraiti, istehsal imkanları və statistik göstəricilər əsasında konkret hədəfləri özündə əks etdirməlidir. Hər bir istiqamət üzrə görüləcək tədbirlər təsərrüfat subyektlərinin real imkanları nəzərə alınmaqla planlaşdırılmalı, istehsalın səmərəliliyinin yüksəldilməsi, emal müəssisələrinin inkişafı, innovativ texnologiyaların tətbiqi, ixrac potensialının artırılması və məşğulluğun genişləndirilməsi əsas prioritetlər kimi müəyyən edilməlidir.

Müşavirədə dövlət proqramından irəli gələn tədbirlərin vaxtında və keyfiyyətlə icrasının təmin edilməsi, aidiyyəti dövlət qurumları arasında fəaliyyətin əlaqələndirilməsi, yerli icra strukturlarının məsuliyyətinin artırılması, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və sahibkarlıq subyektləri ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanmışdır.

Eyni zamanda hazırlanacaq iş planında kənd təsərrüfatı məhsullarının istehsalı və emalının genişləndirilməsi, suvarma infrastrukturunun təkmilləşdirilməsi, torpaq ehtiyatlarından səmərəli istifadə, məhsuldarlığın artırılması, müasir aqrotexniki yanaşmaların tətbiqi, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafına dair konkret tədbirlər öz əksini tapmalıdır.

Sonda müzakirə olunan məsələlər ətrafında fikir mübadiləsi aparılmış, aidiyyəti qurumların rəhbərlərinə konkret tapşırıqlar verilmiş, iş planının hazırlanması və qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq qərar qəbul olunmuşdur.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Neftçalada sudan səmərəli istifadə məsələləri müzakirə olunub

**"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın rayon üzrə icrası ilə əlaqədar RİH başçısı yanında yaradılmış qərargahın iclası olmuşdur.**

Rayonun suvarma infrastrukturunda mövcud vəziyyətin düzgün qiymətləndirilməsi, suvarma suyundan və mövcud suvarma və təsərrüfatdaxili suvarma şəbəkələrindən səmərəli istifadənin təmin edilməsi üçün qərargahın üzvlərinin, Neftçala Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin, Sudan İstifadə Edənlər Birliklərinin rəhbərlərinin, məsul şəxslərin iştirakı ilə keçirilən iclasda çıxış edən RİH başçısının müavini Burcalı Ağayev bildirib ki, Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədəki çıxışından irəli gələn tapşırıqlar, yeni dövlət proqramının icrası ilə bağlı qarşıya qoyulan hədəflər qərargahın əsas fəaliyyət istiqamətidir. Qeyd edilib ki, rayonun suvarma potensialı aqrar sahədə böyük inkişaf imkanlarına malikdir və bu potensialdan səmərəli istifadə olunması bilavasitə qərargahın qarşısında duran əsas vəzifələrdən biridir. Su itkilərinin azaldılması, yüksək məhsuldarlığın təmin edilməsi üçün müasir suvarma sistemlərinin tətbiqi, sudan qənaətli və səmərəli istifadə, su mənbələrindən götürülən və əkin sahələrinə verilən suyun düzgün tənzimlənməsi aqrar sahədə məhsuldarlığın artmasına, kənd təsərrüfatının dayanıqlı inkişafına çoxşaxəli müsbət təsirlər göstərir.

Neftçala SMSİİ-nin rəisi Təbriz Eyyubov rayonda suvarma sistemlərinin mövcud vəziyyətindən, suvarma suyundan səmərəli istifadə ilə bağlı görülən işlərdən və müasir suvarma texnologiyalarının tətbiqinin suvarma suyuna qənaət baxımından əhəmiyyətindən danışıb. Rayonun illik su limitinə əsasən becəriləcək kənd təsərrüfatı bitkilərinin suvarılması üçün tələb olunan su sifarişinin formalaşdırılması və suyun verilməsinin bu sifarişə uyğun həyata keçirilməsinə Sudan İstifadə Edənlər Birliklərinin (SİEB) rəhbərləri tərəfindən nəzarətin gücləndirilməsi qarşıya qoyulan əsas tapşırıqlardan biri kimi diqqətə çatdırılıb.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*





# Mədəniyyət





**Sənət dünyası**

# "Ələkbər əmi"nin həyat səhnəsindəki sonuncu rolu

**Hər dəfə ekranda görünəndə ürəyimiz açılırdı, özümüzdən asılı olmadan çöhrəmizə təbəssüm qonurdu. Amma onu daha çox uşaqlar sevirdi. Söhbət hamımızın "Ələkbər əmi" kimi tanıdığı mərhum aktyor, Əməkdar artist Ələkbər Hüseynovdan gedir.**

Səhnəyə gəlişi ilə bu gün də böyük maraqla baxılan bir çox televiziya və teatr tamaşasında uğurlu, özünəməxsus rollar, necə deyərlər, obrazlar qalereyası yaradan Ələkbər Hüseynov qısa müddət ərzində ürəklərə yol tapdı, tamaşaçı sevgisi qazandı. Amma təəssüflər olsun ki, dünyasını çox tez dəyişdi. Daha da parlamağa, şöhrət qazanmağa ömür vəfa etmədi. Bir zamanlar yaratdığı obrazlarla güldürdüyü insanları ölümü ilə kədərləndirdi.

Əgər yaşasaydı, Ələkbər Hüseynovun 65 yaşı tamam olacaqdı. Amma o, 46 il yaşadı. Ömrü kimi yaradıcılığı da yarımçıq qaldı. Yaşadığı ömrün 26 ilini teatr sənətinə, balacalara həsr edən aktyor sanki həyata incəsənət dünyasına xidmət etmək üçün gəlmişdi. Aktyorun incəsənət sahəsində bacarmadığı iş yox idi. Müxtəlif musiqi alətlərində ifa etməyi bacaran Ələkbər peşəkar rəqslə də məşğul olurmuş. Yəqin ki, tamaşaçılar onun Azərbaycan Dövlət Televiziyasında uşaq verilişlərinin aparıcısı olduğunu da xatırlayırlar.

Səhnədə bir-birindən gözəl obrazlar yaratmış Ələkbər Adıgözəl oğlu Hüseynov 7 iyul 1961-ci ildə Bakıda dünyaya göz açıb. Kiçik yaşlarından aktyorluq sənətinə maraq göstərib. 1978-ci ildə orta təhsilini bitirdikdən sonra bu sevgi onu Azərbaycan Dövlət İncəsənət İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) gətirib. Ürəyi yaradıcılıq arzuları ilə dolubdaşan Ələkbər imtahanlardan uğurla keçərək arzusuna çatıb, Dram və kino aktyorluğu fakültəsinə qəbul olub, tanınmış müəllimlərdən və sənət adamlarından dərs alıb, aktyorluq sənətinin sirlərinə dərindən yiyələnib. 1982-ci ildə təhsilini uğurla başa vurandan sonra onu təyinatla Şəki Dövlət Dram Teatrına göndəriblər.

Bir neçə il burada işlədikdən sonra kifayət qədər təcrübə toplayan Ələkbər Hüseynov 1988-ci ildə A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında işə düzəlib. Bacarığına, peşəkarlığına görə etimad göstərilərək bu teatrda aktyora bir çox tamaşada rollar verilib və o, həmin rolların öhdəsindən bacarıqla gəlib. Aktyor Ələkbər Hüseynov çalışdığı teatrın səhnəsində Əbdürrəhim bəy Haqverdiyevin "Pəri-cadu" əsərində Qurban, H.X.Andersenin "Bülbül" nağılında Nağılçı və Çin imperatoru, N.Bədəlovun "Qara rəngin nağılı"nda Aydın, R.Əlizadənin "Tıq-tıq xanım"ında Dirijor, Qoca və Müğənni, A.Ostrovskinin "Qar qız"ında Lel, R.Əlizadənin "Keçəlin toyu"nda Keçəl rollarını oynayıb.

İllər hiss olunmadan ötüb keçdikcə Ələkbər Hüseynov sənət aləmində ulduz kimi parlayaraq şöhrət qazanmağa başlayıb. Bu yolda uğurla addımlayan aktyor çalışdığı teatrın rus bölməsində "Səadət quşu" və "Möcüzəli tamaşa" pyeslərini səhnəyə hazırlayıb. Gözlənildiyi kimi, pyeslər böyük maraqla baxılıb, tamaşaçı sevgisi qazanıb.

Beynəlxalq festivallarda iştirak edən Ələkbər Hüseynov bacarığı və peşəkarlığı ilə teatrımızın tarixinə uğurlu səhifələr yazıb. Aktyor "Keçəlin toyu" tamaşasındakı Keçəl rolu ilə İstanbulda, "Bülbül" tamaşası ilə İranda və Türkmənistanda keçirilən beynəlxalq festivalların laureatı olub.

Onun teatr sahəsindəki fəaliyyəti layiqincə qiymətləndirilib. Sənətdə qazandığı nailiyyətlərə görə "Humay" və "Qızıl Dərviş" mükafatları alıb. 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb. 2006-cı ildə A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru vəzifəsinə təyin olunub. 2007-ci ildə isə Polşanın "Təbəssüm ordeni" ilə mükafatlandırılıb.



Amma, sən demə, taleyi ona başqa "mükafat" hazırlayırmış. Qarşıda onu ağır xəstəliklə mübarizə gözləyirmiş. Sanki bu, onun teatr səhnəsində deyil, həyat səhnəsində oynayacağı sonuncu "rol"u olacaqmış. 2002-ci ildə Fransaya səfəri zamanı aktyorun dişi ağrıyır. Yaxından tanıdığı həkim dostu onun dişini çəkir. Bir müddətdən sonra onun səhhətində problem yaranmağa başlayır. Aparılan müayinələr zamanı məlum olur ki, aktyor dişi çəkilən zaman Hepatit C virusuna yoluxub. Aktyorda allergiya olduğu üçün müalicə ala bilmir. 2007-ci il avqustun 2-də dünyasını dəyişir.

Ələkbər Hüseynovla bir teatrda çalışan Əməkdar artist, aktyor Rəhman Rəhmanov sənət dostunu belə xatırlayır: "Ələkbər səhnə təcrübəsinə malik çox yaxşı aktyorlardan idi. Ona teatrda fəaliyyətinə dəstək verən, yol göstərən adamlardan biri də mən olmuşam. O vaxt teatrın qastrol səfərləri turuna rəhbərlik edirdim. Onu da özümlə birgə səfərlərə aparırdım. İstəyirdim ki, Kukla teatrının işinə yaxından bələd olsun. Qastrol səfərlərində də bir neçə tamaşada bir yerdə oynamışıq. Zaman keçdi. Bu sənətin uğrunda var gücü ilə çalışaraq teatrın baş rejissoru pilləsinə qədər yüksəldi. "Ələkbər əmi" kimi uşaqların sevgisini qazandı. Aramız o qədər yaxşı idi ki, Bakı ləhcəsi ilə mənə "qədeş" deyə müraciət edirdi. Bir-birimizin xətrini o qədər çox istəyirdik. Allah rəhmət eləsin".

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Tarixin izi ilə**

# "Göylərə baş çəkir Göyəzən dağı"



**Azərbaycanın qərb bölgəsində iki rayonda Göyəzən dağı var - biri Qazaxda, digəri isə Tovuzun Bala Şamlıq kəndində. Göyəzən toponimi ilə bağlı müxtəlif rəvayətlər və yozmalar da mövcuddur.**

Qazax rayonundakı Göyəzən dağı çox məşhurdur. Azərbaycanın milli tarixi irsini özündə yaşadan bu dağ haqqında maraqlı rəvayətlər söylənilir. Göyəzən dağı rayon mərkəzindən 20 km aralıda - Alpout və Abbasbəyli kəndləri ərazisində yerləşir. Mənbələrin məlumatına görə, bu nadir geoloji təbiət abidəsi vulkan püskürməsi nəticəsində yaranıb. Morfoloji xüsusiyyətinə və gözəlliyinə görə Mon-Pele tacından (Vest-hind adalarından biri olan Martunika adasında) sonra dünyada ikinci dağ sayılır. Hündürlüyü 250 metr olsa da, qərb bölgəsinin əhalisi, xüsusən də qazaxlılar bu dağa böyük istəklə, rəğbətlə yanaşırlar. Zirvəsi nisbətən düzən olub. geniş meydançanı xatırladır. Burada Orta əsrlərə aid 7 bürclü qala divarları və dördkünc bina qalıqları, həmçinin bir neçə mağara aşkar edilmişdir.

Dibində və ətəyində iri və qədim yaşayış yerinin, yeddibürclü qalanın qalıqları görünür. Gövdəsində ilkin insan yaşayışı məskəni sayılan mağara-otaqlar var. Zirvəsi nisbətən yastıdır. Deyilənə görə, qədimdə bayramlarda və düşmən təhlükəsi olanda dağın zirvəsində tonqal qalanarmış. Göyəzən istehkamının IX-XII əsrlərə aid keşikçi məntəqəsi olması ehtimal edilir.

Göyəzən dağının adı, daha doğrusu, toponimi barədə yozmalar çoxdur. Qədim türk (Azərbaycan) söz və ifadələrinə əsaslanan mütəxəssislər dağın adının Göy ozan (tayfa adı) və ya Ozan kəndi mənalarını daşıdığını söyləyirlər. Bəziləri isə "Küy əzən" kimi izah edirlər. Şairlərin, yazıçıların fikirincə isə dağın adı "göy dələn", "göyə baş vuran", "göy əzən" mənalarını verir. Göyəzən qərbdə Günən dağından ("Günən" qədim türk dilində "gün enən", "gün batan" deməkdir), şərqdə Qazaxdan, şimalda Avey dağından görünür və öz əzəməti ilə sanki bizləri səsləyir. Ölməz şairimiz Səməd Vurğun Qazaxa yolu düşəndə mütləq dağı gəzməyə gələrmiş. Ana təbiətimizin bu əsrarəngiz abidəsindən zövq alaraq "Göyəzən" dağına həsr etdiyi şeirindən dodaqaltı zümzümə edərmiş.

Göyəzən dağı ilə bağlı rəvayətlər, yozumlar da çoxdur. Maraq üçün birini diqqətinizə çatdıraq: Söyləyirlər ki, 1947-ci ilin payızında Səməd Vurğunla Mirzə İbrahimov Daş Salahlı kəndində ova gedirlər. Dan ağarmamışdan yola düşən ovçular Avey dağının sıldırımlığına çatanda artıq üfüqlər açılır. Kürdən başlayıb başıqarlı dağların ətəklərinə qədər uzanıb gedən çöllərə, tarlalara heyranlıqla tamaşa edirlər. Təbiətin əsrarəngiz gözəlliklərindən və göylərə baş çəkən Göyəzəndən doymayan Səməd Vurğun:

- Ayə, ora bax, ora bax, Göyəzən dağı! - deyə fəxrlə, sevinclə qələm dostuna dağı göstərir.

Mirzə İbrahimov deyir:

- Ay Səməd, şeirində "Göyəzən dağı" oxuyanda elə bilmişdim ki, Şahdağdan, Elbrusdan ucadır. Bu ki, təpə imiş...

Səməd Vurğun dərhal hazırcavablıqla deyir:

- Ayə, mənim böyüklüyüm ondadır ki, təpəni dağ kimi tərənnüm edirəm... Sən dağı təpə eləyənlərdən qorx...

Qazax qədim memarlıq və incəsənət abidələri ilə zəngindir. Rayonda qeydiyyata alınmış dünya, ölkə və yerli əhəmiyyətli 112 tarixi abidə mövcuddur. Bunlardan 56-sı arxeoloji, 45-i memarlıq, 6-sı monumental tarixi, 5-i dekorativ-tətbiqi incəsənət abidəsidir. Bu yerləri ziyarət edən qonaqlar, xüsusən turistlər Göyəzənin maraqlı tarixi ilə tanışlıqdan məmnun olurlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Qusar Dövlət Ləzgi Dram Teatrı tətilə çıxdı

**Qusar Dövlət Ləzgi Dram Teatrının 34-cü teatr mövsümünün bağlanış mərasimi keçirilib. Mərasim yüksək ovqat və tamaşaçıların böyük marağı ilə yadda qalıb.**



Tədbirdə rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov, Mədəniyyət Nazirliyinin sektor müdiri Böyükxanım Talıbova, idarə və müəssisə rəhbərləri, ziyalılar, mədəniyyət xadimləri, rayon sakinləri və qonaqlar iştirak ediblər.

Əvvəlcə mövsüm ərzində səhnələşdirilən tamaşalardan fotolar, dekor və geyim nümunələrinin nümayiş edildiyi sərgiyə baxış olub. Sonra tədbir rəngarəng konsert proqramı ilə davam edib. Səhnədə müxtəlif musiqilər səsləndirilib, milli rəqs nümunələri təqdim olunub.

Gecənin ən yaddaqalan anı isə görkəmli şair və dramaturq Vaqif Səmədoğlunun "Bəxt üzüyü" əsərinin teatrın peşəkar aktyor heyəti tərəfindən ifası olub. Tamaşa dərin məzmunu və aktyorların ustalıqla yaratdıqları obrazlarla tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Sonda şəhid Oleq Cəfərovun anası Tinatin Cəfərova söz alaraq teatrın rəhbərliyi başda olmaqla yaradıcı heyətinə minnətdarlığını bildirib. Vurğulayıb ki, teatr kollektivi hər zaman olduğu kimi, bu mövsümdə də Vətən yolunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yaşadıb, şəhid ailələri və qazilərə mənəvi dəstək olub.

Teatr mövsümünün bağlanış mərasimi gurultulu alqışlar və bədii kompozisiya ilə yekunlaşıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

**Milli-mədəni irsimiz**

# Şeir bayramı - Vaqif Poeziya Günləri

**Azərbaycanın mədəniyyət paytaxtı Şuşada 1982-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə təməli qoyulan Vaqif Poeziya Günləri o vaxtdan ənənəyə çevrilib.**



Həmin il Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı keçirilib. Ümummilli Liderin tapşırığı ilə Vaqif Poeziya Günlərinin təşkil olunmasına qərar verilib. Bu poeziya bayramı 1991-ci ilədək hər il düzənlənib. Tədbir ənənəvi olaraq Molla Pənah Vaqifin yurdu Qazaxdan başlayıb, qədim Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşıb.

Təəssüf ki, 1992-ci ildən Şərqi Zəngəzur və Qarabağın digər əraziləri kimi, Şuşa şəhəri də 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qaldı. 2020-ci ilin payızında isə müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Şuşa da azadlığa qovuşdu.

Müharibə başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyev xalqımızı Qarabağda və Şərqi Zəngəzurda tezliklə yenidənqurma, tikinti-bərpa işlərinin həyata keçiriləcəyi ilə müjdələdi. Dövlət başçısının o zaman Şuşada işğal səbəbindən yarımçıq qalmış tədbirlərin bərpa olunacağını bildirməsi isə hər bir azərbaycanlının ürəyindən xəbər verdi. Uzun illik ayrılıqdan sonra 2021-ci ildə Qarabağın tacı Şuşa yenidən Vaqif Poeziya Günlərinə evsahibliyi etdi. Beləliklə, Vaqif Poeziya Günləri doğma yurduna - Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya döndü.

Bu günlər Vaqif Poeziya Günləri poeziyasevərləri növbəti dəfə bir araya gətirdi. Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən builki Vaqif Poeziya Günləri "Sözün hekayəsi" şüarı ilə düzənlənmişdi. Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Molla Pənah Vaqif irsinin yaşadılması, milli ədəbi dəyərlərin qorunması, eləcə də müasir ədəbi proseslərin inkişafına töhfə vermək məqsədi daşıyan poeziya bayramı şairin doğulduğu Qazaxdan başlamış, Şuşada davam etmişdir.

Əvvəlcə tədbir iştirakçıları Qazaxın mərkəzindəki Fəxri Qazaxlılar parkında Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin heykəli önünə gül dəstələri düzüb, görkəmli şairlərimizin əziz xatirəsini ehtiramla yad ediblər. Qazax Ədəbiyyat Muzeyinin akt zalında davam edən tədbirdə çıxış edənlər bu poeziya bayramının keçirilməsi tarixindən, ənənəyə çevrilməsindən, həmçinin Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi Molla Pənah Vaqifin zəngin yaradıcılığından söz açıblar.

Sonra Qarabağın döyünən ürəyi, Qafqazın incisi Şuşada davam edən Vaqif Poeziya Günləri çərçivəsində Şuşada "Sözün aşığı, sazın aşiqi" adlı musiqili-ədəbi tədbir təşkil olunub. Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin vəfatının 100-cü ildönümünə həsr olunan tədbirdə Aşıq Ələsgər nəslinin nümayəndələri çıxış ediblər. Sənətkarın kötükcəsi Aysel Zahidqızı belə bir zəngin irsin daşıyıcısı olmağın üzərinə böyük məsuliyyət qoyduğunu, ustad sənətkarın irsini layiqincə təqdim etməyə çalışdığını bildirib. Aşıq Ələsgərin nəticəsi Zahid Göyçəli isə çıxışında Molla Pənah Vaqifin həyat və yaradıcılığının iki mühüm dövrünü - Qazax və Qarabağ mərhələlərini vurğulayıb, eyni zamanda Aşıq Ələsgərin doğulduğu Göyçə mahalının Ağkilsə kəndinə etdiyi ziyarətlərdən danışıb. O, ustad aşığın zəngin irsinin gələcək nəsillərə ötürülməsinin əhəmiyyətini qeyd edib.

Tədbirin bədii hissəsində aşıqların ifasında Dədə Ələsgərin yaradıcılığından qaynaqlanan, saz-söz sənətinin incilərini təcəssüm etdirən musiqi nümunələri səsləndirilib.

Builki Vaqif Poeziya Günləri çərçivəsində daha bir tədbir Şuşadakı Mehmandarovların malikanə kompleksində böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunan elmi konfrans olub. Tədbirdə çıxış edən yazıçı-dramaturq, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi "Sözün Xaqanı - Xəlqaniyəm, Xəlqani" mövzusunda təşkil edilən elmi konfrans barədə məlumat verib. Qeyd olunub ki, tədbir Azərbaycan Milli Elmlər Akademiyası və AYB-nin birgə təşkilatçılığı ilə baş tutub. Vurğulanıb ki, Qarabağ işğaldan azad olunduqdan sonra Vaqif Poeziya Günləri yenidən öz doğma məkanına qayıdıb və artıq bu ənənə daha da zəngin məzmunda davam etdirilir.

Konfransda AMEA-nın əməkdaşları Xaqani Şirvaninin zəngin ədəbi irsi, Şərq fəlsəfəsinə və poeziyasına bəxş etdiyi dəyərli nümunələr barədə ətraflı məruzələrlə çıxış ediblər.

Vaqif Poeziya Günləri çərçivəsində Ağdam Muğam Mərkəzində TÜRKSOY-un tərəfdaşlığı ilə "Sözün sabahı - türk dünyasının gənc şairlər festivalı" keçirilib. Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Fərid Cəfərov vurğulayıb ki, Vaqif Poeziya Günləri Azərbaycan mədəniyyətinin zəngin tarixinə malik mühüm ədəbi-mədəni hadisələrdən biridir: "İşğaldan azad olunan ərazilərdə hazırda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri milli mədəniyyətimizin dirçəlişini bütün dünyaya aydın şəkildə nümayiş etdirir. Beş il əvvəl doğma Şuşada yenidən bərpa olunan bu poeziya bayramı ildən-ilə daha da genişlənir və əhatə dairəsini artırır".

TÜRKSOY-un baş katibi Sultan Raev ortaq mədəniyyətin türk xalqlarını eyni dəyərlər ətrafında sıx şəkildə bir araya gətirdiyini vurğulayıb. Qeyd edib ki, xalqları bir-birinə bağlayan ən böyük qüvvə mədəniyyət, türk dünyasını birləşdirən ən güclü körpülərdən biri isə ədəbiyyatdır: "Bu cür tədbirlər türk dünyasının ortaq tarixinə, mədəniyyətinə və gələcəyinə olan inamı daha da gücləndirir. Festivalın hər il Türk dünyasının fərqli şəhərlərində təşkil olunaraq gözəl ənənəyə çevrilməsini arzu edirik".

Vaqif Poeziya Günləri çərçivəsində daha bir tədbir "Sözün hekayəsi" şüarı ilə reallaşıb. Tədbirdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, mədəniyyət naziri Adil Kərimli, dövlət və hökumət qurumlarının nümayəndələri, elm və mədəniyyət xadimləri iştirak ediblər.

Tədbir çərçivəsində TÜRKSOY-un tərəfdaşlığı ilə II Türk Dünyası Gənc Şairlər Festivalının mükafatlandırma mərasimi təşkil olunub. Bədii hissədə Xalq şairi Səməd Vurğunun 120 illiyinə həsr olunan "Sözün ovçusu - Könlüm keçir Qarabağdan" adlı səhnə kompozisiyası nümayiş edilib. Tədbir konsert proqramı ilə davam edib.

Vaqif Poeziya Günləri çərçivəsində "Şuşa gecələri - interaktiv poeziya saatı" da gerçəkləşib.

Şuşada Vaqif Poeziya Günlərində iştirak edən Azərbaycan Dövlət Akademik Musiqili Teatrının yaradıcı heyəti görkəmli dramaturq Əbdürrəhim bəy Haqverdiyevin "Mütrüb dəftəri", "Diş ağrısı", "Qiraət", "Bomba" hekayələri və "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərlərinin motivləri əsasında hazırlanan "Sözün gülüşü - Şuşa hekayələri" adlı interaktiv meydan tamaşası ilə səhnəyə çıxıb.

Builki Vaqif Poeziya Günləri çərçivəsində Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "Azercell Telekom" MMC və "Aztelekom" MMC-nin tərəfdaşlığı ilə Şuşanın mərkəzində "Kitab dayanacağı" - ilk açıq hava kitabxanası istifadəyə verilib. Layihənin məqsədi mədəniyyət paytaxtımız Şuşanın tarixi və ədəbi mühitinin təbliği, eləcə də şəhər sakinləri və qonaqları üçün mütaliə imkanlarının genişləndirilməsi idi.

Poeziya bayramında nümayiş olunan "Sözün həsrəti - Heydərbabaya salam" adlı bədii-musiqili kompozisiya görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 120 illik yubileyinə həsr edilib. Kompozisiya Xan qızı Natəvanın evinin qarşısında təşkil olunub.

Vaqif Poeziya Günləri Şuşada "Sözün Zəfəri - Zəfərin sədası" adlı konsert proqramı ilə başa çatıb. Xurşidbanu Natəvanın evinin qarşısında düzənlənən konsertdə Rauf Hacıyev, Cahangir Cahangirov, Vasif Adıgözəlov, Elza İbrahimova, Ələkbər Tağıyev, Oqtay Kazımi və başqa bəstəkarların əsərləri səsləndirilib. Proqramda həmçinin xalq mahnıları ifa olunub, Azərbaycan Dövlət Rəqs Ansamblı tərəfindən milli rəqslərimiz təqdim edilib.

Vaqif Poeziya Günləri bir daha Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirdi. Bu ənənəvi poeziya bayramının yenidən doğma Şuşada keçirilməsi isə xalqımızın tarixi qələbəsinin və milli iradəsinin parlaq ifadələrindən birinə çevrildi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● EHTİRAM

## Həm kövrəldim, həm də qürur hissi keçirdim



**Oğlum Məftun Əhmədzadə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Ordu həyatını çox sevirdi. İntizamı, məsuliyyəti daim komandirləri tərəfindən yüksək qiymətləndirilirdi.**

Məftun sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan tətəfindən dövlət sərhədində törədilmiş təxribatların qarşısının alınmasında iştirak etmiş və döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

İndi gözlərimiz daim yoldadır. Tez-tez evimizə onu unutmayan, şəhid ailələrinə qayğı və diqqətlə yanaşan qonaqlar gəlir. Belə görüşlər qəlbimizi isidir, Məftunun ömrünün davam etdiyini göstərir.

Bu yaxınlarda rayon rəhbərliyi bizi ziyarət etdi. 55 illik yubileyim münasibətilə təbriklərini eşidəndə həm kövrəldim, həm də qürur hissi keçirdim. Bu gün ölkəmiz, torpaqlarımız tam azaddırsa, bu müqəddəs işdə övladımın da payı var.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Şəhid ailələrinə dəstək olan hər kəsə təşəkkür edirəm!

*Pərvanə ƏHMƏDOVA,*
*şəhid anası*

● RAZILIQ

## Qazaxın sərhəd kəndi olan Cəfərlinin sosial problemləri həll edilir

**Kəndimiz Ermənistanla sərhəddə yerləşir. İstər Birinci Qarabağ və istərsə də 44 günlük Vətən müharibəsində sakinlərimiz əsl nümunə göstəriblər. İndi kənd sakinlərinin mərdliyi, qorxmazlığı dillər əzbəridir.**

Qəhrəman kəndimiz Birinci Qarabağ müharibəsində 5, 44 günlük Vətən müharibəsində isə 1 şəhid verib. 44 günlük müharibədə 36 kənd sakinimiz əsl qəhrəmanlıq nümayiş etdirib.

Müharibədən keçən dövr ərzində digər sərhəd kəndləri kimi bizim Cəfərlidə də əhalinin məşğulluğunun təmin olunması istiqamətində bir sıra işlər görülüb. 25 nəfər özünüməşğulluq proqramına cəlb edilib. Onlardan 1-i şəhid ailəsi, 6-sı Vətən müharibəsi əlili və iştirakçısı,17 nəfəri isə aztəminatlı ailələrin üzvləridir.



Kəndimizdə son vaxtlar geniş abadlıq işləri görülür, vətəndaşlar tərəfindən qaldırılan bütün problemlər həll edilir. Kənd yolunun yenidən asfaltlanması, uşaq bağçasının təmir olunması ilə bağlı sakinlərin müraciətləri müsbət həll olunub. Bundan başqa, kənddə elektrik enerjisi və mavi yanacaqla bağlı problemlər öz həllini tapıb. SİP kabelləşmə işi də tam başa çatdırılıb. Həmçinin sakinlərin internet təminatı qaydaya salınıb.

Hörmətli redaksiya! Görülən bütün bu işləri biz dövlətimizin kənd camaatına göstərdiyi diqqət və qayğısının nəticəsi kimi qəbul edirik.

*Seyfəddin VƏLİYEV,*
*Qazax rayonunun*
*Cəfərli kənd sakini*

**AZƏRBAYCAN**-a
cavab verirlər

## Əraziyə baxış keçirilmiş, Nazirlər Kabinetinə məktub göndərilmişdir

Hörmətli redaksiya.

Qəzetinizin 10.04.2026-cı il tarixli sayında dərc edilmiş "Torpaq sürüşməsi üzündən kəndimiz boşalır" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli istiqamətində Tovuz Rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərən Fövqəladə Hallar Komissiyası tərəfindən əraziyə baxış keçirilmişdir.

Dondar Quşçu kəndinin mərkəzindən 1,5 kilometr məsafədə yerləşən "Arxın üstü" adlanan ərazidə torpaq qatında müşahidə olunan çatlar nəticəsində həmin ərazidə yerləşən 12 fərdi yaşayış evinin 6-da çatlar, zədələnmələr, çökmələr və torpaq qatında aralanmalar müəyyən olunmuşdur. Dəymiş zərərin həcminin müəyyən edilməsi və aradan qaldırılması məqsədilə RİH tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məktub ünvanlanmışdır.

*Təranə BAYRAMOVA,*
*Tovuz RİH başçısının müavini*

● ARZU

## Kəndə dönmək vaxtıdır

**Uzun illər kəndimizdəki orta məktəbdə müəllim, uşaq bağçasının müdiri işləmişəm. Sonralar şəhərə köçdüm, Sumqayıt Dövlət Universitetində çalışdım. İndi təqaüdə çıxıb yenidən doğma kəndimizə qayıtmışam.**

Bu dəfə kəndimizdə gördüyüm mənzərə gənclik illərimdə olduğu kimi deyil. Müasir infrastruktur yaradılıb. Əvvəlki illərdən fərqli olaraq daimi işığımız, qazımız və suyumuz var, yollarımız rahatdır. Hətta bütün evlərə internet xətti çəkilib. Bir sözlə, məişətimiz şəhər sakinlərinin həyatından geri qalmır.

Bu yaxınlarda rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədovun kəndimizdə keçirdiyi səyyar qəbul-görüşdən sonra sakinlərin müraciəti ilə köhnə elektrik transformatoru yenisi ilə əvəz olundu. Yəni bu problemimiz də həll edildi.

İndi bircə istəyimiz var. Arzu edirik ki, kəndimizi vaxtilə tərk etmiş insanlar, xüsusən gənclər yenidən doğma ocaqlarına qayıtsınlar, ocaqlarını yandırsınlar.

*Şeyda QULİYEVA,*
*Tərtər rayonunun Evoğlu kənd sakini*



● FOTO

## Müasir parklar yay tətili günlərində uşaqların sevimli əyləncə məkanıdır









**Yay tətilini uşaqlar səbirsizliklə gözləyirlər. Bu müddətdə parklar onların sevinc dolu anlar yaşadığı və asudə vaxtlarını səmərəli keçirdikləri məkanlara çevrilir.**

Müasir və abad parklar uşaqlara təhlükəsiz şəraitdə oynamaq, idmanla məşğul olmaq, yeni dostlar qazanmaq və təbiətlə ünsiyyətdə olmaq imkanı yaradır. Burada keçirilən hər saat onların fiziki inkişafına, yaradıcı düşüncəsinin formalaşmasına və sosial bacarıqlarının güclənməsinə töhfə verir.

*Fotolar İlham BABAYEVindir*
*"Azərbaycan"*

● SAĞLAMLIQ

## Müalicə də var, istirahət də

**Sağlamlığımda yaranmış problemlərlə bağlı davamlı olaraq Bilgəh Kardioloji Sanatoriyasına müalicəyə gedirəm və sağlamlığımın bərpasında yaxşılığa doğru xeyli dəyişikliklər hiss edirəm. Burada çalışan həkimlər, tibb bacıları bizi diqqətlə dinləyir və qayğımıza qalırlar, lazımi məsləhətlər verirlər.**



Müalicələr zamanı hiss etdim ki, xəstəliyə yalnız dərmanlar deyil, həm də burada çalışan həkimlərin, tibb bacılarının diqqət və qayğısı da müsbət təsir göstərir. Gördüyümüz xoş münasibət sağlamlığımızın bərpasını xeyli sürətləndirir.

Bu günlər yenə sanatoriyaya müalicəyə getmişdim. Elə ilk gündən burada aparılmış təmir-bərpa və abadlıq işləri, müalicə otaqlarında yaradılmış şərait, quraşdırılmış müasir avadanlıqlar diqqətimizi cəlb etdi. Artıq tətbiq edilən yeni sistem nəticəsində prosedur növbələri də nizamlanır ki, bu da ilk növbədə vaxt itkisinin qarşısını alır.

Tibb ocağında müalicə olunanların asudə vaxtının təşkili də rəhbərliyin diqqət mərkəzindədir. Mütəmadi olaraq sanatoriyada konsertlər təşkil olunur. Açıq havada quraşdırılmış idman qurğuları, tennis və futbol meydançaları isə günün bütün vaxtlarında xəstələrin ixtiyarındadır.

Bir sözlə, sanatoriyada müalicə almaq, istirahət etmək daha rahatdır. Bütün bunlara görə Bilgəh Kardioloji Sanatoriyasının rəhbərliyinə minnətdarlığımı bildirirəm.

*Mehriban İBRAHİMQIZI,*
*Bakı şəhəri*

● İDMAN

## Azərbaycan paraüzgüçülüyünün parlayan ulduzu

**Azərbaycan idmanının son illər əldə etdiyi uğurlar sırasında paraidmançıların nailiyyətləri xüsusi yer tutur. Dövlətimizin idmanın inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində paralimpiya hərəkatı yeni inkişaf mərhələsinə qədəm qoyub.**

Berlində keçirilən paraüzgüçülük üzrə dünya seriyasının növbəti mərhələsi Azərbaycan idmançıları üçün uğurlu sınaq olub. Yarışda ölkəmizi təmsil edən yeniyetmə paralimpiyaçı Əli Vəliyev əzmkarlığı, peşəkarlığı və yüksək hazırlığı ilə fərqlənərək beynəlxalq arenada növbəti uğur səhifəsini yazıb. Gənc idmançı S10 kateqoriyasında 100 metr məsafəyə "butterfly" (kəpənək) üsulu ilə üzmə yarışında 1 dəqiqə 03,42 saniyə nəticə göstərərək gənclər arasında bürünc medala layiq görülüb. Bununla kifayətlənməyən Əli 400 metr məsafəyə sərbəst üzmə növündə 4 dəqiqə 37,18 saniyə




nəticə ilə finişə çataraq gənclər arasında gümüş medal qazanıb.

Sevindirici haldır ki, Berlin hovuzunda nümayiş etdirilən uğurlar yalnız medallarla məhdudlaşmayıb. Əli yarış ərzində üç fərqli üzmə növündə şəxsi rekordlarını yeniləyərək idman inkişafında yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirib. Bu nəticələr bir daha sübut edir ki, Azərbaycan paraüzgüçülüyü beynəlxalq arenada sözünü deməyə qadirdir. Gənc idmançıların əldə etdikləri nailiyyətlər gələcəkdə dünya və paralimpiya oyunlarında daha böyük uğurların qazanılacağına əsaslı ümidlər yaradır.

*Faiq ƏSGƏROV,*
*üzgüçülük idman növü üzrə paraüzgüçülük yığma komandasının məşqçisi, Sumqayıt yığma komandasının baş məşqçisi*

● PROBLEM

## 3 ildir küçəmizdə kanalizasiya sistemi normal işləmir

**Gəncənin Məhsəti qəsəbəsindəki Müşfiq Adıgözəlov küçəsində sakinlər ciddi sınaqla üz-üzə qalıblar. Dediklərinə görə, bütün qurumlara məlumat versələr də, heç bir tədbir görülmür.**

Küçədə kanalizasiya xətti işləmir. Üstəlik, yağış yağanda digər küçələrin yağış suları da bu küçəyə axır, evlərin zirzəmisinə dolur. Özü də bu problem 3 ildən çoxdur ki, davam edir.

Sakinlər deyirlər ki, bunun səbəbi kanalizasiya xəttinin düzgün çəkilməməsidir. Məsələ ilə əlaqədar Gəncə Şəhər İcra Hakimiyyəti isə bildirir ki, qəsəbədə intensiv yağışlar zamanı yağış sularının kənarlaşdırılması məqsədilə 400 metr uzunluğunda yeni drenaj xətti çəkilmiş, 3 yağış barmaqlığı inşa edilmişdir. Lakin görülən işlər kifayət etmir. Mövcud problem "Açıq kommunal infrastruktur proqramı - 2" layihəsinin icrası başa çatdırıldıqdan sonra tam həllini tapacaq.



Hörmətli redaksiya! İndi ümid qalıb həmin layihənin icrasının başa çatmasına. Həmin günün nə vaxt yetişəcəyi isə məlum deyil.

*Natiq CƏFƏROV,*
*Gəncə şəhər Məhsəti qəsəbəsinin sakini*

# Ölkələrin tarif siyasəti qlobal inflyasiyanı sürətləndirirmi?

**Son dövrlərdə beynəlxalq iqtisadiyyatda ən çox müzakirə olunan məsələlərdən biri dövlətlərin tətbiq etdiyi tarif siyasətidir. Bir çox ölkə yerli istehsalçıları xarici rəqabətdən qorumaq məqsədilə idxal rüsumlarını artırır. Dövlətlər öz milli sənayesini dəstəkləmək üçün xaricdən gətirilən mallara əlavə vergilər qoyurlar. Lakin bu addım bir tərəfdən yerli sənayeni qorusa da, digər tərəfdən qiymət artımına kəskin təkan verir.**



İdxal tarifləri yüksəldikdə xaricdən mal gətirən şirkətlərin xərcləri dərhal artır. Şirkətlər bu əlavə xərcləri öz mənfəətlərindən çıxmaq istəmirlər. Onlar qiyməti qaldıraraq bu yükü istehlakçıların üzərinə qoyurlar. Nəticədə bazarda xarici mallar bahalaşır. Xarici malların bahalaşması yerli istehsalçılara da birbaşa təsir edir. Rəqabətin azalması yerli şirkətlərə öz qiymətlərini qaldırmaq imkanı yaradır. Bununla da, ölkə daxilində ümumi qiymət səviyyəsi yüksəlir və inflyasiya təzyiqi artır.

Müasir dünyada malların böyük hissəsi çoxşaxəli təminat yolu ilə istehsal olunur. Məsələn, bir avtomobilin ehtiyat hissələri müxtəlif ölkələrdən gətirilir. Xammal və aralıq mallara tarif qoyulduqda son məhsulun maya dəyəri zəncirvari şəkildə kəskin artır. Bir ölkə rüsumları qaldıranda digər tərəf də analoji cavab tədbirləri görür. Bu zəncirvari reaksiya qlobal ticarət dövriyyəsini zəiflədir və xərcləri bütün tərəflər üçün yüksəldir. Faktlar göstərir ki, ticarət məhdudiyyətlərinin artması qlobal tədarük xətlərini bahalaşdırır.

Beynəlxalq təşkilatların hesablamalarına görə, ticarət baryerlərinin yüksəlməsi son illərdə bir çox ölkədə istehlak qiymətləri indeksinə təsir göstərib. Tarif siyasəti, sadəcə, birbaşa idxal olunan malları bahalaşdırmır. O, həm də daşıma, logistika və sığorta xərclərini artırır. Bu vəziyyət ərzaqdan tutmuş elektronikaya qədər hər bir sahədə özünü büruzə verir.

Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun hesabatlarına əsasən, qoruyucu siyasətin genişlənməsi qlobal ümumi daxili məhsulun (ÜDM) artımını ləngidir. Eyni zamanda, bazar iştirakçılarının inflyasiya gözləntilərini yüksək səviyyədə saxlayır.

Ümumiyyətlə, iqtisadi nəzəriyyə tariflərin müvəqqəti inflyasiya yaratdığını iddia edir. Lakin real iqtisadiyyatda proseslər daha mürəkkəb cərəyan edir. İnkişaf etmiş iqtisadiyyatlar qrupu üzrə 40 illik (1980-2022) məlumatların təhlili göstərir ki, tarif dərəcələrinin artmasından dərhal sonra işsizlik artmağa, inflyasiya isə düşməyə meyilli olur. Bu ilkin düşüş kəskin dəyişikliyin bariz göstəricisidir. Tariflər tətbiq olunduqda qeyri-müəyyənlik mühiti yaranır. İstehlakçılar xərcləmələri azaldır, investorlar isə "gözlə və gör" mövqeyi tuturlar. Nəticədə iqtisadi fəallıq zəifləyir və ilk mərhələdə inflyasiya aşağı düşür. Zaman keçdikcə iqtisadiyyat bərpa olunur, lakin inflyasiya tariflərin dəyişmədiyi ssenari ilə müqayisədə daha yüksək səviyyəyə qalxır.

Tariflərin artırılması iqtisadi fəallığı zəiflədir və yanacağa olan tələbi azaldır. Tələb düşdüyü üçün enerji kəskin ucuzlaşır və bu ucuzlaşma ilk ildə ümumi inflyasiyanı aşağı salır. Lakin növbəti illərdə enerji qiymətləri normallaşdıqca mal və xidmətlərin bahalaşması önə keçir və inflyasiyanı artırır. Bundan başqa, gömrük rüsumları artırılanda ilk vaxtlar alıcılar daha az mal aldığı üçün qiymətlər dərhal dəyişmir. Lakin ikinci ildə bu xərclər artıq qiymətlərə tam yansıyır. Belə ki, 10 faizlik tarif artımı malları orta hesabla 1,2 faiz bahalaşdırır və bu yüksək qiymətlər üçüncü ilə qədər özünü qoruyub saxlayır. Xidmət sahələrinə (məsələn, klinikalara, bərbərxanalara) birbaşa vergi qoyulmasa da, istifadə etdikləri avadanlıq və mallar bahalaşdığı üçün onların da xərcləri artır. Bu təsir özünü dərhal göstərmir, bahalaşma növbəti ildə maksimum həddə çatır və əvvəlki dövrlə müqayisədə yüksək olaraq qalır.

ABŞ ötən ilin əvvəlində ticarət tərəfdaşlarına çoxşaxəli idxal tariflərinin tətbiq olunacağını elan etdi. Yale Universitetinin "Budget Lab" mərkəzinin məlumatına görə, ABŞ-də orta tarif dərəcəsi 16,8 faizə yüksəldi. Bu göstərici 2000-2024-cü illər arasındakı 2 faizdən az olan orta göstərici ilə müqayisədə kəskin sıçrayışdır. ABŞ-də ümumi xərclərin böyük hissəsi, yəni 60 faizi xidmət sektorunun payına düşür. Məhz buna görə də tariflərin yaratdığı bahalaşma xidmət sahəsinə gec çatsa da, orada daha uzun müddət qalır və ölkədəki ümumi inflyasiyanı uzunmüddətli dövrdə yüksək saxlamaq riski yaradır.

Ekonometrik qiymətləndirmələr Avstraliya, Belçika, Danimarka, Finlandiya, Fransa, Almaniya, İtaliya, Yaponiya, Niderland, Norveç, Portuqaliya, İspaniya, İsveç, İsveçrə, Böyük Britaniya və ABŞ daxil olmaqla 16 inkişaf etmiş ölkənin məlumatlarına dayanır. Təhlil edilən bu 16 ölkənin 1980-2022-ci illəri əhatə edən 40 illik statistikası məsələnin ciddiliyini aydın göstərir. Məlum olur ki, stabil dövrlərdə gömrük rüsumlarındakı artım adətən cüzi, 1-2 faiz civarında olub. Lakin görünür ki, bu kiçik dəyişikliklər belə həmin ölkələrin iqtisadiyyatında da eyni zəncirvari effekti yaradıb. Tariflərin hər 1 faizlik artımı orta və uzunmüddətli dövrdə ümumi inflyasiyada 0,1 faiz səviyyəsində qalıcı yüksəlişlə nəticələnib. Bununla da, statistik modellərdə alternativ təsir amilləri, işsizlik, real məzənnə, faiz dərəcələri, səhm gəlirliliyi, ticarət balansı və məhsuldarlıq dəyişiklikləri nəzərə alınsa belə nəticə dəyişmir.

Tarifləri artırmaq ilk vaxtlar tələbi azaldıb inflyasiyanı aşağı salsa da, sonradan malların və xidmətlərin qiymətini qaldıraraq inflyasiyanı artırır. Süni ticarət maneələri malların gətirilməsini bahalaşdırır və insanların cibinə zərər vurur. Ona görə də inflyasiya ilə mübarizədə ən yaxşı yol ticarətə mane olmamaq və balanslı iqtisadi diplomatiyadır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Günəşdən gələn təhlükə

## Günvurma zamanı nə etmək lazımdır?

**Son illər iqlim dəyişiklikləri fonunda temperatur rekordlarının tez-tez yenilənməsi yay mövsümündə günvurma hallarının sayını da artırıb. Bəzi insanlar günvurma ilə yorğunluğu və ya adi halsızlığı səhv salır, nəticədə vaxtında yardım göstərilmədiyi üçün vəziyyətləri ağırlaşır. Halbuki düzgün davranış və sadə profilaktik tədbirlər həm günvurmanın, həm də onun yaratdığı ağır fəsadların qarşısını almağa imkan verir.**



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan **Lökbatan Tibb Mərkəzinin Təcili Tibbi Yardım həkimi Mehman BAĞIROV** bildirib ki, günvurma başın açıq hissəsinə günəş şüalarının uzun müddət birbaşa təsiri nəticəsində beyin fəaliyyətinin pozulması ilə xarakterizə olunan təhlükəli vəziyyətdir. Bu zaman orqanizmin istilik tənzimləmə sistemi normal fəaliyyət göstərə bilmir və bədən temperaturu sürətlə yüksəlir. İlk əlamətlərə başağrısı, ümumi halsızlıq, ürəkbulanma, qusma, başgicəllənmə və süstlük daxildir. Vaxtında müdaxilə edilmədikdə isə vəziyyət ağırlaşaraq huşun itməsi, koma və hətta ölümlə nəticələnə bilər.

Həkimin sözlərinə görə, günvurma üç dərəcəyə bölünür və hər mərhələnin özünəməxsus klinik əlamətləri var: "Yüngül dərəcədə insanda ümumi zəiflik, başağrısı, ürəkbulanma, nəbzin və tənəffüsün sürətlənməsi, həmçinin göz bəbəklərinin genişlənməsi müşahidə edilir. Bu mərhələdə ən vacib addım zərərçəkəni dərhal günəş altında olduğu yerdən uzaqlaşdırmaq, kölgəyə və ya sərin məkana aparmaqdır. Əgər ürəkbulanma və qusma yaranarsa, insanın qusuntu ilə boğulması üçün onu böyrü üstə çevirmək lazımdır. Orta dərəcəli günvurmada əlamətlər daha qabarıq şəkildə özünü göstərir. Güclü halsızlıq, intensiv başağrısı, ürəkbulanma və qusma ilə yanaşı, qulaq batması, hərəkət koordinasiyasının pozulması, yerişdə inamsızlıq meydana çıxır. Bu vəziyyətdə artıq tibbi yardımın gecikdirilməsi təhlükəli nəticələrə səbəb ola bilər. Günvurmanın ağır forması isə əksər hallarda qəfil inkişaf edir. Üz nahiyəsində damarların həddindən artıq qanla dolması nəticəsində qızartı yaranır, bədən temperaturu 41-42 dərəcəyə qədər yüksəlir. Yüngül huş pozğunluğundan komaya qədər müxtəlif vəziyyətlər, sayıqlama, qarabasma, sidik və nəcisin qeyri-iradi ifrazı müşahidə oluna bilər. Belə hallarda həyat üçün ciddi təhlükə yarandığından dərhal təcili tibbi yardım çağırılmalıdır".

Günvurma zamanı göstərilən ilk yardım insanın həyatını xilas edə bilər. Mehman Bağırov vurğulayıb ki, günvurmadan zərərçəkən insan ilk növbədə kölgəyə, sərin otağa və ya kondisionerli məkana aparılmalıdır. O, üfüqi vəziyyətdə uzadılmalı, başı və çiyinləri bir qədər qaldırılmalıdır. Baş nahiyəsinə soyuq su ilə isladılmış dəsmal qoymaq, bədəni yaş dəsmalla silmək və müxtəlif üsullarla soyutmaq tövsiyə edilir. Əgər şəxs huşunu itirməyibsə, ona bol maye qəbul etdirmək lazımdır. İlkin mərhələdə orqanizmdə itirilən maye və duz balansını bərpa etmək üçün 1 litr suya 2 xörək qaşığı şəkər tozu və yarım çay qaşığı natrium xlorid və ya natrium bikarbonat əlavə etməklə hazırlanan məhluldan istifadə etmək olar.

Fiziki soyutma tədbirlərinin xüsusi əhəmiyyət daşıdığını deyən mütəxəssis qeyd edib ki, bunun üçün dəri soyuq su ilə isladılmış dəsmalla silinməli, baş nahiyəsinə soyuq kompres qoyulmalıdır. Lakin çox buz kimi su və ya buzun birbaşa dəriyə tətbiqi düzgün deyil. Çünki bu, damarların qəfil daralmasına səbəb ola və istiliyin bədəndən xaric olmasını çətinləşdirə bilər. Zərərçəkən huşsuz vəziyyətdədirsə, ona ağızdan su və ya hər hansı maye vermək olmaz. Bu, nəfəs yollarına maye keçməsi riskini artırır. Belə şəxslər mütləq böyrü üstə çevrilməli, tənəffüsü və nəbzi daim nəzarətdə saxlanmalıdır. Tənəffüs və ürək fəaliyyəti dayanarsa, tibbi yardım gələnədək süni tənəffüs və ürək-ağciyər reanimasiyası tədbirləri həyata keçirilməlidir.

Həkim uşaqların və yaşlı insanların xüsusilə günvurmaya daha həssas olduğunu bildirib: "Uşaqlarda istilik tənzimləmə mexanizmləri tam formalaşmadığından, yaşlı insanlarda isə orqanizmin uyğunlaşma qabiliyyəti zəiflədiyindən risk daha yüksək olur. Bundan əlavə, ürək-damar xəstəlikləri, şəkərli diabet, piylənmə və yüksək arterial təzyiqdən əziyyət çəkən şəxslər də uzun müddət günəş altında qalarkən daha ehtiyatlı olmalıdırlar. Günvurmanın qarşısını almaq müalicəsindən qat-qat asandır. Günəş şüalarının ən intensiv olduğu saat 11:00-17:00 aralığında açıq havada uzun müddət qalmaq məsləhət görülmür. Zərurət yarandıqda isə mütləq açıq rəngli, yüngül və hava keçirən geyimlər seçilməli, baş örtüyündən istifadə edilməlidir. Açıq rəngli papaq və ya şlyapa günəş şüalarını daha az udduğu üçün başın həddindən artıq isinməsinin qarşısını alır".

Yay aylarında kifayət qədər su qəbul etmək də böyük əhəmiyyət daşıyır. Mehman Bağırovun sözlərinə görə, insan susuzluq hissini gözləmədən gün ərzində müntəzəm şəkildə maye qəbul etməlidir. Tərləmə nəticəsində itirilən su və mineralların bərpası üçün adi içməli su ilə yanaşı, mineral tərkibli mayelərdən də istifadə oluna bilər. Orqanizmdə maye itkisini artırdığı üçün alkoqollu və həddindən artıq kofeinli içkilərin qəbulu da məhdudlaşdırılmalıdır. Avtomobildə uşaqları və ya ev heyvanlarını qısa müddətə belə tək qoymaq son dərəcə təhlükəlidir. Günəş altında qalan avtomobilin salonunda temperatur cəmi bir neçə dəqiqə ərzində həyati təhlükə yaradacaq həddə yüksələ bilər. Bu isə qısa zamanda ağır günvurma və istilik zərbəsinə səbəb ola bilər.

İnsanların bir qismi günvurmanın əlamətlərini adi yorğunluq kimi qiymətləndirərək istirahəti davam etdirir. Halbuki başgicəllənmə, güclü halsızlıq, ürəkbulanma, baş ağrısı və yüksək hərarət müşahidə olunan kimi dərhal günəşin birbaşa şüalarından uzaqlaşdırılmalı və vəziyyəti diqqətlə izlənilməlidir. Vaxtında görülən tədbirlər ağırlaşmaların qarşısını almaqla yanaşı, insan həyatını da xilas edə bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

BEYNƏLXALQ HƏYAT

# Fransada 15 yaşadək uşaqların sosial mediadan istifadəsi qadağan edilir

**Fransa sentyabr ayından etibarən 15 yaşdan kiçik uşaqların sosial mediaya çıxışını qadağan edəcək. Plan azyaşlı uşaqları təhlükəli məzmundan və ekran asılılığı inkişaf riskindən qorumaqdır.**



Fransa bu cür qadağanı tətbiq edən ilk Avropa İttifaqı ölkəsi olacaq. Müvafiq qanun layihəsi çərşənbə axşamı parlamentdə təsdiqlənib və sentyabr ayında qüvvəyə minməsi planlaşdırılır. Milli Assambleyanın 279 üzvü qanun layihəsinin lehinə, 81 üzvü isə əleyhinə səs verib.

Qaydaların iki mərhələdə tətbiq olunması gözlənilir: Sentyabrın 1-dən etibarən 15 yaşdan kiçik uşaqların yeni hesablar yaratması qadağan ediləcək və qadağa 2027-ci ildən etibarən mövcud hesablara da şamil olunacaq. Prezident Emmanuel Makron planlaşdırılan dəyişiklikləri ikinci müddətinin flaqman islahatı adlandıraraq onların tez bir zamanda tətbiqini asanlaşdıracağını vəd edib.

Səsvermədən əvvəlki müzakirələr zamanı uşaqları sosial mediada sərbəst gəzmək risklərindən qoruyan qanun layihəsinin mətni "Yenilməyən Fransa" istisna olmaqla partiyaların əksəriyyəti tərəfindən təsdiqlənib. Ümumi qadağa əvəzinə zərərli xüsusiyyətlərin deaktiv edilməsini müdafiə edən sosialistlər tərəfsiz qalıblar.

Bu arada Aİ bu məsələdə geri getməyə hazırlaşır və yaş həddini 13-ə endirməyi təklif edir. Mövzu ilə bağlı hesabat ötən həftə Avropa Komissiyasının rəhbəri tərəfindən təqdim olunub. Hesabatda 13 yaşdan kiçik uşaqların sosial mediadan yalnız məhdud müddət ərzində valideynlərin, qəyyumların və ya müəllimlərin nəzarəti altında istifadə etmələri təklif edilir. Daha böyük yeniyetmələr platformanın təqdim etdikləri məzmunun təhlükəsizliyi ilə bağlı zəmanətləri altında sosial mediadan istifadə edə biləcəklər.

Hazırda dünyanın təxminən 20 ölkəsi uşaqlar üçün sosial media qadağaları tətbiq edib və ya yaxın gələcəkdə bunu etməyi planlaşdırır.

# Hava günəşli keçəcək

**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi proqnozlaşdırılır. Cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 22-25, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-26, gündüz 35-39, dağlarda gecə 13-18, gündüz 24-29 dərəcə isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24, gündüz 35-39 dərəcə isti olacağı gözlənilir.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18, gündüz 21-26, bəzi yerlərdə 31-36 dərəcə isti olacağı proqnozlaşdırılır.

# Qayanada bərə qəzasında ölənlərin sayı artıb

**Qayananın sahillərində bərənin çevrilməsi nəticəsində ən azı 53 nəfər ölüb. "MV Barima" gəmisi iyulun 18-də axşam saatlarında paytaxt Corctaundan Birima-Vayni rayonundakı Port Kaytuma qəsəbəsinə gedərkən çevrilib. Bu barədə iyulun 22-də Baş nazir Mark Filips məlumat verib.**

Hökumət başçısının dediyinə görə, sağ qalanların intensiv axtarışı yalnız bazar günü səhər tezdən başlayıb və indiyə qədər 76 nəfər xilas edilib. Hakimiyyət orqanları əvvəllər 27 nəfərin öldüyünü bildirmişdi, lakin bu rəqəm sonradan 41-ə çatmışdı. Sərnişinlərin sayı ilə bağlı da qarışıqlıq olub: sərnişin siyahısında əvvəlcə 133 nəfər var idi, lakin faciə zamanı gəmidə 179 nəfərin olduğu dəqiqləşdirilib. Buna görə də daha 50 nəfərin taleyi məlumsuz olaraq qalır və o səbəbdən ölənlərin sayı arta bilər.

Qayanın Baş naziri jurnalistlərə bildirib ki, hadisədən sonra sağ qalan kapitan da daxil olmaqla köhnə bərənin iki heyət üzvünün marixuana testi müsbət çıxıb.

VesselFinder gəmiçilik veb saytına görə, "MV Barima" 1939-cu ildə inşa edilib. Adətən bu cür gəmilər əvvəlcə Atlantik okeanında üzür, sonra sıx tropik meşənin dərinliyində yerləşən Port Kaytuma qəsəbəsinə çatmaq üçün çaya girirlər. "MV Barima" 24 saatlıq səyahətinə günortadan sonra başlayıb və təxminən 8 saat keçdikdə təcili yardım siqnalı alınıb. Sağ qalan sərnişinlərdən biri News Source xəbər portalına bildirib ki, yüksək səs eşidib və gəminin içərisində suyun axdığını görüb. Daha sonra bərə batmağa başlayıb. Hakimiyyət orqanlarının məlumatına görə, axtarış-xilasetmə əməliyyatı zamanı gəmi sahildən təxminən 15 kilometr aralıda dənizin dibində aşkar edilib.

Prezident Məhəmməd İrfaan Əli televiziya çıxışında deyib: "Millətə zəmanət verirəm ki, bu faciə ilə bağlı tam, hərtərəfli və müstəqil araşdırma aparılacaq".

Məlumat üçün bildirək ki, Qayana Cənubi Amerikanın şimal-şərqində yerləşən kiçik ingilisdilli ölkədir. Neftlə zəngin Essekibo bölgəsi üzərində qonşu Venesuela ilə ərazi mübahisəsi mövcuddur.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3204
Sifariş 923

Qiyməti 60 qəpik